AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
MAGİSTRATURA MƏRKƏZİ

*Əlyazması hüququnda*

MİRZƏYEV QƏZƏNFƏR NAZİM oğlu

"İQTİSADİ SİSTEMİN TRANSFORMASİYASI VƏ HÜQUQİ TƏNZİMLƏMƏ MEXANİZMİNİN FORMALAŞDIRILMASININ KONSEPTUAL ASPEKTLƏRİ" mövzusunda

# MAGİSTR DİSSERTASİYASI

İxtisasın şifri və adı: 060404 - "İqtisadiyyat"
İxtisaslaşma: "İqtisadiyyatın hüquqi tənzimlənməsi"

| | |
|---|---|
| Elmi rəhbər: | Magistr proqramının rəhbəri |
| iqtisad üzrə fəlsəfə doktoru, | iqtisad üzrə fəlsəfə doktoru, |
| dosent S.Z. İSAYEV | dosent S.Z. İSAYEV |

Kafedra müdiri:
iqtisad elmləri doktoru,
professor F.P. RƏHMANOV

BAKI- 2015

MÜNDƏRİCAT

GİRİŞ........................................................................................................ 3

I FƏSİL. İQTISADIYYATIN HÜQUQI TƏNZIMLƏNMƏSININ KONSEPTUAL ASPEKTLƏRİ........................................................................................7

1.1 İqtisadiyyatın tənzimlənməsini şərtləndirən amillər...............................7

1.2 İqtisadi münasibətlərin tənzimlənməsi prosesində hüququn yeri və rolu........................................................................................21

1.3 Hüquqi tənzimlənmə prosesinə institutsionalist yanaşma və onun xarakterik cəhətləri...............................................................27

1.4 İqtisadiyyatın hüquqi tənzimlənməsinə müasir yanaşmalar...................33

II FƏSİL. İQTİSADİYYATIN TƏNZIMLƏNMƏSİ PROSESİNƏ HÜQUQUN TRANSFORMASIYASI VƏ ONUN FORMALAŞDIRILMASI MEXANİZMİ..........................................................................................43

2.1 İqtisadi sistemin transformasiyası şəraitində dövlətin, iqtisadiyyatın və hüququn qarşılıqlı əlaqəsinin iqtisadi təhlili....................................43

2.2 Hüququn iqtisadi funksiyaları və onun reallaşdırılmasının təmini mexanizmi...........................................................................50

2.3 Müasir iqtisadi hüquq nəzəriyyəsində Amerika və Avropa məktəbləri..........................................................................................64

III FƏSİL. DÖVLƏTİN İQTİSADİYYATA MÜDAXİLƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.....................................68

3.1 İqtisadiyyatın hüquqi tənzimlənməsi mənbələrinin formalaşdırılması və reallaşdırılması prosedurlarının təkmilləşdirilməsi istiqamətləri...................................................................................68

3.2 İqtisadiyyatın tənzimlənməsini reallaşdıran dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin effektiv əlaqələndirilməsi...................................74

3.3 İqtisadi münasibətlərin hüquqi tənzimlənməsi sahəsində xarici ölkələrin təcrübəsi və ondan istifadə istiqamətləri...............................................88

NƏTİCƏ VƏ TƏKLİFLƏR...........................................................................96

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR......................................................102

# GİRİŞ

Mövzunun aktuallığı. Məlum olduğu kimi iqtisadiyyatin tənzimlənməsi funksiyası daha çox qanunvericilik fəaliyyəti ilə bağlıdır. İqtisadi qərarlar qəbul olunmasının hüquqi əsaslarını yaratmaq məqsədi ilə dövlət müvafiq qanunlar işləyib hazırlayır və qəbul edir. Iqtisadiyyatın tənzimlənməsi dövlətin mühüm funksiyalarından biri olmaqla iqtisadiyyata təsirin müxtəlif metodlarını istifadə edərək bazar mexanizminin fəaliyyətinin mənfi nəticələrini aradan qaldırmaq və iqtisadiyyatın inkişafını təmin etmək üçün əlverişli şərait yaratmaq məqsədini güdür.

Dövlətin bu sahədə fəaliyyətinin əsas istiqamətlərindən biri uyğun qanunvericiliyin işlənib hazırlanması, qəbulu və yerinə yetirilməsinin təşkili, büdcə, bank, vergi, investisiya sahəsinin və s. fəaliyyətinin hüquqi əsasının yaradılmasıdır. Hüquq və iqtisadiyyatın qarşılıqlı əlaqəsi uzun illərdən bəri həm iqtisadçıların, həm də hüquqşünasların diqqət mərkəzində olmuşdur. Bu qarşılıqlı əlaqə ictimai inkişafın ümumi qanunauyğunluqlarına tabe olmaqla bir tərəfdən cəmiyyətin iqtisadi tələbatları obyektiv olaraq iqtisadi münasibətlərin tənzimlənməsinin hüquqi formalarınının, hüquqi möhkəmləndirmə və müxtəlif mülkiyyət formalarının mühafizəsinin, istehsalçıların müstəqilliyinin təmin edilməsinin zəruriliyini doğurur, digər tərəfdən iqtisadi münasibətlərin hüquqi forması təkcə zərurilikdən ibarət deyildir, aktiv təşkilati vəzifə yerinə yetirir və buna görə də cəmiyyətin iqtisadi həyatına iqtisadi proseslər mexanizminin vacib komponenti kimi dərindən nüfuz edir.

Müasir dördə respublikamizda iqtisadi suverenliyin, siyasi müstəqilliyin, cəmiyyətdə sosial sabitliyin, xalqın rifah halının və mənəvi səviyyəsinin yüksəldilməsi, iqtisadi siyasətin məqsədi olan iqtisadi artıma nail olunması, iqtisadi münasibətlərə dövlətin səmərəli müdaxiləsi, dövlətin hüquqi vasitələrdən istifadə edərək iqtisadi münasibətləri tənzim etməsi, respublikamızın zəngin və keyfiyyətli təbii xammal ehtiyyatlarından və intellektual potensialından daha səmərəli surətdə istifadə edilməsi, gələcək nəslin mənafeyinin gözlənilməsi, insanların psixologiyasında ciddi dəyişikliklərin aparılmasını təmin etmək ölkə qarşısında duran əsas məqsədlərdəndir.

Hüquq və iqtisadiyyatın qarşılıqlı əlaqəsi uzun illərdən bəri həm iqtisadçıların, həm də hüquqşünasların diqqət mərkəzində olmuşdur. Bu qarşılıqlı əlaqə ictimai inkişafın ümumi qanunauyğunluqlarına tabe olmaqla bir tərəfdən cəmiyyətin iqtisadi tələbatları obyektiv olaraq iqtisadi münasibətlərin tənzimlənməsinin hüquqi formalarınının, hüquqi möhkəmləndirmə və müxtəlif mülkiyyət formalarının mühafizəsinin, istehsalçıların müstəqilliyinin təmin edilməsinin zəruriliyini doğurur, digər tərəfdən isə iqtisadi münasibətlərin hüquqi forması yalnız zərurilikdən ibarət deyildir, aktiv təşkilati vəzifə yerinə yetirir və buna görə də cəmiyyətin iqtisadi həyatına iqtisadi proseslər mexanizminin vacib komponenti kimi dərindən nüfuz edir.

Dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə respublikamızın siyasi, ictimai, iqtisadi və sosial həyatındakı mövcud vəziyyət totalitar sovet rejimindən miras qalmış və inzibati-amirlik sisteminə əsaslanan təsərrüfat mexanizmindən imtina edilməsini və bazar iqtisadiyyatına keçidi qəti şəkildə, tam kəskinliyi ilə qarşıya qoymuşdur. Çünki istehsal vasitələri və nəticələrinin əldə edilməsi və idarə olunması üzərində dövlət inhisarından təsərrüfat müəssisələrinin müstəqilliyinə əsaslanan mülkiyyətin müxtəlif formalarına keçilmədən, təsərrüfatın avtoritar – bürokratik sistemi ləğv edilərək tərəflərin bərabərliyinə, qarşılıqlı mənafe və maraqlarına uyğun mülki hüquqi əlaqə formaları yaradılmadan, bölgüdəki bərabərlikdən asılı olaraq sosial ədalət mexanizmləri vasitəsilə bölgüsünə keçilməsini təmin etmədən iqtisadiyyatın potensial imkanlarını reallaşdırmaq, işgüzarlıq və sahibkarlıq fəaliyyətini, təsərrüfatçılıq fəallığını artırmaq, milli sərvətlərdən və təbii ehtiyatlardan daha səmərəli istifadə etmək mümkün deyildir.

Göründüyü kimi tədqiqat işinin aktuallığını mövcud iqtisadi münasibətlərin yeni sistemə uyğunlaşdırılması, həmin sahələri əhatə edən və tənzimləyən qanunvericilik bazasının yaradılması, artıq bazar iqtisadiyyatına qədəm qoymuş ölkələrin təcrübəsindən istifadə edərək iqtisadiyyatın səmərəli idarə edilməsinə nail olmaq təşkil edir. Mülkiyyət, özəlləşdirmə, maliyyə, vergi, gömrük və s. sahələrlə bağlı əvvəllər bizim cəmiyyətə məlum olmayan iqtisadi – hüquqi münasibətlər yaranır, iqtisadiyyatın bütün sahələrində çoxsaylı təşkilati hüquqi formalar təşəkkül tapır.

Dissertasiya işinin predmetini iqtisadi sistemin transformasiyası şəraitində dövlətin iqtisadi münasibətlərə müdaxiləsi, hüquqi vasitələrlə iqtisadiyyatı tənzimləməsi, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən qanunvericilik bazasının formalaşdırılması, mövcud qanunların, normativ hüquqi aktların təkmilləşdirilməsi yollarının öyrənilməsi təşkil edir. İşin obyektini isə Azərbaycan Respublikasının milli iqtisadiyyatı təşkil edir.

İqtisadi fəaliyyəti, müxtəlif sahələrdəki iqtisadi münasibətləri tənzimləyən və müxtəlif hüquqi qüvvəyə malik olan normativ aktlar dissertasiya işinin nəzəri – metodoloji əsasını təşkil edir. Həmin normativ hüquqi aktlara iqtisadiyyatın ayrı – ayrı sahələrini tənzimləyən qanunları, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını aid etmək olar. Həmçinin dissertasiya işində internet resurslarından da istifadə olunub.

Dissertasiya işinin elmi yeniliyi dövlət, iqtisadiyyat və hüququn qarşılıqlı əlaqəsi və təsirin iqtisadi təhlili və respublikamız üçün onun məqsədəuyğun variantı müəyyən olunmsı ilə şərtlənir.

Dissertasiya işinin məqsədi ölkəmizdə bazar iqtisadiyyatına keçid şəraitində iqtisadi münasibətlərin inkişaf etmiş bazar prinsipləri əsasında formalaşdırılması və bu formalaşan münasibətlərin daim inkişaf etdirilərək dövrün tələblərinə uyğunlaşdırılmasına imkan verən səmərəli dövlət tənzimlənməsi sisteminin yaradılması potensialını üzə çıxarmağa çalışmaqdır.

Dissertasiya işinin vəzifələrinə aşağıdakıları aid etmək olar:

- iqtisadiyyatın tənzimlənməsini şərtləndirən amillərin xarakterizə edilməsi;
- iqtisadi münasibətlərin tənzimlənməsində hüququn təsir mexanizminin müəyyənləşdirilməsi;
- iqtisadi münasibətlərin hüquqi tənzimlənməsinə institutsionalist yanaşmanın özünəməxsus xüsusiyyətlərinin ortaya çıxarılması;
- dövlət, iqtisadiyyat və hüququn qarşılıqlı əlaqəsi və təsirin iqtisadi təhlilinin aparılması;
- müasir iqtisadi hüquq nəzəriyyələrini müqayisəli təhlili;

- Azərbaycan Respublikasında iqtisadi hüquq mənbələrinin formalaşdırılması və reallaşdırılması prosedurlarını tədqiqi;

- iqtisadiyyatın hüquqi tənzimlənməsi sahəsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi və həmin təcrübədən istifadə istiqamətlərinin araşdırılması təşkil edir.

Dissertasiya işinin informasiya bazasını müxtəlif ədəbiyyatlarla yanaşı qanunlar, məcəllələr, normativ hüquqi aktlar və həmçinin internet reursları da təşkil edir. Dissertasiya işində müxtəlif tədqiqat üsullarından istifadə olunmuşdur. Bunlara analiz, sintez, qruplaşdırma, statistik, sistemli təhlil, müqayisəli təhlil və s. göstərmək olar.

Dissertasiya işinin strukturu girişdən, üç fəsil, nəticə və təkliflərdən ibarətdir. Sonda istifadə olunmuş ədəbiyyatların siyahısı verilmişdir.

# I FƏSİL. İQTİSADİYYATIN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN KONSEPTUAL ASPEKTLƏRİ

## 1.1. İqtisadiyyatın tənzimlənməsini şərtləndirən amillər

Dünya təcrübəsi göstərir ki, hər hansı bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. Bu baxımdan dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudunun gözlənilməsi iqtisadiyyatın tənzimlənməsilə bağlı başlıca problemlərdən biridir. Bəşər cəmiyyətinin inkişafı gedişində dövlət ölkədə qayda-qanunu gözləmək, milli təhlükəsizliyi təmin etmək üçün ordunun təşkili və saxlanılması ilə yanaşı, bu və ya digər səviyyədə müxtəlif iqtisadi proseslərə müdaxilə etmişdir. Məs. Orta əsr feodal dövləti feodalların torpaq mülkiyyətinin qorunmasını təmin edir, mərkəzi hakimiyyətə münasibətdə sənətkarların və kəndlilərin yerinə yetirəcəyi öhdəlikləri müəyyənləşdirirdi. Ancaq, XIX əsrin sonundan etibarən dövlət iqtisadiyyata nəzarət və onun tənzimləmə funksiyalarını daha çox yerinə yetirməyə başladı. Bu, özünü hər şeydən əvvəl, iqtisadiyyatı tənzimləyən normativ hüquqi aktların yaradılmasında, onun yerinə yetirilməsində dövlətin nəzarət etməsini göstərirdi. Dövlət möhkəmləndirildikdə getdikcə daha çox ictimai mənafelərə və bütövlükdə iqtisadi sistemə xidmət etməyə başladı. Dövlətin iqtisadiyyata müdaxiləsi prosesinin güclənməsinə Birinci Dünya müharibəsi və 1929-1933-cü illərin böhranı həlledici təsir etdi[1]. Belə ki, “Durğunluq illəri” bazar iqtisadiyyatının tənzimlənməsinin klassik istiqamətlərinin bir çox müddəalarının səmərəsizliyini əyani surətdə sübuta yetirdi. Dövlət ölkəni böhrandan çıxarmaq və bütünlükdə iqtisadi sistemin özünün mövcudluğunu qorumaq məqsədilə güclü və sərt tənzimləmə tədbirləri sistemini tətbiq etmək məcburiyyətində qaldı. Məhz belə bir şəraitdə 30-cu illərin sosial-iqtisadi reallıqlarına əsaslanaraq meydana çıxan C. Keyns nəzəriyyəsində ilk dəfə olaraq bazar iqtisadiyyatı şəraitində cəmiyyətin iqtisadi həyatına dövlətin müdaxiləsinin konseptual nəzəri əsasları işlənib hazırlandı. C. Keyns 1936-cı ildə çapdan çıxmış “Məşğulluğun, faizin və pulun

[1] Sadıqov K. F. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsasları. Bakı, 1999, s. 67

ümumi nəzəriyyəsi” əsərində klassik və neoklassik təlimlərdən əsaslı surətdə fərqli olaraq sübut etdi ki, dövlət tələb səviyyəsinə təsir göstərməklə bütünlükdə iqtisadiyyatı tənzimləyə bilər. Başqa sözlə desək, bu nəzəriyyədə “Keyns inqlabı”-nın əsasında onun irəli sürdüyü “səmərəli tələb” ideyası durur. Məlum olduğu kimi, tələb iki ünsürün –şəxsi istehlak və məhsuldar istehlakın, başqa sözlə, məcmu investisiya qoyuluşunun cəmindən ibarətdir. Iqtisadiyyatın tənzimlənməsinin Keyns modeli hər şeydən əvvəl tələbin idarə olunmasında dövlət tənzimlənməsi ilə bazar mexanizminin vəhdətinə əsaslanır. C.Keyns belə hesab edir ki, cəmiyyətdə iqtisadi inkişafı təmin etmək üçün tələbi formalaşdıran və milli gəliri artıran amillərə təsir etmək kifayətdir. Bu məqsədlə milli gəlirin artımı şəraitində tam məşğulluğu təmin etmək üçün istehlak, investisiya və məşğulluq arasındakı qarşılıqlı funksional asılılığı aşkara çıxarmaq lazımdır. əməli cəhətdən bu ideyanı reallaşdırmaq üçün gəlirlər, istehlak, yığım, istehsalın miqyası, investisiya kimi makroiqtisadi göstəricilərin qarşılıqlı əlaqəsini də nəzərə almaq lazımdır. Keyns nəzəriyyəsində dövlətin iqtisadiyyata müdaxiləsində məqsəd böhran hallarını aradan qaldırmaq, maksimum məşğulliğu təmin etmək, nəticə etibarilə iqtisadi artımın sürətini yüksəltməkdən ibarətdir. Bütün bunların əsasında Keyns belə bir nəticəyə gəlir ki, səmərəli tələbi və tam məşğulluğu təmin etmək üçün dövlət fəal büdcə-maliyyə siyasətini həyata keçirməlidir.

Iqtisadi ədəbiyyatda dövlət tənzimlənməsinin Keyns modeli aşağıdakı istiqamətlərdə müəyyənləşdirilmişdir:

1. Dövlət büdcəsi vasitəsilə milli gəlirin xeyli hissəsinin yenidən bölüşdürülrülməsinə nail olunur.

2. Dövlət və qarışıq müəssisələrin yaradılması hesabına sahibkarlığın geniş dövlət bölməsi yaradılır.

3. İqtisadi mühiti sabitləşdirmək, tsiklik enib-qalxmaları yumşaltmaq, milli məhsulun yüksək artım surətinə nail olmaq və məşğulluğun səmərəli səviyyəsini təmin etmək üçün büdcə-maliyyə, kredit-maliyyə tənzimlənməsindən geniş istifadə olunur. Belə ki, “Böyük durğunluq” illərində əksər dünya ölkələrini bürümüş sosial-iqtisadi böhrandan çıxarmaq üçün dövlət öz üzərinə çox böyük iqtisadi funksiyalar götürməyə məcbur oldu. XX əsrin II yarısında (xüsusən 70-ci illərdə) iqtisadiyyatın

sosial yönümünün güclənməsi isə iqtisadiyyata dövlətin müdaxiləsinin yeni və eyni zamanda çox mühüm mərhələsi kimi qeyd oluna bilər. Bu dövrdə istehsalın azalması və eyni zamanda inflyasıya baş vermişdir. Mövcud sosial –iqtisadi proseslərlə əlaqədar olaraq digər bir cərəyan-monetarizm meydana gəldi. Monetarizm müasir mühafizəkarlığın ən aparıcı cərəyanıdır. Müasir mühafizəkarlıq monetarizmlə yanaşı özündə Təklif və Səmərəli gözləmə nəzəriyyələrini də birləşdirir. Monetarizmin banisi M. Fridmendir. Bu nəzəriyyə C. Keynsin nəzəriyyəsinə əks bir nəzəriyyə hesab olunur. Monetaristlər sübut etməyə çalışır ki, yalnız azad sahibkarlıq şəraitində tam azadlığa, iqtisadi səmərəyə və bölgüdə bərabərliyə nail olmaq olar. Onlar hesab edir ki, tələbin tənzimlənməsi təsərrüfat düzəlişinin təbii prosesini pozur. Onlar azad sahibkarlığa təhlükə kimi qiymətləndirilən dövlət müdaxiləsinin formalarının aradan qaldırılması uğrunda mübarizə aparmışlar.

Məhz bu proseslə əlaqədar, yəni, istehsalın həcminin azalması və eyni zamanda inflyasiyanin baş verməsilə əlaqədar C. Keynsin büdcə xərclərini artırmaq təklifi, yaxud kəsirli maliyyələşdirmə siyasətinin yeridilməsi əlverişli olmamışdı. Büdcə vasitəsilə tənzimləmək inflyasiyanı gücləndirirdi. Ona görə də, monetarizm siyasətinin tətbiq edilməsi zərurəti meydana gəldi. Monetarizm –pul kütləsinin iqtisadi fəallığa, monetar vasitələrin və monetar siyasətin iqtisadi inkişafa təsir mexanixmini əsaslı surətdə öyrənən nəzəriyyədir. Monetarizm əsasən pul kütləsinin tənzimlənməsinə yönəldilmmiş pul-kredit siyasətidir. Monetarizmin fərqləndirici xüsusiyyəti iqtisadiyyatın bütün əsas problemlərinə (qiymət, işsizlik, inflyasiya, gəlirlərin nominal səviyyəsi və s.) pul tədavülü prizmasından yanaşmasıdır. Monetarizmin mahiyyəti iqtisadi tarazlığın sabit gedişinin pozulmasının səbəbini səhv pul siyasəti və pul sferasındakı dəyişiklik ilə əlaqədar olduğunu sübut etməkdir. M. Fridmen özünün bütün əsər və məqalələrində uzunmüddətli dövrdə təsərrüfat həyatında baş verən böyük dəyişikliklərin hər şeydən əvvəl pul kütləsi və pulun hərəkətilə əlaqədar olduğunu sübut etməyə çalışmışdı. O, 1929-1933-cü illərin böhranı da daxil olmaqla bütün iqtisadi sarsıntıları bazar iqtisadiyyatının qeyri-sabitliyi ilə deyil, pul siyasətinin nəticəsi kimi izah edir.

Uzun illərin təcrübəsi göstərir ki, dövlətin müdaxiləsi olmadan hər bir cəmiyyət üçün xarakterik olan üç problemi-inhisarçılığın artması, inflyasiyanın güclənməsini və işgüzar fəallığın aşağı düşməsini həll etmək mümkün deyil. Misal üçün: Azad bazar mexanizmi mövcud ETT-nin nailiyyətlərindən kommersiya əsasında səmərəli istifadə olunmasını stimullaşdırsa da, ETT-nin strateji problemlərini həll etmək üçün dövlət bu proseslərə hökmən müdaxilə etməlidir.

Məlumdur ki, cəmiyyətdə gəlirlərin bazar mexanizmi əsasında bölgüsü, sosial ədaləti və sosial mühafizəni təmin etməyə imkan vermir. Odur ki, əgər dövlət vaxtında bu sosial – iqtisadi proseslərə müdaxilə etməsə, müəyyən dövrdən sonra onun neqativ nəticələri elə həddə gəlib çatar ki, o, cəmiyyəti iqtisadi böhrana düçar edər. Bu halda başlıca problem dövlətin iqtisadiyyata müdaxiləsinin maksimum vəya minimum yol verilən hədlərinin müəyyənləşdirilməsidir. Belə ki, müəyyən həddən yuxarı və ya aşağı səviyyədə dövlətin iqtisadiyyata müdaxiləsi hər iki halda ziyanlıdır. O da məlumdur ki, hər hansı bir ölkədə sosial-iqtisadi şəraitdən asılı olaraq müdaxilənin həddi və istiqaməti müxtəlif ola bilər. Dövlət özünün iqtisadi tənzimləmə funksiyalarını səmərəli surətdə yerinə yetirə bilməkdən ötrü hər şeydən əvvəl kifayət qədər tənzimləmə resurslarına malik olmalı, ikincisi, həmin vasitələrin imkanlarını aydın təsəvvür etməli və nəhayət, onların sosial iqtisadi nəticələrini görməlidir. Məs. ABŞ-da 100-dən yuxarı təşkilat və idarə müxtəlif səviyyələrdə iqtisadiyyatın tənzimlənməsilə məşğul olurlar və bu məqsədə ildə 100 milyard dollardan çox vəsait sərf edirlər. Bu xərclərin bir hissəsi birbaşa istehsalın və qiymətin tənzimlənməsinə yönəlirsə, onun müəyyən hissəsi isə qanunvericilik aktlarının hazırlanması, onun yerinə yetirilməsi üzərində nəzarətetməyə, dövlət xətti ilə kadr hazırlığına, müvafiq hesabat sənədlərinin hazırlanmasına və s. məqsədə istifadə olunur.

Dövlət sosial-iqtisadi vəziyyəti təhlil edib qiymətləndirmək əsasında qarşıda duran məqsədləri yerinə yetirmək üçün iqtisadi siyasətdə müəyyən düzəlişlər edir. Müasir dövlət tənzimlənmə nəzəriyyəsinin banilərindən biri olan holland iqtisadçısı Y. Tinbergen hesab edir ki, dövlətin qarşısında olan məqsədlər onun sərəncamında

olan vasitələrdən çox olmamalıdır. Bu fikrin iqtisadi mənası ondan ibarətdir ki, dövlət öz üzərinə yerinə yetirə biləcəyindən artıq yük götürməməlidir.

Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdən fərqli olaraq, postsosialist ölkələrində, o cümlədən, respublikamızda da iqtisadiyyatın tənzimlənməsi tamamilə yeni çalarlara malikdir. Yəni, dövlət ikili funksiya yerinə yetirərək bir tərəfdən iqtisadi prosesləri tənzimləyir, digər tərəfdən də bazar mühitini formalaşdırır və onun ayrı-ayrı elementlərinin fəaliyyətinə şərait yaradır. Göründüyü kimi iqtisadiyyata dövləti müdaxiləsi vacibdir və bu vaciblik aşağıdakı sxemdə öz əksini tapmış amillərin təsiri altında formalaşır.

Cədvəl 1.1

İqtisadiyyata dövlətin müdaxiləsini zəruri edən amillər[1]

| Amillər qrupu | Amillərin tərkibi |
|---|---|
| Bazar mexanizminin mənfi amillərinin aradan qaldırılması ilə bağlı olan amillər qrupu. | 1. Bazar proseslərinin kortəbiliyini məhdudlaşdırmaq.<br>2. Səmərəli məcmu tələbi təmin etmək.<br>3. Rəqabəti təmin etmək.<br>4. Dünya bazarında rəqabətin güclənməsi. |
| İqtisadi sabitliyi, geniş təkrar istehsalı təmin edən amillər qrupu. | 1. Təsərrüfat subyektləri üçün oyun qaydalarının müəyyənləşdirilməsi.<br>2. İqtisadiyyatın antitsiklik inkişafının təmin edilməsi.<br>3. Uzunmüddətli iqtisadi artımı və işgüzar fəallığı stimullaşdırmaq.<br>4. Makroiqtisadi tarazlığı qorumaq.<br>5. Dövlət sektorunda səmərəli idarəetməni təşkil etmək.<br>6. Xüsusi kapital üçün azrentabelli olan sahələrdə dövlət investisiyasına olan ehtiyac.<br>7. Elmə və ETT – yə yardım etmək. |
| Sosial problemlərin həlli ilə bağlı olan problemlər. | 1. Gəlirin səmərəli bölgüsünü təmin etmək.<br>2. Sosial sabitliyin iqtisadi əsaslarını təmin etmək və sosial gərginliyi aradan qaldırmaq.<br>3. Əhalinin tam məşğulluğunu təmin etmək.<br>4. İşçi qüvvəsinin geniş təkrar istehsalı üçün şərait yaratmaq və insanların intellektual qabiliyyətlərinin təzahürü üçün şərait yaratmaq (səhiyyənin, təhsilin inkişafı və s.) |

Sxemdən göründüyü kimi dövlətin müdaxiləsini şərtləndirən amillər geniş spektri əhatə edir. Amillərin belə geniş olması tənzimlənmənin də obyektinin geniş-

[1] Кушлина И.В., Волчина Н.А. Государственное регулирование рыночной економики, Економика 2001, стр. 234

liyini şərtləndirir. Belə ki, tənzimlənməyə ehtiyacı olan sahələrin və sferaların sayı bu amillərin təsiri altında formalaşır.

Müasir şəraitdə bəzi dünya ölkələrində iqtisadiyyatın dövlət tənzimlənməsi təcrübəsinə nəzər salaq. Iqtisadiyyatın dövlət tənzimlənməsinin daha çox inkişaf etmiş mexanizmi əsasən Qərbi Avropa ölkələrində (Fransa, Almaniya, Hollandiya, Skandinaviya ölkələri, Avstriya, İspaniya), Yaponiyada, Asiyanın və Latın Amerikasının bir sıra inkişaf etməkdə olan ölkələrində təşəkkül tapmışdır. Avropa ölkələrindən fərqli olaraq iqtisadiyyata dövlət müdaxiləsi ABŞ, Kanada, Avstraliya, kimi ölkələrdə daha məhdud xarakter daşıyır. Çünki, Avropadan fərqli olaraq bu ölkələr II Dünya müharibəsinin doğurduğu kəskin sosial-iqtisadi problemlərlə, sosializm düşərgəsinin bu bölgəyə nüfuz etməsilə qarşılaşmamışdır. Bununla belə, bu cür ölkələrdə dövlətin iqtisadiyyata müdaxiləsi əsasən işsizlik və inflyasiyanın dərinləşdiyi şəraitdə daha çox nəzərə çarpır.

Monetaristlər dövlətin vəzifəsini real sahəyə qarşılıqlı münasibətdə pul sferasını neytrallaşdırmaqda, bazar mexanizminin əlverişli şəraitini təmin etməkdə, əmtəə bazarını zəruri miqdarda pulla təchiz etməkdə görürlər. Onların fikrincə tələbin dövlət tərəfindən tənzimlənməsi (Keyns nəzəriyyəsi) bazar qüvvələrini pozur, uzunmüddətli planda isə inflyasiyanın güclənməsinə aparır. Fridmen hesab edir ki, bazar sisteminə dövlət müdaxiləsi qısamüddətli nəticə verə bilər və ona görə də dövlət bazar münasibətlərinə mümkün qədər az və ehtiyatlı müdaxilə etməlidir. O, pul tədavülünə dövlətin müdaxiləsini minimuma endirməyə çalışır. Dövlət tənzimlənməsini pul kütləsinə və pul emissiyasına nəzarətlə məhdudlaşdırır. Qısamüddətli pul siyasətindən uzunmüddətli pul tənzimlənməsinə keçməyi məqsədəuyğun hesab edir.

Monetarizm nəzəriyyəsində mərkəzi yeri işsizlik və inflyasiya problemi tutur. Fridmen işsizliyin təbii səviyyəsi anlayışını yaradır. Onun fikrinə görə işsizliyin təbii norması əmək bazarının real təbii şəraitinə uyğun işsizlik səviyyəsidir. Fridmenin təbii işsizlik anlayışı özündə makroiqtisadi amillərin və əmək bazarı institutlarının doğurduğu bütün işsizlik növlərini birləşdirir. Onun fikrinə görə işsizliyin təbii səviyyəsini prinsipcə bazar mexanizmi müəyyən etdiyindən, məşğulluq dövlətin

makroiqtisadi siyasətinin məqsədlərinə daxil olmalıdır. Işsizliyin təbii normasını yalnız makroiqtisadi tənzimləmə, yaxud institutsional dəyişikliklər yolu ilə azaltmağı mümkün hesab edir.

Monetaristlər işsizliyi əsasən Keynsçi tənzimləmənin məhsulu hesab edirlər. Göstərirlər ki, Keynsçi tənzimləmə məşğulluğu qısa müddət ərzində təmin edir və işsizliyin səviyyəsini təbii normadan müvəqqəti aşağı salır. Onların fikrinə görə, əgər dövlət məşğulluğun Keynsçi tənzimlənməsini müvəqqəti yox, müntəzəm həyata keçirərlərsə, iqtisadiyyat üçün daha təhlükəli olan işsizliyin inflyasiya ilə birləşməsi baş verər.

Keynsçilik və monetarizmin təhlilindən göründüyü kimi, keynsçilik nəzəriyyəsi qısamüddətli dövr üçün, monetariz isə uzunmüddətli dövr üçün xarakterik nəzəriyyələrdir.

Qeyd edək ki, iqtisadiyyatın tənzimlənməsilə bağlı bu nəzəriyyələrdən başqa müxtəlif nəzəriyyələr də mövcuddur. Lakin, bütün bu nəzəriyyələrdə müxtəlif fikirlərin olmasına və təcrübəyə əsaslanaraq belə hesab etmək olar ki, bazar mexanizminin həll edə bilmədiyi bütün problemləri dövlət asanlıqla həll edə bilməz və ya əksinə. Bu fikirlə razılaşmaq olar ki, tənzimləmədə bazarın "görünməyən əl"– i dövlətin görünən əli ilə tamamlanmalıdır. Hazırda yalnız iqtisadiyyatda dövlətin rolunun genişləndirilməsinin tərəfdarları olan nə sosial-demokrat, nə də azad sahibkarlığın əsasında iqtisadi inkişafın tərəfdarları olan sağ təmayüllü iqtisadçı tapmaq çətindir.

Göründüyü kimi iqtisadiyyatın tənzimlənməsinin zəruriliyi problemi artıq iqtisad elmində hamı tərəfindən qəbul edilən bir məsələyə çevrilmişdir. İndi mübahisələr tənzimlənmənin zəruriliyi problemi ətrafında deyil, onun hansı həddə aparılması ətrafındadır. Çünki, müəyyən həddən yuxarı və ya aşağı səviyyədə dövlətin iqtisadiyyata müdaxiləsi hər iki halda ziyanlıdır. Ona görə də, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudunun gözlənilməsi iqtisadiyyatın tənzimlənməsilə bağlı başlıca məsələdir.

İqtisadiyyatın tənzimlənməsi dövlətin mühüm funksiyalarından biri olmaqla iqtisadiyyata təsirin müxtəlif metodlarından istifadə edərək bazar mexanizminin

fəaliyyətinin neqativ nəticələrini aradan qaldırmaq və iqtisadiyyatın inkişafı üçün əlverişli şərait yaratmaq məqsədini güdür[1]. XIX əsrin sonundan etibarən dövlət iqtisadiyyata nəzarət və onun tənzimləmə funksiyalarını daha çox yerinə yetirməyə başladı. Bu, özünü hər şeydən əvvəl, iqtisadiyyatı tənzimləyən normativ hüquqi aktların yaradılmasında, onun yerinə yetirilməsində dövlətin nəzarət etməsini göstərirdi. Dövlətin iqtisadiyyata müdaxiləsi prosesinin güclənməsinə Birinci Dünya müharibəsi və 1929-1933-cü illərin böhranı həlledici təsir etdi. Belə ki, "Durğunluq illəri" bazar iqtisadiyyatının tənzimlənməsinin klassik istiqamətlərinin bir çox müddəalarının səmərəsizliyini əyani surətdə sübuta yetirdi. Dövlət ölkəni böhrandan çıxarmaq və bütünlükdə iqtisadi sistemin özünün mövcudluğunu qorumaq məqsədilə güclü və sərt tənzimləmə tədbirləri sistemini tətbiq etmək məcburiyyətində qaldı. Dövlətin bu sahədə fəaliyyətinin əsas istiqamətlərindən biri uyğun qanunvericiliyin işlənib hazırlanması, qəbulu və yerinə yetirilməsinin təşkili, bank, büdcə, vergi sisteminin, investisiya sferasının və s. fəaliyyətinin hüquqi əsasının yaradılmasıdır. Dövlət cəmiyyətin maraqlarını həyata keçirməklə iqtisadiyyatın subyektlərinə təsir edir, müxtəlif vasitə və formalarla onların fəaliyyətini tənzimləyir. İqtisadiyyatın dövlət tənzimlənməsi prosesində yaranan məhz bu münasibətlər iqtisadiyyatın hüquqi tənzimlənməsinin predmetini təşkil edir.

Dövlətin bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və inkişafına sistemli proses kimi yanaşması və radikal iqtisadi islahatlar üçün hüquqi baza yaradılmasında obyektiv iqtisadi qanunlardan, qanunauyğunluqlardan istifadə edərək qəbul etdiyi qanunlar, fərmanlar, sərəncamlar, qərarlar, müxtəlif səpgili normativ – hüquqi aktlar iqtisadi islahatların hüquqi bazasının yaradılmasında ən mühüm alət və vasitələrdir. Onlar bazar iqtisadiyyatı subyektlərinin fəaliyyətini tənzimləyir. Bu alət və vasitələrlə dövlət iqtisadi inkişafın cari və perspektiv problemlərini, onların operativ idarə olunması və həllini təmin edir. İqtisadi subyektlərin fəaliyyətinin ümumi qaydaları, normaları, prinsipləri və onların reallaşma mexanizmləri müvafiq qanunlarla müəyyən edilir. Dövlətin dəyişməkdə olan şəraitə uyğun qanunlar,

[1] Корсаков Е. А. "Государственно-правовое регулирование экономических отношений: проблемы, методы" Саратов, 2000. С. 24.

normativ aktlar qəbul etməsi, mövcud qanunlarda yeni iqtisadi münasibətlər sisteminin mahiyyətindən irəli gələn əlavələr və dəyişikliklər aparması zərurətə çevrilir. Bir sözlə dövlətin iqtisadiyyatı hüquqi tənzimlənməsi mülki, əmək, inzibati, gömrük, torpaq və s. hüquqlarının normalarından, həmçinin qanunvericiliyin xüsusiləşmiş – maliyyə (vergi), bank, sığortaya dair normalardan, müəssisələr, sahibkarlıq və s. haqqında qanunvericilikdən istifadə edərək ictimai münasibətləri tənzimlənməsi və nizamlanmasıdır.

İqtisadi münasibətlərin bu və ya digər sahəsində hüquqi vasitələrdən istifadəni xarakterizə edən hüquqi təsir vasitələri hüquqi tənzimləmənin metodları adlanır. Tənzimləmənin metodları tənzimləmənin predmeti olan "nəyin" "necə" tənzimlənməsində ifadə olunur. Hüquqi tənzimləmənin metodunu müəyyən edərkən, iqtisadiyyatın hüquqi tənzimlənməsinin predmetinə məxsus olan bir sıra xüsusiyyətlərin nəzərə alınması zəruridir, yəni: real təsərrüfat münasibətlərinin geniş müxtəlifliyi; müəssisənin təşkilati – hüquqi formasının, fəaliyyət istiqamətinin, istehsal olunan məhsylyn və xidmətləin çeşidinin, təchizat və satış bazarının seçilməsində və müəyyən edilməsində iqtisadi fəaliyyət subyektlərinin müstəqilliyi; iqtisadi fəaliyyət subyektləri arasında bazar xarakterli münasibətlərin olması; mahiyyətinə görə müxtəlif olan mexanizmlərin əsasında fəaliyyətin təşkili, idarə olunması və tənzimlənməsi. İqtisadiyyatın hüquqi tənzimlənməsi kompleks xarakterə malikdir. Yəni burada dövlətin iqtisadiyyata hüquqi təsiri icazə, göstəriş və qadağan xarakteri daşıyan hüquqi tənzimləmə metodlarında ifadə olunur. İqtisadi ədəbiyyatlarda hüquqi tənzimləmənin inzibati və iqtisadi metodları fərqləndirilir. İnzibati metodlar hüquqi infrastrukturun təminatı ilə bağlı tənzimləyici fəaliyyətləri ifadə edir. İqtisadi metodlar isə iqtisadi proseslərə (dövlətin maliyyə, pul – kredit siyasəti, proqnozlaşdırma) dolayı təsir tədbirləri ilə əlaqələdardır.

İqtisadi proseslərin dövlət tənzimlənməsinin ümumi qaydalarının hüquqi təyini ilk növbədə iqtisadiyyatın dövlət tənzimlənməsinin məqsəd, vəzifə və vasitələrin müəyyən edilməsini özündə əks etdirir. Bu zaman iqtisadiyyatın dövlət tənzimlənməsinin məqsədi ölkənin sosial – iqtisadi inkişaf məqsədlərindən irəli gəlir və dövlət idarəedici hakimiyyət orqanlarının gələcəkdə funksiyalarını saxlamaq üçün

ölkənin sosial və iqtisadi inkişafını qanunvericiliklə müəyyənləşdirilir. Bazar şəraitində ölkənin sosial – iqtisadi inkişafının əsas məqsədlərinə isə ölkə əhalisinin rifahının yüksəldilməsi, ictimai təkrar istehsal proseslərinin kordinasiyası və qarşıya qoyulmuş prioitetlərə uyğun olaraq iqtisadiyyatın bölmə və sahələrinin inkişafının stimullaşdırılması, iş yerləri çatışmamazlığı probleminin həlli və məşğulluğun rasional səviyyəsinə nail olunması, sosial ədalətliyə riayət etməklə əhalinin sosial qrupları üzrə təminatın tənzimlənməsi, bazarların açıqlığın artırılması, müqavilələrin bağlanması azadlığına riayət olunması daxil edilməklə tam rəqabət mexanizminin yaradılması və saxlanmasının müdafiə olunması, dünya bazarında milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyini təmin etmək üçün və sahibkarlığın inkişafı üçün müsbət şəraitin, rəqabətli bazar mühitinin inkişafı və s. daxildir.

Qeyd edilən mühüm problemlərin həlli ilk növbədə iqtisadiyyatda balanslaşdırılmış artım və əmək məhsuldarlığının yüksəldilməsi üçün şəraitin yaradılmasını, ETT-nin sürətlənməsini, qiymətlərin mümkün sabitliyinə və müsbət tədiyyə balansına yaradılmasına nail olunmasını tələb edir. Milli iqtisadiyyatın inkişafı təsərrüfat obyekt və subyektlərini ölkəmizin və xarici ölkələrin ərazilərəndə, həmçinin xarici ölkələrlə birgə fəaliyyət göstərən istehsal və xidmət sahələrini əhatə edir. Bu zaman ölkənin hüquqi tənzimləmənin obyektlərinə sahibkarlar arasındakı qarşılıqlı münasibətlər, dövlətlə iqtisadi subyektlərlə ölkə ərazisində təsərrüfat fəaliyyətini həyata keçirən( hüquqi və fiziki şəxslərin) qarşılıqlı əlaqələr çıxış edir. İqtisadiyyatın hüquqi tənzimlənməsi sistemində obyekt kimi həmçinin əşyalar, yəni istehsal olunan və dövriyyəyə buraxılan, həmçinin istehsalı və satışı qanunla qadağan olunan, və ya ölkənin stateji maraqlarına uyğun gəlməyən əmtəələr və əmtəə qrupları çıxış edə bilər. Həmçinin iqtisadiyyatda mövcud olan fəaliyyət və xidmət növləri obyekt kimi hüquqi tənzimləməyə daxil edilir. İqisadiyyatın hüquqi tənzimlənməsinin subyekti kimi hər hansı bir iqtisadi və fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər nəzərdə tutulur. Bundan əlavə dövlət də öz institutları vasitəsi ilə hüquqi tənzimləmənin subyekti qismində çıxış edə bilər. Bu zaman bu institutların simasında dövlət aşağıdakı vəzifələri yerinə yetirir:

- xüsusi kapitalın təkrar istehsalına sərfəli mühit yaratmaq;

- əmək, vergi, ticarət qanunları tərtibinə dövlətin gücünü mərkəzləşdirmək, gömrük siyasətini hazırlamaq;

- pulun dəyanətliliyini təmin etmək;

- xammal və infrastruktur obyektlərini tikmək və almaq;

- antiböhran və quruluş istiqamətlərinə, məşğulluğa və qiymətlərə təsir göstərmək;

- iqtisadiyyatın tənzimlənməsində pul – kredit, büdcə vasitələrinin təsiri üzrə eksperimentlər aparmaq;

- sahə regional orta müddətli proqramlar həyata keçirmək və s.

Hüquqi normalar əsasında iqtisadi münasibətlərin tənizimlənməsi həyata keçirilir. Hüquq norması elə şəkildə olmalıdır ki, o nə dövləti, nə də onun vətəndaşlarının fəaliyyətini məhdudlaşdırmasın, əksinə onların hər ikisinə iqtisadi-hüquqi mühitdə sərbəst fəaliyyət göstərmək imkanı versin. Hüquqi normanın xüsusiyyəti bazar iqtisadiyyatının iqtisadi şəraitini müəyyən edir və onu təmin edir. Belə ki, bu normalar bütün mülkiyyət münasibətlərinin bərabərhüquqlu olmasını müəyyən edir və bütün sahibkarlıq fəaliyyəti subyektlərinin maraqlarını qoruyur. Hüquqi tənzimləmə bir alət rolunu oynayır ki, bunun vasitəsi ilə bazar iqtisadiyyatı ictimailəşir. Burada dövlətin əsas vəzifəsi ondan ibarətdir ki, müxtəlif növlü normativlər əsasında fərdlərin haqsız bazar münasibətlərindən qorumaq, sosial cəhətdən zəif olan əhaliyə - uşaqlara, pensiyaçılara, əlillərə, çoxuşaqlı ailələrə normal həyat şəraiti təmin etsin. Hüquqi tənzimləmə istehlakçıların hüquqlarının təmin edilməsində də mühüm əhəmiyyət kəsb edir. Bazar iqtisadiyyatı şəraitində bu problem dövlət qarşısında mühüm rol oynayır və dövlət bu halda hüquqları pozulmuş istehlakçıların qarantı rolunu oynayır. Bazar subyektləri arasındakı mülkiyyət və təsərrüfat xarakterli mübahisə və münaqişələr də məhz hüquqi tənzimləmə vasitəsi ilə ədalətli şəkildə həll olunur. Bundan əlavə hüquqi tənzimləmə “gizli sahələrlə”, “gizli iqtisadiyyatla” mübarizə formasıdır. Yəni spritli içkilərin, tütün məmulatlarının və s. istehsalı birbaşa hüquqi normalarla nəzarətdə saxlanılır.

Aydındır ki, hüquqi dövlətdə iqtisadiyyatın tənzimlənməsində vasitə hüquqdur və hüququn aşağıdakı mənbələri vardır: Hüquqi adətlər, hüquqi presedentlər,

normativ hüquqi aktlar. Qeyd edək ki, müasir dünya praktikasında hüquqi adətlər və presedentlər formal olaraq hüquq mənbələri hesab olunurlar. Buradan göründüyü kimi, başlıca hüquq mənbəyi normativ hüquqi aktlardır. Normativ hüquqi akt - səlahiyyətli dövlət orqanı tərəfindən qəbul edilmiş, göstərişləri ümummәcburi xarakter daşıyan, hüquq normalarını müəyyən edən, dəyişdirən və ya ləğv edən, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş rəsmi yazılı sənəddir. Bu aktlar digər mənbə növlərindən fərqli olaraq, ictimai inkişafın dəyişilən tələbatını daha tam və operativ surətdə əks etdirir. Məhz bu xüsusiyyəti onun digər mənbə növlərindən daha çox yaradılmasına və tətbiq olunmasına zərurət yaradır. Normativ hüquqi aktlar dövlətin müxtəlif hüquqyaratma orqanları tərəfindən yaradılır. Onlar eyni hüquqi qüvvəyə malik deyil, zaman baxımından üst-üstə düşmür, müxtəlif obyektlərə və müxtəlif ərazi məkanına tətbiq edilir.

Hüquqi tənzimləmədə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də hüquqi tənzimləmənin tipinin seçilməsidir[1]. Burada iki ayrı qrup münasibətlər icazə verilmiş və qadağan edilmiş münasibətlər ayrılır. Məhz hüquqi tənzimləmənin növü fəaliyyət qaydalarını və onların istiqamətlərini aşkar etməyə imkan verir. Birinci tip aşağıdakı formada ifadə olunur: “qanunla birbaşa qadağan olunandan başqa hər şeyə icazə verilir”. Bu hüquqi tənzimləmə növündə hüquqla reqlamentləşdirilən münasibətlərdə dəqiq və aydın qadağalar müəyyən olunur. Bir qayda olaraq, bu qadağaların həcmi o qədər də çox deyil, əksinə icazə verilən qaydalar isə müəyyən olunmayıb. Buradan belə bir nəticə çıxır ki, qadağan olunmayan hər şeyə icazə verilir. Məsələn Azərbaycan Respublikasının “Haqsız rəqabət haqqında” qanununda göstərilir ki, rəqibin təsərrüfat fəaliyyətinin təqlidinə, rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınmasına, rəqibin təsərrüfat fəaliyyətinə müdaxiləyə, haqsız sahibkarlıq fəaliyyəti ilə, haqsız işgüzarlıq davranışı ilə məşğul olmaq, istehlakçıların çaşdırılması qadağandır. Qanunun bu tələblərini pozan şəxslər isə müvafiq olaraq maliyyə sanksiyaları və cərimələr ödəməyə borcludurlar. Digər bir qanunda - “Banklar haqqında” Azərbaycan Respublikasının qanununda bankların hüquqi

[1] Корсаков Е. А. “Государственно-правовое регулирование экономических отношений: проблемы, методы” Саратов, 2000. С. 24.

şəxslərin kapitalında iştirakı ilə bağlı göstərilir ki, iştirak payının balans məbləği bankın məcmuu kapitalının 10 faizindən çox olduqda, bankın bütün bu cür iştirak paylarının məcmuu balans məbləği bankın məcmuu kapitalının 40 faizindən çox olduqda, bank həmin payı əldə etmək hüququna malik deyildir. Yaxud "Dövlət əmlakının özəlləşdirilməsi" haqqında qanunda göstərildiyi kimi dövlət əmlakının özəlləşdirilməsi zamanı səhmlərin və ya nizamnamə fondundakı payın 20%-dən çoxu dövlət mülkiyyətində olan hüquqi şəxslər, icra hakimiyyəti orqanları, bələdiyyə orqanları alıcı qismində çıxış edə bilməzlər.

Hüquqi tənzimləmənin ikinci növü isə belə ifadə olunur: "birbaşa icazə veriləndən başqa hər şey qadağandır". Bu onu bildirir ki, bu növ hüquq münasibətlərinin iştirakçıları qanunvericiliklə birbaşa icazə verilən fəaliyyətlə məşğul ola bilərlər, qalan hərəkətlər isə qanunla qadağa olunur. Bu hüquqi tənzimləmə növünü icazəverilən tənzimləmə adlandırırlar. Məsələn "Banklar haqqında" Azərbaycan Respublikasının qanununun 32-ci maddəsində bankların fəaliyyət növləri dəqiq göstərilmişdir və bu fəaliyyət növlərindən başqa banklar heç bir başqa fəaliyyətlə məşğul ola bilməzlər. Yəni qanunvericliyə görə banklar ancaq tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi ilə, kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri ilə, fiziki və hüquqi şəxslərin hesablarının, klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi ilə, ödəniş vasitələrinin buraxılması ilə, öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin xarici valyutanın, qiymətli metalların və daş-qaşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması ilə, qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi ilə, öhdəliklərin icrasına təminatların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması ilə, qiymətli kağızlar bazarında peşəkar fəaliyyət ilə, qiymətlilərin, o

cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi ilə məşğul ola bilərlər. Yaxud "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası qanununun 7-ci maddəsində dövlət mülkiyyətində olan müəssisələrin (obyektlərin) özəlləşdirilməsinə məhdudiyyətlər adi (səs hüququ olan) səhmlərin nəzarət zərfinin (51%-nin) və məhdudlaşdırıcı hissəsinin (25,5%-nin) dövlət mülkiyyətində qalması vasitəsilə qoyula bilər

Hüquqi tənzimləmə mexanizminin formalarından danışarkən mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də dövlətin stimullaşdırıcı tənzimləmə siyasətinin həyata keçirilməsidir. Bu stimullaşdırıcı tənzimləmə siyasəti müvafiq normalarda öz əksini tapmışdır. Məsələn, "Xarici İnvestisiyanın Qorunması Haqqında" Azərbaycan Respublikası qanununun 25 və 26-cı maddələrində göstərilir ki, tamamilə xarici investorlara məxsus müəssisələr və nizamnamə fondunun 30 faizindən çoxu xarici investisiyadan ibarət olan müəssisələr özlərinin istehsal etdikləri məhsulu (işləri, xidmətləri) lisenziyasız ixrac edə bilərlər. Xarici invstisiyalı müəssisə özünün təsərrüfat fəaliyyəti üçün məhsulu (işləri, xidmətləri) lisenziyasız idxal edə bilər. Birgə müəssisənin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün Azərbaycan Respublikasına gətirilən əmlak gömrük rüsumundan azad edilir və ondan idxal vergisi tutulmur.

"Sahibkarlıq Fəaliyyəti Haqqında" Azərbaycan Respublikası qanununda isə göstərilir ki, dövlət sahibkarlığa kömək məqsədi ilə informasiya, məsləhət, elm və tədris mərkəzləri, maliyyə fondları yaradır, vergi ödənişlərinin, Milli Bank ssudalarının fazilərinin, amortizasiya ayırmalarının güzəştli dərəcələrini və vergi tutulmayan digər ayrımaları müəyyənləşdirir. Sahibkardan əsassız olaraq məcburi surətdə vergi və digər ödəmələr tutularsa və ya sahibkara vergi qanunvericiliyini pozduğuna görə cərimə sanksiyaları düzgün tətbiq edilməzsə, sahibkarın buna yol vermiş orqanlara iddiası üzrə bütün qeyri-qanuni tutulmuş məbləğ həmin dövr üçün kredit faizi əlavə olunmaqla qaytarılır və ya sahibkarın razılığı ilə növbəti dövrün vergilərinin ödənməsi hesabına aid edilir.

Hüquqi tənzimləmə mexanizmlərində ən çox istifadə edilən formalardan biri də hüququ pozuntusu törədənlərə qarşı cəza tədbirlərinin müəyyən edilməsidir. Məlumdur ki, istənilən hüquqi və fiziki şəxs istənilən sahədə təsərrüfat fəaliyyətini icra edərkən öz üzərinə qanunvericiliklə müəyyən edilmiş qaydada hüquq və vəzifələr götürür. Onları icra etmədikdə isə müvafiq qaydada məsuliyyət daşıyır ki, bu da əsasən pul cərimələri və sanksiyaları şəklində özünü biruzə verir. Məsələn, inzibati xətalar məcəlləsində göstərilir ki, özgənin əmtəə və ya xidmət etmə nişanından, əmtəənin mənşə yerinin adından və ya eynicinsli əmtəələrin adına oxşar adlardan istifadə olunmasına görə fiziki şəxslər şərti maliyyə vahidi məbləğinin on mislindən on beş mislinədək miqdarda, hüquqi şəxslər şərti isə yüz otuz mislindən yüz yetmiş mislinədək miqdarda cərimə edilir.

İstehlakçıların hüquqlarının pozulmasına, yəni, məhsulun standartlaşdırılması və keyfiyyəti, ölçü vasitələrinin tədavülə buraxılması və saxlanması, onların işlədilməsi qaydalarının pozulmasına, normativ sənədlərin tələblərinə cavab verməyən malların istehsalına, satılmasına, işlərin yerinə yetirilməsinə, xidmətlərin göstərilməsinə, ölçü vasitələrinin işlədilməsi qaydalarının pozulmasına və s. görə hüquqi şəxslər şərti maliyyə vahidi məbləğinin yüz əlli mislindən iki yüz mislinədək miqdarda cərimə edilir.

Beləliklə, müvafiq normalarda ifadə edilmiş hüquqi tənzimləmə üsulları iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi mexanizminin təsirli elementləri sayılırlar.

## 1.2 İqtisadi münasibətlərin tənzimlənməsi prosesində hüququn yeri və rolu

Iqtisadiyyatın normal inkişafı onun dövlət tərəfindən nizamlı şəkildə tənzimlənməsindən çox asılıdır. İqtisadiyyatın maksimum dərəcədə liberallaşdırılması belə dövlətin iqtisadi proseslərin idarə edilməsində iştirakını inkar etmir. Hər bir dövlətin özünün maraqları və mənafeyinin olması onun ictimai həyatın bütün fəaliyyət dairələrinə müdaxiləsini zəruri edir. Lakin bu müdaxilənin özünün də müəyyən həddi ol-

malıdır . Əgər iqtisadiyyat həddən artıq dövlət tərəfindən inhisara alınarsa , bu zaman istər fərdlərin, istərsə də təsərrüfat subyektlərinin məsuliyyət hissi azalır,onların daha yüksək nəticələr əldə etməyə marağı olmur. Çünki dövlət hər kəsin əməyini eyni səviyyədə ədalətli və düzgün qiymətləndirmək iqtidarında deyil.

Iqtisadiyyatın dövlət tərəfindən təznimlənməsi sistemi əslində dövlətin iqtisadi həyata təsir dərəcəsini müəyyən etməlidir. Belə bir tənzimləmə sistemi olmadan bazar münasibətlərinin formalaşmasına yönəlmiş fəaliyyət istiqamətlərini səmərəli şəkildə əlaqələndirmək mümkün deyil . Bunu həm Azərbaycan, həm də keçmiş ittifaq respublikalarının mövcud iqtisadi vəziyyəti də bir daha sübut edir.

Hələ bazar iqtisadiyyatının sərt qanunları ilə üzləşməmişdən əvvəl ümid edilirdi ki, inzibati-amirlik iqtisadiyyatının dayaqları sındırılan kimi ölkənin iqtisadi inkişafını təmin etmək mümkün olacaq , istehsalın artımı üçün daxili stimul yaranacaq, azad iqtisadiyyat bazarın “görünməz əli” vasitəsilə tənzimlənəcək və dövlətin təsərrüfat həyatına müdaxiləsinə ehtiyac qalmayacaq. Lakin bazar münasibətləri Azərbaycanda tam formalaşmadığına görə bazar elementlərinin iqtisadiyyata səmərəli təsirindən danışmaq hələ tezdir.

İnzibati – amirlik sistemi ilə təsərrüfatın idarə edilməsi əsasən iki çatışmaz cəhətə malikdir:

a) İqtisadiyyatın elastik olmaması, gec adaptasiyası
b) Ən aşağı məhsuldarlığa malik olması.

Bazar iqtisadiyyatına keçidin qarşısında duran əsas məsələlər aşağıdakılardır:

- Dövlətsizləşdirmə və özəlləşdirmə;
- Bazar infrastrukturunun formalaşdırılması;
- İqtisadiyyatın inhisarsızlaşdırılması;
- Qiymətin sərbəstləşdirilməsi;
- Maliyyənin stabilləşdirilməsi;
- Bazar iqtisadiyyatına uyğunlaşmaq üçün əhalinin sosial dəstəklənməsi.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra iqtisadiyyatımızda bazar münasibətlərinin inkişafını təmin etmək məqsadi ilə həyata keçirilən islahatlar respublikamızda iqtisadi münasibətərin formalaşmasına və genişlənməsinə zəmin yaratmışdır. Həmçi-

nin keçid dövrünün çətinliklərini aradan qaldırmaq, iqtisadi inkişafda sabitliyi əldə etmək üçün iqtisadiyyata hüquqi vasitələrlə təsir etmək də zəruridir.

Aşağıdakıların həyata keçirilməsi üçün iqtisadiyyat və hüquq arasında qarşılıqlı əlaqə və münasibətlər təmin olunmalıdır:

a) Hüquqi vasitələrlə bazar iqtisadiyyatının normal inkişafı üçün şəraitin yaradılması;

b) Vergi sistemindən, dövlət büdcəsindən, müxtəlif sosial proqramlardan istifadə edərək gəlirlərin cəmiyyətin bütün təbəqələri arasında ədalətli bölgüsünü təmin etmək.

Iqtisadiyyat və hüququn qarşılıqlı əlaqəsi hər zaman həm nəzəri, həm də praktiki cəhətdən yüksək maraq doğurub. Iqtisadiyyat və hüquq bir – biri ilə əlaqəli olmaqdan başqa, həm də bir – birinə qarşılıqlı təsir göstərir. Müəyyən dərəcəyə qədər hüquq  iqtisasdiyyatın davamı kimi təqdim olunur. Öz növbəsində, iqtisadiyyat da dövlət və hüquq vasitəsilə idarə olunaraq inkişaf etdirilir. Iqtisadiyyat və hüququn qarşılıqlı əlaqəsinin xarakter və forması müxtəlif faktorlarla şərtləndirilir. Iqtisadiyyat və hüququn qarşılıqlı əlaqəsinin sxemini aşağıdakı kimi təsvir etmək olar:

Hüquq siyasətin ümumiləşdirilmiş ifadə formasıdır, siyasət də iqtisadiyyatın ümumiləşdirilmiş ifadə formasıdır.

Iqtisadiyyatın hüquqi tənzimlənməsi – ictimai münasibətlərin dövlət tənzimlənməsi (nizamlanması) forması olub, bu münasibət iştirakçılarının qanun normalarında olan tələb və icazələrə uyğun davranmasıdır. Hüquqi tənzimləmə, hüquq subyektlərinin öz hüquq və öhdəliklərini dərk etməsini nəzərdə tutur ki, bu hüquq və öhdəliklərdə dövlətin iradəsi əks olunmuşdur. Müvafiq ictimai münasibətlərin hüquqi nizamlanması mexanizmi hüquqi normalar, hüquqi münasibətlər, hüquqi məsuliyyət, hüquqi dərketmə və s. elementləri özündə birləşdirir.

Qeyd etmək lazımdır ki, hüquqi dövlətdən söhbət gedirsə, onda hüquqi dövlətdə münasibətləri tənzimləmək üçün yeganə vasitə hüquqdur (hüquq normalarıdır.). Düzdür, bəzi sosial və texniki normalar da hüquqi vasitə kimi istifadə olur. Lakin, dövlət yalnız onun mənafeyinə uyğun gələn bu normalardan bəzilərini sanksiyalaş-

dırır. Iqtisadi nəzəriyyə sübut etmişdir ki, istehsal prosesində yaranan münasibətlər nəticədə həmişə sosial münasibətlər kimi çıxış edir.




Sxem 1.1 İctimai münasibətlərin tənzimlənməsi metodları[1]

Sxemdən göründüyü kimi bu metodlar sosial tənzimləyici və texniki tənzimləmə vasitələridir. Bu vasitələr bir-birilə qarşılıqlı təsir və əlaqəlidirlər. Bəzi hallarda bəzi sosial normalar hüququn mənbələri də olurlar. Dövlətin hüquqi tənzimləmədə iştirakından (yaxud qeyri - iştirakından) asılı olaraq:

1) Dövləti, yaxud mərkəzləşdirilmiş tənzimləməni;

2) Hüququn qüvvəsinin özü – özünü tənzimləməsi, yaxud "kortəbiiliyi" sferalarını bir – birindən ayırmaq mümkündür. Hüquq sferalarının belə bölgüsü hüququn qüvvəsinin elə bir sahəsinin obyektiv olaraq mövcudluğuna əsaslanır ki, burada dövlətin vətəndaşların, onların təşkilatlarının davranışını hüquqi normalaşdırılması nəinki tələb olunmur, əksinə ziyandır. Hüquqi tənzimləmə metodu subyektlər arasında hüquqi təsir (icazə, əmr, qadağa) predmetlərinin əsas xüsusiyyətləri nəticəsində formalaşan münasibətlərin tənzimlənməsi qaydaları və vasitələri toplusudur.

Bazar iqtisadiyyatına qədəm qoyan respublikamızda iqtisadiyyatı hüquqi tənzimləmək üçün iqtisadi münasibətlərin normativ – hüquqi bazasının yaradılmasına

[1] V.V. Lazarev "Ümumi hüquq və dövlət nəzəriyyəsi" Bakı, "Nurlan" 2004, s. 141

da ehtiyac vardı. Elə bu məqsədlə də dövlət tərəfindən müxtəlif iqtisadi fəaliyyət sahələrini əhatə edən qanunlar, fərmanlar, normativ – hüquqi aktlar qəbul edilmişdir ki, bütün bunlar hüququn mənbəyini təşkil edir. Hüququn mənbəyi – səlahiyyətli dövlət orqanlarının aktlarında əks etdirilən dövlət iradəsidir. Həmin səlahiyyətli dövlət orqanlarına Milli Məclis, Prezident Aparatı, Nazirlər Kabineti aiddir. Hüququn mənbələrinə Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikası Milli Məclisinin qanun və qərarları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları aiddir.

Qanunvericilik hakimiyyəti Azərbaycan Respublikasının parlamenti tərəfindən həyata keçirilir. Parlament dedikdə, ölkə əhalisi tərəfindən seçki yolu ilə yaradılan, qanunvericilik fəaliyyətini həyata keçirən ali nümayəndəli dövlət hakimiyyəti orqanı başa düşülür.

Parlament qanunvericilik hakimiyyətinin ali orqanıdır. O, həm də dövlət hakimiyyətinin ali nümayəndəli orqanı hesab edilir. Hər bir ölkədə parlamentin öz adı vardır. Belə ki, xarici dövlətlərdə qanunvericilik hakimiyyətini həyata keçirən ali orqanı ifadə etmək üçün müxtəlif adlardan istifadə edilir. Məsələn, ABŞ – da parlamentə Konqress, Misirdə Xalq Məclisi və s. deyilir. Azərbaycan Respublikasının parlamenti isə Milli Məclis adlanır.

Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyətini həyata keçirir. Milli Məclis Azərbaycan xalqının suveren iradəsini ifadə edir. O, ölkə həyatı üçün mühüm və vacib olan ictimai münasibətləri əsasən və başlıca olaraq qanunlar qəbul etmək yolu ilə tənzimləyir, icra hakimiyyəti orqanlarının və ali vəzifəli şəxslərin fəaliyyətinə nəzarəti həyata keçirir, dövlətin digər ali orqanlarını təşkil edir, hökumətin bağladığı beynəlxalq müqavilələri təsdiq edir və s.

Milli Məclis iki əsas funksiyanı yerinə yetirir:

- Qanunvericilik funksiyasını;
- Nümayəndəlik (təmsilçilik) funksiyasını.

Milli Məclisin qanunvericilik funksiyasının mahiyyəti ondan ibarətdir ki, o, qanunlar qəbul edir. Qanun yaratmaq Milli Məclisin əsas funksiyası hesab edilir.

Milli Məclisi qanunvericilik hakimiyyətini həyata keçirdiyinə və ali qanunverici dövlət hakimiyyəti orqanı olduğuna görə onun əsas və başlıca səlahiyyəti qanunlar qəbul etməkdən ibarətdir. Lakin qeyd edək ki, Milli Məclis dövlətin əsas qanunu olan Konstitusiyanı qəbul edə bilməz. Ona görə ki, ölkəmizin Konstitusiyası yalnız referendumla qəbul oluna bilər. Milli Məclis bir qayda olaraq, ölkənin ictimai – iqtisadi və siyasi həyatına aid vacib məsələlər haqqında qanunlar qəbul edir. Bu məsələlərin dairəsi Konstitusiyanın 94 – cü maddəsində nəzərdə tutulmuşdur: mülkiyyət münasibətləri; ailə münasibətləri; maliyyə fəaliyyəti və vergi məsələləri; müdafiə və hərbi qulluq məsələləri; rabitə və nəqliyyat işi və s. Bundan əlavə, Milli Məclis hər il dövlət büdcəsi haqqında qanun qəbul edir. Milli Məclisin qanunlar qəbul etməsi qanun yaradıcılığı üzrə fəaliyyət adlanır.

Parlamentin qanunvericilik fəaliyyəti müəyyən qayda əsasında həyata keçirilir ki, bu qayda son dərəcə vacib əhəmiyyətə malikdir. Buna görə həmin qayda dəqiq surətdə müəyyən edilir. Həmin qaydaya görə əvvəlcə qanun layihələri təklif olunur, daha sonra isə layihələr Milli Məclisdə müzakirə edilir, qəbul olunur və nəhayət, dərc edilir.

Qanun layihələrinin təklif, müzakirə, qəbul və dərc olunması qanunvericilik prosesi adlanır. Qanunvericilik prosesi dörd mərhələdən ibarətdir. Birinci mərhələ qanunvericilik təşəbbüsü adlanır. Bu mərhələdə qanunvericilik təşəbbüsü hüququna malik olan şəxslər qanun layihələri təklif edirlər. Qanunvericilik təşəbbüsü hüququ, ayrı – ayrı şəxslərin qanun layihəsi təklif etmək imkanıdır. Bu hüquqa malik olanlar ali dövlət hakimiyyət orqanları və ali vəzifəli şəxslərdir. Həmin şəxslərə deputatlar, prezident, Ali Məhkəmə, Baş Prokurorluq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aiddir. Bu şəxslər qanunvericilik təşəbbüsünün subyektləridir.

Ikinci mərhələdə parlamentə daxil olmuş qanun layihələri qeydiyyata alınır. Milli Məclisin sədri onları müvafiq daimi komissiyalara göndərir. Hazırlanmış layihələr parlamentdə müzakirə edilir. Qanun layihəsinin parlamentdə müzakirə olunmasına qanunun oxunması deyilir. Qanunun layihələri üç oxunuşdan keçir.

Üçüncü mərhələdə qanun layihəsi parlament iclasında səsə qoyulur. 63 səs çoxluğu ilə qanunlar qəbul edilir. Bəzi qanunlar isə 83 səs çoxluğu ilə qəbul olunur.

Dördüncü mərhələdə parlament tərəfindən qəbul edilmiş qanunlar qəbul edildiyi gündən 14 gün müddətində imzalanmaq üçün prezidentə təqdim edilir. Prezident ona təqdim olunmuş qanunları 56 gün ərzində imzalayır. Bundan sonra qanunlar "Azərbaycan" qəzeti, "Azərbaycan Respublikasının qanunvericilik toplusu" və s. nəşrlərdə dərc olunur. Dərc edildiyi gündən qanun qüvvəyə minir.

Qəbul edilmiş hüquq normaları vasitəsi ilə iqtisadi münasibətlərin iştirakçılarının fəaliyyət dairələri müəyyən olunur, fəaliyyətlərinin hər bir sahəsi tənzimlənir. Həmçinin, qəbul edilmiş hüquq normaları dövlətin iqtisadi inkişafını da təmin edir. Öz növbəsində, yeni iqtisadi sistemə qədəm qoyan dövlətin əsas vəzifələrindən biri də bu sistemə uyğun qanunların, normativ – hüquqi aktların qəbul edilməsidir. Elə bu məqsədlə də ölkəmizdə yeni qanunlar, qanun qüvvəli aktlar qəbul edilmiş, müəyyən sahələrdəki qanunlar ümumiləşdirilərək məcəllələrdə toplanmışdır. Qanunların qəbulu isə hakimiyyətin bölgüsü prinsipinə uyğun olaraq dövlət hakimiyyətinin sahələri arasında əsas yer tutan qanunvericilik hakimiyyətinə məxsusdur.

## 1.3 Hüquqi tənzimlənmə prosesinə institutsionalist yanaşma və onun xarakterik cəhətləri

Müasir iqtisadi fikrin əsas istiqamətlərinə XIX əsrin sonu XX əsrin əvvəllərində yaradılmış iqtisadi nəzəriyyələr aid edilir . Bunlar aşağıdakılardır:

- Neoklassik;
- Keynsçilik;
- Institusional – sosioloji.

XX əsrin ikinci yarısının iqtisad elminin neoklassik istiqaməti monetarizm, neoliberalizm, səmərəli gözləmələr və s. nəzəriyyələrlə təmsil olunur.

Monetarizm iqtisadiyyatın pul amilinin əsas rol oynadığı stabilləşdirmə nəzəriyyəsidir. Monetaristlər iqtisadiyyatı ıdarəetməni hər şeydən öncə pul kütləsi, pulun emissiyası, dövriyyədə və ehtiyyatda olan pulun midarına dövlət nəzarətində, dövlət büdcəsinin balanslaşdırılmasına nail olmaqda və yüksək bank faizlərinin

müəyyənləşdirilməsində görürlər. Neoliberalizm nəzəriyyəsinə görə dövlətin iqtisadiyyata müqaxiləsini azaltmaq lazımdır, çünki özəl sahibkarlıq iqtisadiyyatı böhrandan çıxartmağa və onu dirçəltməyə və əhalinin rifah halını yaxşılaşdırmağa qabildir. Buradan da sahibkarlara və ticarətçilərə təsərrüfat fəaliyyətində mümkün qədər çox sərbəstlik vermək zərurəti yaranır.

Iqtisadi nəzəriyyənin əsası Con Meynard Keyns tərəfindən qoyulmuş keynsçilik istiqaməti nağd və ya nağdsız pul kütləsinin dəyişdirilməsi vasitəsi ilə tələbin artırılması və ya azaldılması yolu ilə inkişaf etmiş bazar iqtisadiyyatının dövlət tənzimlənməsinin vacibliyini əsaslandırmaq vəzifəsini yerinə yetirir. Belə tənzimləməninköməkliyi ilə inflyasiyaya, məşğulluğa təsir etmək, əmtəəyə tələb və təklifdəki qeyri – bərabərliyi aradan qaldırmaq, iqtisadi böhranların qarşısını almaq olar. C.Keyns XX əsrin birinci yarısının iqtisadiyyatı və siyasətinin inkişafına bir sıra yeni ideyalar gətirmişdir. C.Keynsin ictimai fikrə təsiri A.Smit və K.Marksdan sonra ən güclü oldu. Onun ən mühüm əsəri olan "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" kitabında (1936) iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin nəzəriyyəsi və proqramı verilib. Bu nəzəriyyə sağ sosialist ədəbiyyatında geniş yayılmış və özünə çoxsaylı tərəfdar tapmaqla bir sıra qərb ölkəsinin iqtisadi siyasətinə ciddi təsir etmişdir.

Institusionalizm iqtisadi fikirlər tarixində xüsusi mövqeyi və yeri olan, XIX əsrin birinci yarısı və XX əsrdə təşəkkül tapan iqtisadi bir məktəbdir. Institusionalizmin əsasını iqtisadi inkişaf proseslərini və onların mahiyyətini qeyri – iqtisadi baxımdan şərh etmək təşkil edir. Institusionalizm ən çox ABŞ – da yaranmışdır. Institusionalizmin əsasını amerikan iqtisadçısı T. Veblen qoymuşdur. Lakin bu məktəbin ən görkəmli nümayəndələri amerikan iqtisadçıları U.Hamilton, C.Kommans, U.Mitçell, C.Gelbreyt olmuşlar. Institusionalizmin meydana gəlməsinin əsas səbəbi ideoloji və praktiki tələbatın dəyişməsi ilə əlaqədardır. Çünki bu dövrdə kapitalizm azad rəqabətin hökm sürdüyü şəraitdən inhisarçılığa keçirdi.

Institusionalizmin nümayəndələri kapitalizmin iqtisadi qanunlarının mahiyyətini tam açmadan öyrənir, lakin müxtəlif sosial hadisələri sistemləşdirərək bu sosial hadisə və prosesləri "institusiya" adlandırmışlar. Institusionalizm termini bu məktə-

bin nümayəndələri üçün mərkəzi kateqoriya idi və onun nümayəndələri bütün hadisə və proseslərə sosial anlayış nöqteyi – nəzərindən yanaşırdılar. Konsepsiyanın adı latın sözü institutum – qurma, qurum, quruğ – sözündəndir. "İnstitut" anlayışı çox geniş: bu həm dövlət, şirkət, həmkarlar ittifaqı, həm rəqabət, inhisar, vergilər, həm sabit təfəkkür növü, həm də hüquqi normalar kimi başa düşülür.

Institutlar insanlar tərəfindən yaradılmış formal və qeyri-formal qaydaların məcmusudur ki, iqtisadi agentlər üçün məhdudiyyətlər, eləcə də onların yerinə yetirilməsi və onların qorunmasının müvafiq nəzarət mexanizmi kimi çıxış edir.

Nəzarət mexanizmi dedikdə qaydaların riayət olunmasını və ya pozulmasını eyniləşdirməyə, həmçinin həvəsləndirici və ya qeyri-həvəsləndirici tədbirlərin tətbiqinə kömək edən vasitələr dəsti nəzərdə tutulur. Institutlar həm formal qanunlardan, həm də qeyri-formal qaydalardan ibarətdir. Formal qanunlara konstitusiya, qanunvericilik, mülkiyyət hüququ, qeyri-formal qaydalara isə ənənələr, adətlər, əxlaq qaydaları aiddir. Institutlar insanlar tərəfindən qaydalara riayət edilməsi və mübadilədə qeyri-müəyyənliyin aradan qaldırılması məqsədilə yaradılırdı. Bu cür institutlar iqtisadiyyatda qəbul olunmuş standart məhdudiyyətlərlə birgə alternativlər dəstini təyin edirdilər, bu yolla da istehsal və tədavül xərclərini, müvafiq mənfəətliyi və iqtisadi fəaliyyətə cəlb olunma ehtimalını müəyyənləşdirirdilər.

Institutlar ətraf mühitin dəyişikliklərinə ləng uyğunlaşırlar. Vaxtilə səmərəli olmuş bir çox institutlar səmərəsiz olurlar və uzun müddət bu cür qalırlar, yəni cəmiyyəti bir çox illər bundan əvvəl müəyyən edilmiş tarixi yolundan döndərmək çətindir. Institutların iqtisadi həyatda rolu olduqca böyükdür. Institutlar gündəlik həyatı müəyyən quruluşa salaraq qeyri-müəyyənliyi azaldırlar. Onlar insanlar arasındakı qarşılıqlı münasibətləri təşkil edirlər. İnstitutlar hər bir insanda olan iqtisadi davranışda alternativlər dəstini müəyyənləşdirir və məhdudlaşdırırlar.

Institutlar adamlar tərəfindən qarşılıqlı insani münasibətlərə nizam vermək üçün yaradılmış məhdudiyyətlərin bütün formalarını özlərində birləşdirirlər. Institsionalimz kapitalizmi yeni şəraitə - inhisarçılığa uyğunlaşdıran bir vasitə kimi fəaliyyət göstərirdi. Göstərdiyimiz dövrdə kapitalizm cəmiyyətində yeni tarixi şərait yaranmışdır: istehsalın kapitalistcəsinə ictimailəşdirilməsi dərinləşirdi, inhisarçılıq artırdı,

mülkiyyət dövlətləşdirilirdi, yəni mülkiyyət münasibətlərinə dövlət daha çox nüfuz edirdi. Digər tərəfdən isə "təkmil rəqabət" və "bazar müvazinəti" konsepsiyası arxa plana çəkilirdi, burjua dövləti də iqtisadi sahələrdə olan nüfuzunu daha da gücləndirirdi. Həmçinin, institusionalizmin nümayəndələri iddia edirdilər ki, sosial hadisələrin əsasını müxtəlif formalı psixoloji, hüquqi, etnik, texniki və digər münasibətlər təşkil edir.

Institusionalizm iqtisadi proseslərin vahid bir tərifini vermir. Veblen isə belə bir iqtisadi əsasın insanların psixologiyası olduğunu iddia edir. Veblen təkcə insanların psixologiyası ilə məhdudlaşmayıb buraya bioloji və antropoloji amilləri də daxil edir. Mitçell isə iqtisadi proseslərin əsasını müəyyən qrup insanların qeyri – iqtisadi amillərində axtarır. R.Eli bu mənbəyi etikada, Hellbreyt isə texnikada axtarır. Hellbreyt praktiki məsələləri həll etmək üçün texnikanın sistematik şəkildə tətbiqini əsas götürür.

Real həyatda institusionalizmin metodologiyası "sosial psixologiya"nın metodologiyasına əsaslanır[1]. Institusionalizm sosial – iqtisadi hadisələrin izahında Avstriya siyasi iqtisad məktəbindən fərqli olaraq fərdi "psixologiyadan" deyil qrupların "psixologiyasından" çıxış edirlər. Bununla da instutsionalistlər burjua siyasi iqtisadını xüsusi fərdi sahibkarlığa istiqamətləndirirdilər. Bu o deməkdir ki, institusionalistlər inhisar birliklərini və dövlət – inhisarçı kapitalizmi müdafiə edirlər.

Iqtisadi proseslərə "sosial psixologiya" nöqteyi – nəzərindən yanaşan instutisionalistlər iqtisadi həyatın müəyyən hadisələrini öyrənməklə marjinalistlərin metodologiyasını tədqiqat obyektindən çıxarmışdılar.

Institusionalizmin metodologiyasının digər xüsusiyyəti də ondan ibarətdir ki, ictimai inkişaf formalarının inqilablar yolunu inkar etməklə təkamül inkişaf üsuluna üstünlük verməleridir. Institusionalistlər dövlət – inhisarçı kapitalizmi "inzibati kapitalizm" adlandırırdılar. Dövlətin iqtisadi həyata nüfuz etməsi "institusionalistlər" tərəfindən istehsal üzərində "sosial nəzarətin" tətbiq edilməsi kimi izah olunur. Yaxud da institusionalistlər bu prosesi nizamlanan iqtisadiyyat adlandırırdılar.

---

[1] Олейник А.Н. Институциональная экономика. М.: ИНФРА – М, 2000, с.78

Institusionalizmin nümayəndələri, göstərirdilər ki, kapitlist iri inhisarları əslində iri istehsaldır və bu iri istehsal sosial məqsədlər güdür. Institusionalizm dörd istiqamətdə inkişaf edirdi: 1) psixiki – bioloji istiqamət. Bu istiqamətin başında Veblen dururdu və onlar "sosial darvinizm" konsepsiyasını təbliğ edirdilər; 2) sosial – hüquq cərəyanı. Bu cərəyanın rəhbəri Kommons idi; 3) emprik inkişaf. Empirizmin rəhbəri isə Amerika konyukturşünasliq məktəbinin görkəmli nümayəndəsi Mitçell idi; 4) sosioloji cərəyan. Bu cərəyanın nümayəndəsi Helbreyt idi.

Veblenin "sosial darvinizm" mövqeyi nəzəri tarixən Q.Spenserin vulqar cəhdləri ilə əlaqədardır. Q.Spenser insanların tarixinə bioloji qanunauyğunluqları yaymağa çalışırdı. Cəmiyyətin təkamülünün hərəkətverici qüvvələrini "irrasional psixologiyaya" söykənən sosial qrupların bir – birləri arasında olan mübarizədə görən Veblen iddia edirdi ki, bioloji fərdlərin mövcudluğu və yaşamaları təbii seçmə qanunauyğunluqlarına əsaslanır. Bu qanunauyğunluqları o sosial – iqtisadi hadisələrin öyrənilib şərh olunmasına tətbiq etməyə çalışırdı. Veblen tamahkarlıq, acgözlük, bədxərclik, israfçılıq, inhisarçı biznesin qəddarlığı əleyhinə çıxış edirdi. Veblenə görə biznes fəaliyyətinin dairəsi "keçmiş siniflərin" (inhisarçı burjuaziyanın) maksimum mənfəət əldə etmək üçün etdiyi maliyyə maxinasiyasıdır. O biznesə qarşı sənayeləşdirməni qoyurdu və iddia edirdi ki, real fəaliyyət sahəsi istehsaldır, çünki maddi nemətlər ancaq istehsal prosesində yaradılır.

Faktiki olaraq Veblen "sənaye" dedikdə iqtisadiyyatın qeyri – inhisar sahəsini nəzərdə tuturdu və bu konsepsiyanı istehsalın məqsədi kimi təqdim edirdi.

Institusionalizmin görkəmli nümayəndələrindər biri də, C.Kommons olmuşdur[1]. C.Kommons Amerika fəhlə sinfinin hərəkatının tarixini, həmkarlar ittifaqlarının yaranmasını, Amerika məhkəmə üsulunu yazmışdır. C.Kommons mülkiyyətin iqtisadi məzmununu açmaq əvəzinə mülkiyyəti hüquqi münasibətlər əsasında tədqiq edirdi. Əmək və kapital arasında olan konfliktli hadisələri öyrənərkən C.Kommons iqtisadiyyat üzərində hüquqi münasibətlərə üstünlük verirdi. C.Kommons dəyər koteqoriyasını tədqiq edərkən yenə də ilkin hüquqi münasibətlərə

[1] Олейник А.Н. Институциональная экономика. М.: ИНФРА – М, 2000, с.104

əsaslanırdı. O dəyərə belə bir tərif verirdi: bu gün mövcud olan gəlirin gələcəkdə qiymətləndirilməsinə dəyər deyilir. C. Kommonsa görə dəyər razılıqla, sövdələşmə yolu ilə yaranır. Dəyər kəmiyyətini o istehsalla deyil hüquqi qaydalarla, hüquqi üsullarla əlaqələndirirdi. Kapitalizmin hüquqi əsaslarını o məhz belə bir hüquqi münasibətlərdə görürdü.

Müəyyən hallarda ABŞ – ın Ali məhkəməsinin iqtisadi həyata qarışmasını, məsələn məhkəmənin qərarı ilə kapitallaşmış mənfəət hesabına səhmlərin kursunun qaldırılmasını tədqiq edən C.Kommons iddia edirdi ki, hüquqi üsullar iqtisadi fəaliyyət üzərində nəzarət edir və bu prosesi o səmərəli hesab edirdi. Lakin C.Kommons yaddan çıxarırdı ki, iqtisadi fəaliyyətin hər hansı bir sahəsində gedən dəyişiklik istehsalla əlaqədardır, bu dəyişikliklər istehsal dairəsində olan dəyişikliklərin nəticəsidir.

Siniflərin mənafeyi anlayışını ayrı – ayrı qrup halında olan adamların mənafeyinə qarşı qoyan C.Kommons siniflərin antoqonist ziddiyyətlərini qəbul etmirdi. O göstərirdi ki, mənafelər toqquşa bilər, belə bir toqquşmanı isə həmkarlar ittifaqlarına daxil olan qruplara aid edirdi. C.Kommonsa görə bütün konfliktləri aradan qaldırmaq olar, müxtəlif ictimai qrupların mənafelərini barışdırmaq mümkündür. Belə konfliktlərin və mənafelərin həllini o kapitalist mülkiyyətini saxlamaq şərtilə “kollektiv müqavilələrin” bağlanmasında görürdü.

O iddia edirdi ki, kapitalizmin ziddiyyətlərinin yumşaldılması məqsədilə burjua dövləti mühüm rol oynamalıdır. C.Kommons təklif edirdi ki, dövlətin rolunun aktivləşdirilməsi məqsədilə proporsionallıq əsasında müxtəlif mənafelər hökuməti yaradılmalıdır. Onun fikrincə qanunvericilik və müxtəlif hökumət komissiyalarının islahatları hesabına yaranan bütün konfliktləri ləğv etmək mümkündür. C.Kommons işsizliyin dövlət sığortası üzrə ilk qanununun hazırlanmasında yaxından iştirak etmişdir. Onun konsepsiyasının xülasəsi bundan ibarət idi ki, burjua dövləti kapitalist iqtisadiyyatına nəzarət etməli və onu tənzimləməlidir.

Dövlətin iqtisadi proseslərə nüfuzunun artması barədə C.Kommonsun əldə etdiyi nəticələr “inzibati kapitlizm” dövrünün real şəraitinə tam uyğun gəlirdi. Lakin dövlətin iqtisadi məsələlərə qarışmasının tam mahiyyətini C.Kommons tələb olunan

səviyyədə işıqlandıra bilmirdi. Çünki o, ön plana dövlətin qanunvericilik fəaliyyətini keçirirdi. Ona görə, hökumət komissiyası yarana biləcək bütün ziddiyyətləri həll etmək qabiliyyətinə malikdir.

Qeyd edək ki, Kommonsun dövründə dövlətin iqtisadiyyata nüfuz etməsinin iqtisadi əsasları var idi. Buraya aşağıdakılar daxil edilir: inhisarçı kapitalizmin artması, inhisarların gücünün dövlətin gücü ilə qovuşması,büdcə vasitəsilə milli gəlirin xeyli hissəsinin yenidən bölüşdürülməsi və s.

C. Kommonsun bu konsepsiyası xeyli sonralar siyasi iqtisad elmində geniş yayılmağa başladı və bunun əsasında "ümumi rifah dövləti", "kütləvi istehlak cəmiyəti" və digər bu qəbildən olan nəzəriyyələr yaranmağa başladı.

"Böyük depressiya" dövründə institusionalistlərin ideyalarına ABŞ dövlət xadimləri də, o cümlədən Ruzvelt riayət edirdi. Depressiyaya qarşı mübarizədə A.Berli, Q.Minz, R.Taqvell hökumətin tədbirlərində yaxından iştirak etmiş və böhranlar əleyhinə bir çox proqramlar işləyib hazırlamışlar. Məsələn, prezident Ruzveltin "beyinlər tresti" proqramına Minz daxil edilmişdir. O, ABŞ milli resursları sənaye bölməsi Komitəsinin direktoru idi. Sonralar Minz milli resursların planlı idarə olunması İdarəsinin məsləhətçisi olmuşdur.

Beləliklə, 1929-33-cü illərdə institusionalizmin mərkəzi ideyası olan "kapitalist iqtisadiyyatı üzərində dövlət nəzarəti" konsepsiyası leqallaşdırılmışdır.

## 1.4 İqtisadiyyatın hüquqi tənzimlənməsinə müasir yanaşmalar

Hüquq, iqtisadi fəaliyyətlərin qanunlarını təyin etməklə maraqlanmaz, ancaq bu fəaliyyətləri (davranışları), bir sanksiya altında tənzimləmə məqsədi güdür. Ancaq tənzim ediləcək davranışların təbiətini yaxşı analiz etmək, tənzimləmə ilə məqsəd qoyulmuş nəticəyə ən yaxşı və təsirli şəkildə çatmağı təmin edir. Tədqiqatçıların izahatına görə, iqtisadi fəaliyyətlər bir çaya bənzər. Bu çayın qaynağından dənizə tökülməsinə qədər təbii yatağını, suyun azaldığı-çoxaldığı nöqtələri və daşqınların əmələ gəldiyi dövrləri təyin etmək, iqtisadiyyat elminin vəzifəsidir. Bu çayı daha faydalı hala gətirmək üçün lazımlı tədbirlərin görülməsi, məsələn yatağının

təmizlənməsi və ya genişləndirilməsi, üzərində anbarlar tikilərək enerji istehsalı və sulama imkanının təmin edilməsi isə, hüquq elminin vəzifəsidir. Ancaq bu tədbirlər görülərkən, çayın təbiətinə zidd tədbirlər görülə bilməz, məsələn axını tərs istiqamətə çevrilə bilməz. Deməli, hüquq elmi də iqtisadi qanunları yadırğaya bilməz. Hüquq, iqtisadi qanunları tərsinə çevirməyə deyil, ancaq müəyyən və uyğun bir sərhəd çərçivəsində tənzimləməyə çalışır.

Ümumi mənada hüququ, insanlar arasındakı münasibətləri sanksiyalar, normativ hüquqi aktlar vasitəsilə tənzim edən elm sahəsi kimi qiymətləndirmək olar[1]. İqtisadi fəaliyyətlər, istehsal münasibətlərindən istehlak münasibətlərinə qədər təkrar istehsalın bütün bölmələrini əhatə etdiyindən, hüquq bu münasibətləri də tənzim edir. Iqtisad elminin qarşısında duran ən mühüm vəzifə, təbii ehtiyyatlardan, istehsal vasitələrindən səmərəli istifadə etməklə, insanların tələbatlarının ən optimal şəkildə ödənilməsidir. Bu vəzifəni isə təkrar istehsalın bütün fazalarına, istehsal, bölgü, mübadilə və istehlaka nəzarət etməklə həyata keçirilə bilər. Iqtisad elmi iqtisadi fəaliyyətin bütün sahələrini müşahidə edib araşdıraraq bazar iqtisadiyyatının təməl qanunlarını təyin etməyə çalışır. Yəni "olanı" daha doğrusu baş verənləri müşahidə edir və təyin edir; bu baxımdan iqtisad elmi passiv mövqedədir. Hüquq elmi isə "olması lazım olan" davranışı təyin etməsi səbəbi ilə aktiv mövqedədir.

Hüquq və iqtisadiyyat, məhdud ehtiyyatlardan istifadə ilə əlaqədar olaraq insan davranışının necə təşkil ediləcəyi məsələsini həll etməyə çalışır. Iqtisadiyyat və hüquq sahələri istehsal vasitələrindən ədalətli istifadə olunmasına əsaslanan alternativ mexanizmlər kimi də düşünülür. Onlar yalnız bir – birlərinin alternativi deyil, eyni zamanda bir – birləri ilə çox yaxın əlaqəsi olan mexanizmlərdir. Hüquq qaydaları çox vaxt ticarəti (istehsal - mübadilə - istehlak) asanlaşdırmaq üçün hazırlanır.

Hüquq münasibətləri yalnız fiziki və hüquqi şəxslər arasındakı davranışları araşdıracaq qədər sadə deyil. Fiziki və hüquqi şəxslərlə dövlət arasında da bir sıra münasibətlər mövcuddur ki, hüquq bu münasibətləri tənzimləyir. Vətəndaş – dövlət münasibətlərinə hüquq sistemində baxılır.

---

[1] V.V. Lazarev "Ümumi hüquq və dövlət nəzəriyyəsi" Bakı, "Nurlan" 2004, s. 44

Hüquq və iqtisad elmləri arasında nəzəri cəhətdən bu qədər sıx əlaqələrin olmasına baxmayaraq, real həyatda bu iki elm sahəsi bir – birindən ayrı şəkildə tədqiq edilir. "Hüquq və iqtisadiyyat" indiki zamanda üzərində ən çox işlənilməsi vacib olan sahədir.

Iqtisadi sistemin quruluşu hüquq qaydalarından asılıdır. Hüququn yaxşı fəaliyyət göstərmədiyi yerdə iqtisadi münasibətlər də xaosa uğrayar. Hüquq sistemi xüsusi mülkiyyətin həm yaradıcısı, həm də qoruyucusudur və bunu əsasən bağlanılan əqdlər vasitəsi ilə gerçəkləşdirir. Hüquq olmadan iqtisadiyyat da olmaz. Məsələn, iqtisadi münasibətlərin təməli olan rəqabət də, hüquq sistemi tərəfindən qorunur. Daha doğrusu, rəqabət hüququ bu sahədə azad rəqabət mühitinin yaradılması, inhisarçılığın qarşısının alınmasına xidmət edir.

Bu gün iqtisadiyyatın hüquqda istifadəsi getdikcə artmaqdadır. Başda rəqabət hüququ olmaqla, ticarət hüququnda, patent və lisenziya hüququnda, əmək hüququnda, hətta son zamanlar artıq mədəni hüquqda, məsələn boşanmalarda belə iqtisadi analizlərdən istifadə edilməyə başlanmışdır. Bu səbəbdən, iqtisadçıların hüquq sahəsində fəaliyyət göstərməsi get-gedə artmaqdadır.

Bir rəqabət iddiasında hüquqşünaslar, iddianın əvvəlcə hüquqi tərəfinə baxarlar. Yəni, qanuni bir pozuntu olub olmadığını araşdırarlar. Ancaq, bu pozuntunun dərəcəsi və ya təsirinin nə olduğu və ya potensial təsirinin nə olacağını iqtisadçılar hesablaya bilər. Çünki nəticə olaraq bir hüquqşünasın yalnız hüquq məlumatıyla bazar tarazlığını, bazarın strukturunu, bazarın içindəki qiymətləri və qiymətlərin təsirini bilməsi gözlənilə bilməz. Bu səbəbdən bunun analizini ya iqtisadçılara buraxmaq ya da iddiaya baxacaq hakimin kafi iqtisadi biliklərə sahib olmasına ehtiyac yaranacaq.

Tarixcəsinə baxıldığında, "hüquq və iqtisadiyyat" axını ABŞ mənşəli zənn edilər. Əslində isə bu axının kökləri Alman Tarixi Məktəbi, Karl Marks və Adam Smitin təxminən iki əsr əvvəlki tədqiqatlarına qədər uzanır. XVIII əsrdə ümumiyyətlə "hüquq və iqtisadiyyatın hər vaxt hər yerdə, şəkil və məzmun etibarı ilə bir-birlərinin tamamlayıcısı və təyin edicisi olduqları" düşünülürdü. XIX əsr İngiltərə iqtisadçılarından Lesli, "cəmiyyətdə iqtisadi funksiyanın tam olaraq istifadə edilə

bilməsi məsələsi ortaya çıxdığında, hüququn bütün sahələrində iqtisadçının tədqiqatlar aparmasının lazımlığı" fikrini önə sürmüşdür.

Adam Smith "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı kitabında, insanların davranışlarını anlamaq üçün onların bir-birləri arasındakı səbəb nəticə əlaqələrinə baxmaq lazımdır deyər və dolayısilə, bir insanın cinayət işləyib işləmədiyini və ya hüquq pozuntusu edib etmədiyini anlamaq üçün mütləq iqtisadi davranışı ilə, şüurlu davranışını analiz etmək lazım olduğunu söyləyir.

İlk böyük "hüquq və iqtisadiyyat" axını müasir zamandan bir qədər əvvəl XIX əsrin sonlarında Atlantik okeanın hər iki tərəfindən ortaya çıxmışdır. ABŞ - da Holms və bəzi digər iqtisadçılar ilə hüquqşünaslar iqtisadiyyatın lazımlılığına və iqtisadi analizin hüquqda istifadəsinə dair bəzi fəlsəfi fikirlər irəli sürmüşlər. 1897 - ci ildə yazdığı əsərində Holms, "hüququn şüurlu tətbiqi üçün hakim bu günün insanı ola bilər, ancaq gələcəyin hüquq alimi  eyni zamanda bir statistika və iqtisadiyyat mütəxəssisi olmalıdır" qeyd edirdi.

1960-cı illərdə ABŞ-da təkrar buna bənzər bir axın başlamışdır. Kous və onun təmsil etdiyi məktəb, hüququn iqtisadiyyatda tətbiqini tədqiq etməyə başlamışdır. 1950-ci illərdə Beynin tədqiqatları əsasən iqtisadiyyatda təkəlçiliklə bağlı olmuşdur. Yəni, Beyn istehsalın tək əldə cəmləşməsinə qarşı çıxmış və bunun iqtisadiyyatdakı mənfi təsirlərini araşdırmış, rəqabətin və rəqabət siyasətinin əhəmiyyətini vurğulamışdır. Azad rəqabətin təmin olunması üçün iqtisadiyyatın hüquqi vasitələrlə tənzimlənməsinin vacibliyini qeyd edirdi. 1950 - 1960-cı illərdə Beyn məktəbinin söylədiyi xülasə "təkəlçilik pisdir". Beyn bunu sübut etmək üçün, ABŞ-dakı sənaye ilə bağlı statistik araşdırmalar aparmış və görmüşdür ki, təkəlçiliyin yüksək olduğu sənayelərdə qazanc çox yüksəkdir. Buna əsaslanaraq belə bir nəticəyə gəlmişdir: təkəlçiliyin mövcud olduğu sənayelərdə haqsız  rəqabət müşahidə olunur, bu sahələrdə çox qazanc əldə edilməkdədir. Bu qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki,təkəlçilik iqtisadi baxımdan istənməyən bir nəticədir və ona qarşı qanuni tədbirlər alınmalıdır.

1970-ci illərdə Çikaqo məktəbi, bu fikrə zidd olaraq, həmin şirkətlərin  çox pul qazanmalarının səbəbini təkəlçilik deyil, əmək məhsuldarlığının daha yüksək olması

ilə əlaqələndirmişdir. Beləliklə də, bu istiqamətdə qanuni tədbirlər görülməsinin gərəksiz olduğunu iddia etmişlər.

"Hüquq və iqtisadiyyat" axınının qurucularından biri olan Kelbres 1970-ci ildə hüququn iqtisadi analizi yanaşmasını ilk dəfə ortaya qoyduğu əsəriylə ABŞ-dakı haqsız rəqabət hüququ tətbiqlərində iqtisadi analiz yoluyla iqtisadi fəaliyyəti təmin edəcək bir sistemin qurulmasına yol açmışdır.

ABŞ-da 1880-ci illərdə ortaya çıxan inhisarçılığın gətirdiyi problemlərə qarşı 1890-cı ildə Şerman Qanunu qəbul edilmiş, bununla da yeni bir hüquq sahəsi (rəqabət hüququ) yaradılmışdır. Daha sonra 1950-ci illərdə J. S. Beynin etdiyi empirik analizlərlə daha möhkəm təməllərə söykənən bu yanaşma, "hüquq və iqtisadiyyat" axınının güclənməsini təmin etmişdir. Ancaq əsl inkişaf, 1960-cı illərin əvvəllərində ABŞ-da  bəzi iqtisadçıların hal-hazırkı antitrest qanunlarını iqtisadi analizlərdən məhrum olması səbəbiylə qınaq obyektinə çevirmələri nəticəsində ortaya çıxmışdır. Məhz bu səbəb "Hüquq və iqtisadiyyat" (Law&Economics) hərəkətinə təkan vermiş və1960-1970-ci illərdə irəliləyişlər əldə olunmuşdur.

Bu dövrün qabaqcıl tədqiqatçılarından Robert Bork əsərlərində antitrest siyasəti haqqında fikirlərini irəli sürmüşdür. Robert Bork və digərləri antitrest qanunlarını rəqabəti təşviq etməkdən çox böyük firmaların rəqabət etmə qabiliyyətlərini pozduğunu iddia etmişdirlər. Bork bunu "antitrestdə böhran" adlandırmışdır. Bu tip müzakirələr iqtisadi təhlillərdən məhrum bir antitrest siyasətinin nə dərəcədə doğru olduğu sualını ortaya qoymuşdur.

Beləliklə,  hüquq və iqtisadiyyat sahəsində müxtəlif müzakirələr təşkil edilməyə başlamış və bu sahədə günümüzün əhəmiyyətli jurnallarının təməli qoyulmuşdur. "Antiinhisar bülleten", "Qanun və iqtisadiyyat" jurnalları və "Antiinhisar Qanun və İqtisadi İcmal" kimi bu sahədə qabaqcıl jurnallar, 1950-1960-cı illərdə nəşr olunmağa başlamışdır.

Hər nə qədər bu inkişaf ABŞ-da iqtisadiyyatın antitrest iddialarında əhəmiyyətinin getdikcə artmasına səbəb olmuşsa da, AB, rəqabət siyasətiylə əlaqədar verdiyi qərarlarda iqtisadi analizlərə yaxın zamana qədər çox etibar etməmişdir. ABŞ-ın antitrest siyasəti ilə AB-nin rəqabət siyasətinin təməlindəki fərqliliyin, bu

nəticəyə ən çox təsir edən faktor olduğu deyilə bilər. ABŞ-da iqtisadi fəaliyyət, istehlakçı faydası kimi hədəflər ön plana çıxarkən; AB-də rəqabət siyasəti uzun bir müddət ortaq bazar yaratma məqsədi üçün istifadə edilən bir alət olmuşdur. Ancaq son illərdə AB-nin də rəqabət siyasətində iqtisadi hədəfləri daha ön plana çıxarmasıyla, iqtisadi analizlərə önəm verilməyə başlanılıb.

“Hüquq və iqtisadiyyat” axınının müasir dövrdə inkişafında bu sahəyə çox böyük əmək qoyan Kouz, Beyker və Posnerin rolu inkaredilməzdir[1]. Hüquq və iqtisadiyyatın üç əhəmiyyətli nümayəndəsi olaraq bu tədqiqatçıların adlarının çəkilməsinin bir neçə səbəbi vardır. Belə ki, bu tədqiqatçıların hamısının hüquq və iqtisadiyyat sahəsində əhəmiyyətli rolları olub. Həmçinin də adları çəkilən bu elm adamlarının hüquqa olan özəl maraqları və yanaşma tərzləri hüquq və iqtisadiyyatın qarşılıqlı əlaqəsində də özünü göstərəcək.

Kouzun maraq dairəsi hüquq sistemindən çox iqtisadi sistemə idi. Lakin onun 1960-cı ildə ictimai xərclər üzərində apardığı araşdırmaları həm iqtisadi həm də hüquqi cəhətdən yüksək qiymətləndirilir. Kouzun bu məqaləsi hüquq jurnallarında çap olunmuşdur.

"İctimai xərc problemi" adlı məqaləsi ilə əlaqədar olaraq “bu məqalə bir iqtisadçı tərəfindən iqtisadçılar üçün yazılmışdır və bu məqalə ilə hüquq alimlərinin işinə əlavə etmək kimi bir niyyətim də yoxdur” deməkdədir (Kouz, 1994). Ancaq adı keçən məqalə, təəccüblü olduğu qədər də ovsunlayıcıdır. Belə ki, bu araşdırmanın, nəşr olunmasından qırx il sonra belə nə üçün belə böyük bir təsirə malik olduğunun səbəblərinə dair iqtisadçılar və hüquqşünaslar arasında fikir ayrılığı mövcuddur.

Kouzun ictimai xərclər nəzəriyyəsinin məzmununda ən əhəmiyyətli məqamlar aşağıdakılardır:

- Ilk əvvəl Kouz bu nəzəriyəsində haqsız rəqabəti şərh edir, ondan geniş bəhs edir;

- Ikincisi haqların məhdudlaşdırılması qanun tərəfindən müəyyən edilir və tətbiq olunur;

---

[1] В. М. Ведяхин, С. Н. Ревина. “Типы и методы правового регулирования рыночных отношений” Правоведение. 2002. №2(241). С. 244

- Üçüncü olaraq haqların müəyyənləşdirilməsində ən mühüm prinsip ədalət prinsipidir, əsas məqsəd isə "ictimai istehsalın dəyərini" ən yüksək səviyyəyə çıxarmaq olmalıdır. Lakin üçüncü fikri istisna kimi qəbul etsək digər görüşlərin ümumi təsirə malik olmadığını görərik. Buna görə də qeyd etmək olar ki, hüququn iqtisadi analizi ilə əlaqədar olaraq Kouz bu əhəmiyyətli araşdırmasında heç bir analitik çərçivə ortaya qoymayıb. Kouz özü müəyyən bir analitik çərçivəni isbat etməsə də, 1960-cı ildə apardığı araşdırma əslində geniş tətbiqləri olan sadə və konkret analitik yanaşmanı özündə ehtiva edir. Xüsusilə Kouz məqaləsində sabit nöqtə yanaşmasını açıqlayır. Kouz iki sabit nöqtə istifadə edir. Birincisi, istehsal xərcləri sıfır olduğunda istehsal vasitələrindən necə istifadə edildiyini araşdırır və sonra istehsal xərclərinin müsbət olduğu vəviyyəti araşdırmaq üçün sıfır istehsal xərclərini sabit nöqtə qəbul edir. Ikincisi, istehsal xərcləri müsbət olduqda mülkiyyət haqlarının araşdırılmasında istehsalın dəyərinin ən yüksək səviyyəyə çıxarılıb çıxarılmamasına görə bir sabit nöqtə istifadə edir.

Bekker istər sosial, istərsə də hüquq sahəsində əhəmiyyətli tədqiqatlar aparmışdır. Lakin müqayisə etsək sosial sahədəki tədqiqatları daha çoxdur. Bu nəticə Bekkerin sosial və hüquq sahəsindəki nəşrlərində öz əksini tapıb. Lakin baxmayaraq ki, Bekkerin hüquq sahəsindəki nəşrləri azlıq təşkil edir, bu tədqiqatlar hüquq elmində yüksək əhəmiyyətə malikdir.

Xüsusilə, Bekkerin diskriminasiya və cinayət üzərində apardığı araşdırmalar, rasional (şüurlu) seçimlər nəzəriyyəsinin hüquqi problemlərin araşdırılmasında istifadə edilməsi atılan ilk addımlardır. Ilk əvvəl qeyd olunmalıdır ki, Bekker diskriminasiya və cinayət problemlərinə etik və normativ perspektivdən yanaşmamış, bunun əvəzinə bu fenomeni sıravi insanlar tərəfindən edilən şüurlu seçimin nəticəsi kimi qiymətləndirmişdir. Həmçinin Bekker, rasional seçimlər modelindən istifadə edərək cinayət və diskriminasiya kimi fenomenlərin geniş şəkildə açıqlana biləcəyini göstərmişdir. Məsələn, diskriminasiyanın qarşılığı yüksək olduqda, ayrıseçkiliyin dərəcəsi aşağı düşər: avtomobili sürətli idarə etməyin cəzası ağırlaşdığında, yüksək sürətli idarəetmələrin sayı azalar. Başqa sözlə ifadə etsək, hüquqi cəzalar eynilə mal və xidmətlərin maddi dəyəri kimidir. Çünki həmin hüquqi cəzalar insan davranışına

əhəmiyyətli dərəcədə təsir etmək qabiliyyətindədir. Həmçinin Bekker, iqtisadiyyat-dakı rasional seçimlər nəzəriyyəsinin hüquqla əlaqəsini də araşdırmışdır. Bekker özünün analitik yanaşması ilə bağlı bu fikirləri söyləyir: Bazar tarazlığı, sabit seçimlər və davranışın maksimumlaşdırılması fərziyyələri, cəsurca və mərhəmətsizcə birləşdirilərək gördüyüm qədəriylə iqtisadi yanaşmanın ürəyini formalaşdırır. Hər nə qədər Bekkerin analitik yanaşması yüksək qiymətləndirilsə də, hüquqi və iqtisadi cəhətdən bu yanaşmada iki zəif məqam var. Birincisi Bekkerin maksimallaşdırma nəzəriyyəsi adlandıra biləcəyimiz tədqiqat işində riyazi törəmə və funksiyalardan çox istifadə olunur. Ancaq qeyd olunmalıdır ki, hüquq alimlərinin əksəriyyəti riyazi məsələlərə öyrəncəli deyillər. Riyazi məsələlərin həlli onlara hüquqi məsələlərə nisbətən çətin olar. Ikincisi Bekkerin maksimallaşdırma nəzəriyyəsi bəzi hüquqi problemləri araşdırmada güclü olsa da, bütün problemlərin həllində belə deyil. Şikayətçi, vəkil, hakim və s. daxil olmaqla bunların hüquqi vəzifələri və davranışları ilə əlaqəli hüquqi məsələlərə onun yanaşma tərzi çox əhəmiyyətlidir. Lakin araşdırılacaq məsələ davranış formaları ilə əlaqəli deyilsə onda Bekkerin yanaşması çox da faydalı olmayacaqdır. Qısacası, Bekkerin yanaşması (insan) davranışlarda açıq – aşkar bir iqtisadi yanaşma təşkil edir, lakin hüquq üçün dünya səviyyəsində tətbiq oluna bilən bir iqtisadi yanaşmanı təmin etməyə bilər. Hüququn iqtisadi təhlilinin məntiqi maksimumlaşdırma yanaşmasından daha sadə və əsaslı olmalıdır.

Kouz və Bekker ilə müqayisədə Posner ən azı iki cəhətinə görə fərqlənir. Bir tərəfdən Kous hüququn iqtisadi fəaliyyətlər üzərindəki təsiri ilə maraqlanıb hüququn özünə xüsusi bir maraq duymazkən, Bekker əksinə daha çox hüquqla maraqlanırdı. Tam əsksinə, Posnerin tədqiqatları Kouz və Bekkerin müzakirə etdiyi mövzulardan daha fərqli idi. Digər tərəfdən həm Kouz, həm də Bekker akademik dünyanın iqtisadçıları ikən Posner Birləşmiş Ştatların Məhkəməsində 1981-ci ildən hakim olaraq fəaliyyət göstərirdi. Buna görə də, Posner hüquqi problemlərlə yaxından maraqlanmaq məcburiyyətində idi. Hüquqi problemlər və hüququn iqtisadi analizi onun üçün yalnız zehni bilməcələrdən və bilməcə həll etmə oyunundan ibarət deyildi. Verəcəyi qərarlar geniş sahələrə təsir edəcəyindən professional və təsirli hökmlər ortaya qoymaq məcburiyyətində idi.

"Hüququn iqtisadi analizi" adlı əsərində Posner, iqtisadi analiz üçün bu təməl arqumenti ortaya qoyur: İqtisadiyyatın vəzifəsi qeyd olunduğu kimi insanların həyatlarındakı məqsədlərini, tələbatlarını şüurlu şəkildə, maksimum dərəcədə ödəməkdən ibarətdir." Bundan əlavə iqtisadi analizin iki ana prinsipini vurğulayır: Birincisi qoyulan qiymət ilə tələb edilən miqdar arasındakı tərs mütənasiblikdir (tələb qanunu).

Istehlakçıların öz mənfəətlərini ən yüksək səviyyəyə çıxarmağa səy göstərmələri.Yuxarıdakı müzakirələrdən də aydın olur ki, Kouz, Bekker və Posnerin metodologiyaları bir-birindən fərqlənir. Belə ki, Bekker öz tədqiqatlarında riyazi üsullardan daha çox istifadə etmişdirsə də, Kouzda bu tam əksinədir. Posner isə ikisinin arasında olmaq etibarilə hüquqla iqtisadiyyatın qarşılıqlı əlaqələrini tədqiq etmişdir. Bu da hüquqi problemlərin fərqli iqtisadi bucaqlardan araşdırılıb hər birinin məhsuldar nəticələr çıxara biləcəyinin açıq göstəricisidir. Lakin Bekker öz tədqiqatlarında riyazi üsullardan çox istifadə etmişdir. Bu da əksər hüquq alimlərinin onun araşdırmasına müraciət etməməsinə səbəb oldu. Iqtisadçılar ilə hüquqşünaslar arasındakı dialoqu artırma yolunda Bekkerin yanaşma tərzi çox da uğurlu hesab edilməz. Kouzun sabit nöqtə yanaşması isə tez tətbiq oluna biləcək analitik texnikadır. Kouzun sabit nöqtə yanaşması çox asan istifadə olunan bir quruluşa malik olduğundan iqtisadi və hüquqi problemlərin həllində nümunəvi iqtisadi model olaraq istifadə edilə bilər.

Bütün bu tədqiqatlar ən başlıcası, hüquq qaydalarının iqtisadi fəaliyyətləri necə tənzimlədiyini və iqtisadi analizin hüquq alimləri, hakimlər və digər hüquq tətbiq edicilər baxımından nə üçün əhəmiyyətli olduğunu göstərməkdədir. Iqtisadiyyat və hüquq demək olar ki, həm bir-birindən asılı, həm də bir-birilə qarşılıqlı surətdə fəaliyyət göstərir. Bütün bu münasibətlər "iqtisadiyyat və hüquq" başlığı altında onların ortaq fəaliyyətini qanunilləşdirir.

Hazırda "hüquq və iqtisadiyyat" olaraq adlandırdığımız hərəkatın tarixi yüzlərlə il geriyə gedir, ancaq ilk böyük "iqtisadiyyat və hüquq" hərəkatı iyirminci əsrin əvvəllərinə təsadüf edir. Müasir "hüquq və iqtisadiyyat" hərəkatı isə Çikaqo Universitetində "Hüquq və İqtisadiyyat" jurnalının nəşr olunması ilə 1950-ci illərin

sonunda ortaya çıxmışdır[1]. Adı çəkilən jurnalda Ronald Kouzun 1960-cı ildə nəşr olunan və yüksək əks-səda yaradan "ictimai xərc problemi" adlı tədqiqat işiylə bu hərəkat sürətlə yayılmağa başladı. Daha sonra onun fikirləri Bekker və Posner tərəfindən inkişaf etdirildi.

[1] Ege Cansen: İktisadi hukuk veya hukuki iktisat// Hürriyet gazetesi. 2006, s.4

# II FƏSİL. İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ PROSESİNƏ HÜQUQUN TRANSFORMASIYASI VƏ ONUN FORMALAŞDIRILMASI MEXANİZMİ

## 2.1 İqtisadi sistemin transformasiyası şəraitində dövlətin, iqtisadiyyatın və hüququn qarşılıqlı əlaqəsinin iqtisadi təhlili

Dövlətin funksional fəaliyyəti hər şeydən əvvəl, əsas məqsədə nail olmağa – insanların maddi rifah halının yüksəldilməsinə, onların hüquq və sosial müdafiəsinin təmin edilməsinə yönəldilməlidir. Dövlət müəyyən bir qrupun və ya sinfin deyil, hər bir şəxsin hüquqlarının və qanuni maraqlarının ən ali təminatçısı və müdafiəçisi kimi çıxış etməlidir. Çünki dövlət bu yolla cəmiyyət üzvlərinə təsir göstərməklə, ictimai tərəqqiyə şərait yaradır, ictimai münasibətlər sistemini təkmilləşdirir və onu daha da zənginləşdirir.

Cəmiyyətdə müxtəlif maraqların bir-biri ilə əlaqələndirilməsi dövlət tərəfindən bir sıra mühüm funksiyaların həyata keçirilməsini tələb edir. Bu funksiyalar dövlət siyasətini bu və ya digər formada özündə əks etdirərək, cəmiyyətin müəyyən inkişaf mərhələsində onun qarşıya qoyduğu əsas vəzifələrdən asılı olaraq müəyyən edilir və bu vəzifələrin reallaşdırılması vasitəsi kimi çıxış edir. Dövlətin həyata keçirməli olduğu vəzifələrin məzmununu isə müxtəlif daxili və xarici amillər müəyyənləşdirir.

Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyata vahid sistem kimi baxılmalıdır. Bu sistemə, dövlətin iqtisadi siyasətinə uyğun olaraq qanunçuluq, icraçılıq, nəzarətedici səlahiyyətləri, dövlət müəssisələrini, ictimai təşkilatları dəyişilən şəraitə uyğunlaşdırmaq və sosial-iqtisadi stabilləşdirmək vəzifəsi daxildir. Bazar iqtisadiyyatının inkişafı prosesində elə problemlər vardır ki, onların həlli xüsusi mülkiyyət əsasında qeyri mümkündür: məsələn, aşağı rentabelli müəssisələrə investisiya verilməsi, sahə və ümumi təsərrüfat böhranlarının ləğv edilməsi, kütləvi işsizlik, pul dövriyyəsinin pozulması, dünya bazarında rəqabətin güclənməsi və s. bütün bunların hamısı dövlət tərəfindən həll edilə bilər. Dövlət, iqtisadiyyat və hüququn qarşılıqlı əlaqəsi və onların bir-birlərinə təsirini təhlil edərkən, bu əlaqədə dövlətin subyekt, iqtisadiyyatın obyekt qismində çıxış ediyi məlum olur. Hüquq isə bu münasibətlərdə vasitə rolunu

oynayır. Belə ki, subyekt yəni dövlət, obyektə yəni iqtisadiyyata hüquq vasitəsi ilə təsir edir, onu tənzimləyir.

Hüquq ictimai hadisədir. Hüquq dedikdə, dövlət tərəfindən adətən, müəyyən edilən və qorunan ümumi məcburi ictimai normalar sistemi başa düşülür. Hüququn köməyilə vətəndaşların öz aralarında, vətəndaşlarla dövlət orqanları arasında, habelə onlarla müəssisələr, idarələr və təşkilatlar arasında yaranan ictimai münasibətlər tənzimlənir, insanların və kollektivlərin davranışı nizamlanır. Hüquq mülkiyyət münasibətlərini möhkəmləndirir, əmək və maddi nemətlərin cəmiyyət üzvləri arasında bölüşdürülməsinin ölçüsünü və formasını nizama salır, dövlət hakimiyyətinin təşkilini və fəaliyyətini tənzimləyir, mövcud ictimai münasibətləri cinayət əməlindən qorumaq üçün mübarizə tədbirləri müəyyən edir. O, bütün münasibətləri yox, yalnız ictimai həyatın daha vacib sahəsini tənzim edir.

Hüquq bir qayda olaraq, dövlət tərəfindən yaradılır və müəyyən edilir. Dövlət hüquq normalarını ləğv edir, dəyişdirir, onlara əlavələr edir. Bu baxımdan dövlət hüququn siyasi yaradıcısıdır: hüquq yaradıcılığı onun müstəsna hüququdur. Bu o deməkdir ki, hüququ yalnız dövlət yarada bilər. Digər subyektlərin belə hüququ yoxdur. Buna görə də hüquq sadəcə xalqın iradəsini deyil, xalqın dövlət iradəsini ifadə edir və sadə tənzimləyici kimi yox, xüsusi, dövlət tənzimləyicisi kimi çıxış edir. Dövlət hüququn vasitəsilə ictimai və dövlət həyatının ən vacib məsələlərini tənzim edir.

Hüquqi tənzimləmə aşağıdakıları əhatə edir[1]:

1) Hüquqi göstərişlərin hazırlanması və onların işlək olmasından ötrü hüquqi vasitələrin müəyyənləşməsi ilə bağlı olan dövlətin (onun normayaraqıcı orqanlarının) spesifik fəaliyyətini. Sözügedən aspektdə hüquqi tənzimləmənin məzmunu tənzimləmə tipin, metodun, reqlamentasiya üsullarının seçimi ilə əlaqədar olan,normativ və fərdi tənzimləmə vasitələrinin qarşılıqlı nisbətini müəyyənləşdirən dövlətin normayaradıcı orqanlarının çoxnövlü fəaliyyəti,yəni sözügedən sosial – iqtisadi və siyasi şəraitdə vətəndaş cəmiyyətinin, onun institutlarının normal fəaliyyət göstərməsinin

[1] V.V. Lazarev "Ümumi hüquq və dövlət nəzəriyyəsi" Bakı, "Nurlan" 2004 , s. 167

təminatı, insanların sivil formada öz həyat fəaliyyətinin təşkili üçün lazımi hüquqi instrumentarinin formalaşması ilə əhatə olunur;

2) Öz davranışlarını hüquqla (onun prinsipləri, məqsədləri, təyinatları ilə) tarazlaşdırmaq üçün ictimai münasibətlərin birbaşa iştirakçılarının hüquqi tənzimləmə vasitələrinə cəlb olunmasına və axtarışına istiqamətlənmiş fəaliyyəti. Hüquqi tənzimləmənin (dövlət tənzimləməsi ilə yanaşı) sözügedən növünün fərqləndirilməsi, görünür, hüquqi anlamaya (hüquq təhsilinə) dair müasir baxışlarla uyğunlaşdırılır, praktikada hüquq "istehsalına" dövlət inhisarı iddiasına imkan vermir. Belə bir nəticə sivil quruluşun hüquqi həyatının təşkilinin özünün ümümicazəli prinsipinin təbiətindən irəli gəlir. O, dövlətin hüquqyaradıcı fəaliyyətindən dinamik olan hüququn sosial şərtlənməsinə müvafiqdir.

Hüquq mürəkkəb və çoxcəhətli anlayışlardan biridir. "Hüquq" sözünün özü çox müxtəlif mənalarda işlədilir. Bir qayda olaraq, "hüquq" dedikdə, biz birincisi, hüquq normalarının məcmusu və sistemi başa düşürük. O hüquq normalarının ki, bu normalar ictimai həyatın təşkilində, insanların davranışlarının tənzimlənməsində, kollektivlərin (müəssisələrin, təşkilatların, idarələrin və digər qurumların) fəaliyyətini qaydaya və nizama salınmasında mühüm rol oynayır. Hüquq zahirən ayrı-ayrı, müxtəlif rəsmi dövlət sənədlərində ifadə olunur. Rəsmi dövlət sənədləri dedikdə, qanunlar, prezident fərmanları, hükumət qərarları və digər sənədlər başa düşülür. Onlara dövlətin hüquqi aktları deyilir. Bu aktlarda hüquq normaları möhkəmləndirilir. Digər tərəfdən həmin aktlar hamı üçün məcburi olub, bir dəfə deyil, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulur. Bu aktlarda ifadə olunan göstərişləri hamı məcburi surətdə yerinə yetirməlidir. Buna görə onlara normativ hüquqi aktlar verilir.

Hüquqla qanun arasındakı münasibətə gəldikdə isə qeyd etmək lazımdır ki, qanun hüququn zahirən ifadə olunduğu formalardan (sənədlərdən, aktlardan) biridir. Hüquq zahirən digər sənədlərdə də, məsələn, prezident fərmanlarında da, hökumət qərarlarında (Nazirlər Kabinetinin qərarlarında) da və s. ifadə oluna bilər. Qanun dedikdə, xüsusi qaydada qəbul edilən, yüksək hüquqi qüvvəyə malik olan, ictimai və dövlət həyatının vacib məsələlərini tənzim edən normativ hüquqi akt başa düşülür.

Normativ hüquqi aktlar bir-biri ilə xaotik və nizamsız halda birləşməmişdir. Onlar müəyyən sistem halında yerləşir və düzlənir. Söhbət normativ hüquqi aktların müəyyən ardıcıllıqla vahid şaquli xətt üzrə birləşməsindən gedir. Ardıcıllıq normativ hüquqi aktın qüvvəsi ilə müəyyən edilir. Belə ki, əvvəlcə hüquqi qüvvəsi nisbətən yüksək olan normativ akt yerləşir. Sonra isə bunun ardınca hüquqi qüvvəsi nisbətən aşağı olan normativ aktlar düzlənir. Özü də bu aktlar daxili vəhdətdə olub, bir-birləri ilə sıx surətdə bağlıdır. Normativ hüquqi aktların bu cür ardıcıllıqla düzlənməsi qanunvericilik sistemi yaradır.

Qanunvericilik sistemi dedikdə, normativ hüquqi aktların onların malik olduğu hüquqi qüvvəsindən asılı olaraq vahid şaquli xətt üzrə müəyyən ardıcıllıqla düzlənməsi və yerləşməsi başa düşülür.

Hüquqi tənzimləmənin sfera və həddləri hüququn ictimai həyata mütərəqqi – yeniləşdirici təsir göstərməyə,insan fəaliyətini istiqamətləndirməyə və onun inkişafına yardımçı olmağa qabil olduğu sosial məkanın sahələrini göstərir. Hüquqi tənzimləmənin sfera və hədlərinin düzgün müəyyənləşdirilməsi başqa sosial tənzimləmə vasitələri tələb edən insanların qarşılıqlı fəaliyyət sferalarında hüquqi alətlərin istifadəsinə yol verilməməsi üçün zəruridir.

Hüquqi tənzimləmə sferası dövlətin hüquqyaradıcı fəaliyyətinə münasibətdə ilkindir. O, hüquqi vasitələr olmadan nizamlanması obyektiv şəkildə qeyri – mümkün olan nizamlanmamış münasibətlərin və faktların məcmusudur. Hüquqi tənzimləmə sferası potensial hüquqi münasibətlər sahəsidir. Buradan belə bir nəticə alınır ki, hüquqi təsirin sferaları bu və ya digər zaman kəsiyində yalnız dövlətin vəzifələri ilə müəyyənləşdirilmir. Və deməli, onun baxışından asılıdır, subyektiv dərəcədə qanunun göstərişləri ilə çərçivələnir. Hüquqi tənzimləmə sferası və qanunun qüvvəsi sferası, beləliklə, üst – üstə düşməyə bilər. Başqa bir nəticə müasir cəmiyyətə xas olan sivil ünsiyyət formalarının xarakteri ilə ziddiyyət təşkil edərdi. Praktikada isə o, labüd şəkildə vətəndaşların azadlıqlarının, onların təşəbbüslərinin, konstruktiv fəaliyyət sahələrinin məhdudlaşdırlması ilə tamamlanardı.

Qeyd olunanla bağlı prinsipial cəhətdən bunları nəzərə almaq lazımdır: hüquqi tənzimləmə sferalarının mahiyyətinin düzgün izahı hüquqi dərketmə problemi ilə

birbaşabağlılıqdadır. Aydındır ki, hüququ yalnış qanun norması ilə eyniləşdirdikdə onun (hüququn) təsir sferası təkcə qanunverici göstərişlərlə tamamlanır.

Sosial – iqtisadi fəaliyyətin hüquqi nizamlama tələb edən sahələrinin fərqləndirilməsi fövqəladə dərəcədə mürəkkəb praktiki vəzifələrdir. Onların düzgün həlli hüququn səmərəli fəaliyyətindən asılıdır. Hüququn nüfuzetmə imkanları elədir ki, onlar insan fəaliyyətinin geniş sahələrinə yayılır. Lakin onun iqtisadi həyatın müxtəlif sferalarına, bu və ya digər insan fəaliyyətinə tətbiqi nəticələri eyni deyil. Aydındır ki, maddi nemətlərin istehsalı, istehlakı və bölgüsü sferasında, dövlət hakimiyyəti, dövlət idarəçiliyi sahəsində, o cümlədən şəxsiyyət və dövlətin qarşılıqlı münasibətlərində ayrıca fərdin və bütövlükdə insan toplumlarının qanunsuzluq və zorakılıqdan sosial müdafiəsi sahələrində baş verən münasibətlərə hüquqi təsirin obyektiv şəkildə müdaxiləsindən danışmaq olar. Buna görə də dövlət, təsərrüfat fəaliyyəti, habelə sözügedən sferalarda fəaliyyət hüquqi tənzimləmənin predmet sahəsinə daxil olur, yəni obyektiv şəkildə hüquqi nizamlama tələb edir. Sosial – iqtisadi münasibətlər hüququn təsir etdiyi ən ümumi obyektlərdir. Hüquqi tənzimləmənin birbaşa predmeti isə bu münasibətlərin iştirakçılarının müxtəlif hərəkətləri və fəaliyyətidir. Hüquqi tənzimləmənin məzmunu, qarşılıqlı əlaqədə olan tərəflərin vəziyyətindən və bu qarşılıqlı əlaqənin yaranmasının əsasında duran obyektdən asılıdır.

Hüquq müəyyən əlamətlərə malikdir. Belə ki, hüququn yaradıcısı dövlətdir. Hüquq dövlət tərəfindən müəyyən edilir. Rəsmi sənədlər qəbul etməklə dövlət faktiki surətdə hüquq yaradır və müəyyən edir. Həmin sənədlər zahirən hüququn ifadə formalarıdır.

Digər əlamət ondan ibarətdir ki, hüquq ümumi məcburi davranış qaydaları müəyyən edir. Bu qaydalar müəyyən dövlətin ərazisində yaşayan bütün əhali üçün məcburi xarakter daşıyır. Bütün əhalinin borcu və vəzifəsidir ki, onları yerinə yetirsinlər. Həmçinin, hüquq dövlət tərəfindən qorunur, təmin edilir. Hüquq pozulduqda isə dövlət tərəfindən müdafiə edilir. Bu zaman dövlət aparatının məcburetmə qüvvəsi tətbiq olunur. Belə ki, hüququ pozan şəxslərə səlahiyyətli dövlət orqanları hüquqi məsuliyyət tədbirləri tətbiq edir. Hüquqi məsuliyyət tədbiri cinayət məsuliyyəti, intizam məsuliyyəti və digər növlərdə ola bilər.

Sonuncu əlamət isə ondan ibarətdir ki, hüquq cəmiyyətin, ölkə əhalisinin, yəni xalqın dövlət iradəsini ifadə edir. Belə ki, dövlət xalqın iradəsini qanun formasına salır, yəni xalqın iradəsi qanunlarda ifadə olunur. Qanunlar isə hüququ zahirən ifadə edən rəsmi sənədlərdir.

Dövlət və hüquq bir-birilə sıx surətdə bağlı olan sosial (ictimai) hadisələrdir. Onları bir-birindən ayırmaq qeyri-mümkündür. Məhz dövlətlə bağlı və əlaqədə olmaq hüququn xarakterik və spesifik əlamətlərini müəyyən etməyə imkan verir.

Dövlət və hüququn hər ikisi ictimai inkişafın məhsuludur. Onların hər ikisi də cəmiyyətin müəyyən inkişaf mərhələsində yaranmışdır. Hüquq dövlətlə birlikdə, onunla paralel olaraq inkişaf edir. Müasir cəmiyyət dövlətsiz keçinə bilməz. Sivil cəmiyyətin hüquqsuz mövcud olması da mümkün deyildir. Dövlət və hüquq qarşılıqlı əlaqədə olub, bir-birinə təsir göstərirlər. Bu təsir iki aspektdə təzahür edir. Birinci aspekt dövlətin hüquqa göstərdiyi təsirdən ibarətdir. Öz məqsədinə çatması üçün dövlət hüquqdan alət, vasitə kimi istifadə edir. Hüquq dövlət siyasətinin həyata keçirilməsi formasıdır. Dövlət siyasəti məhz hüquq vasitəsi ilə öz məqsədinə çatır.

Dövlətin hüquqa göstərdiyi təsir daha çox hüquq yaradıcılığı sahəsində hiss olunur və gözə çarpır. Söhbət dövlətin hüquqyaratma fəaliyyətindən gedir. Belə ki, hüququn yaranmasında və formalaşmasında dövlət daimi və labüd olaraq iştirak edir. Bu baxımdan dövlət hüququn yaradıcısı kimi çıxış edir.

Dövlətin hüququn əmələ gəlməsi sahəsində yaradıcı rolu ondan ibarətdir ki, o, hüquqyaratma fəaliyyətini həyata keçirir. Söhbət parlamentin qanunlar qəbul etməsindən, prezidentin fərmanlar verməsindən, hökumətin qərarlar qəbul etməsindən və s. gedir. Qanun da, fərman da, qərar da və s. səlahiyyətli dövlət hakimiyyət orqanlarının (parlamentin, prezidentin, Nazirlər Kabinetinin və s.) həyata keçirdikləri hüquqyaratma fəaliyyətinin hüquqi formalarıdır. Məhz bu formalarda ölkə əhalisi üçün ümumi məcburi davranış qaydaları ifadə olunur. Deməli, dövlət hüququ müəyyən edir, onu yaradır. Buna görə də hüquq dövlətin hüquqyaratma fəaliyyətinin nəticəsidir. Məhz bu fəaliyyət hüququn mənbəyi hesab edilir. Dövlətin hüquqa göstərdiyi təsir həm də hüququn həyata keçirilməsi prosesində hiss olunur. Hüququn dövlətdən kənar,dövlətsiz həyata keçirilməsi ümumiyyətlə, mümkün

deyildir. Dövlət hüququn həyata keçirilməsini təmin edir, onu pozuntu hallarından qoruyur. Hüququn arxasında dövlət və onun məcburetmə qüvvəsi durur. Dövlət hüququ himayə edir. Dövlətin məcburetmə qüvvəsi hüququn həyata keçirilməsi üçün təminatdır.

Dövlətin hüquqa göstərdiyi təsir kimi hüquq da dövlətə təsir göstərir[1]. Hüquq dövlətə möhtac olduğu kimi, dövlət də hüquqa möhtacdır. Özü də dövlətin hüquqa olan tələbatı və ehtiyacı heç də hüququn dövlətə olan tələbat və ehtiyacından az deyildir. Nəinki hüququn dövlətə ehtiyacı vardır, habelə dövlətin də öz növbəsində hüquqa ehtiyacı vardır. Dövlət hüquqa arxalanmadan normal və səmərəli surətdə fəaliyyət göstərə bilməz. Hüquq dövlətdən asılı olduğu kimi, dövlət də hüquqdan asılıdır.

Hüququn dövlətə təsiri birincisi, özünü dövlətin daxilən təşkil olunma sahəsində göstərir. Məhz bu sahədə dövlətin hüquqdan asılı olması hiss olunur, gözə çarpır. Belə ki, dövlət özünün siyasi təşkilat kimi mövcud olmasına görə hüquqa borcludur. Hüquq dövlət idarəetməsinin zəruri aləti kimi çıxış edir. Hüquq dövlətin formasını və quruluşunu, dövlət aparatının quruluşunu, dövlət orqanlarının və vəzifəli şəxslərin səlahiyyətlərini müəyyən edir, dövlət mexanizmində qarşılıqlı münasibətləri tənzimləyir.

Hüquq dövlət hakimiyyətinin təşkili əsaslarını müəyyənləşdirir, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyət bölgüsü aparır. Bunun dövlətin daxilən təşkil olunmasında böyük əhəmiyyəti vardır. Belə ki, dövlət hakimiyyətinin üç sahəsi (qolu) arasında səlahiyyət bölgüsü aparılır, hakimiyyətin müəyyən bir sahəsi (qolu) tərəfindən hakimiyyətin mənimsənilməsi və qəsb edilməsi aradan qaldırılır, istisna edilir. Bu cür mənimsəmə və qəsb etmə halına yol verilməməsi üçün hüquq təminat yaradır.

Həmçinin, hüququn dövlətə təsiri özünü dövlətin fəaliyyəti sahəsində biruzə verir. Bu sahədə də dövlətin hüquqdan asılı olması üzə çıxır, müəyyən edilir. Hüquqdan kənar, hüquq olmadan dövlət öz fəaliyyətini həyata keçirə bilməz. Hüquq

---

[1] V.V. Lazarev "Ümumi hüquq və dövlət nəzəriyyəsi" Bakı, "Nurlan" 2004, s.82

dövlət fəaliyyətinin vacib tərəfi, mühüm aspekti və zəruri cəhətidir. Bundan əlavə, dövlətlə əhali arasındakı qarşılıqlı münasibətlər də hüququn köməyi ilə qurulur. Dövlət əhaliyə məhz hüququn vasitəsi ilə və hüquqda ifadə olunan göstərişlər çərçivəsində təsir göstərir. Öz növbəsində ölkə vətəndaşları da hüququn köməyi və vasitəsi ilə dövlətə təsir göstərirlər.

Dövlətin fəaliyyətinin çərçivəyə alınması, onun sərhədlərinin müəyyən edilməsi,dövlətin xüsusi şəxsi işlərə qarışmasının hədlərinin təyin olunması da hüquq vasitəsilə həyata keçirilir. Bundan əlavə, dövlət məhz hüquq vasitəsilə öz fəaliyyətini qanuniləşdirir. Digər tərəfdən dövlətin müəyyən etdiyi məsuliyyət, qoruyucu və məcburiyyət tədbirlərinin tətbiq edilməsinin mümkünlüyü məsələsi hüququn vasitəsi ilə həll olunur. Dövlət məcburetmə formasını və onun hədlərini hüquq əsasında təyin edir.

Hüquq dövlətlə ölkə əhalisi arasında ünsiyyət vasitəsidir. Dövlət ölkə ərazisində yaşayan vətəndaşlarla hüquq vasitəsi ilə əlaqə yaradır. Xarici ölkələrlə, bütövlükdə dünya birliyi ilə dövlət hüququn köməyi ilə əlaqəyə girir. Cəmiyyətin və xalqın dövlət iradəsi məhz hüququn vasitəsi ilə ifadə edilir. Hüquq normalarında əks olunan dövlət iradəsi elə hüququn özüdür.

Məhz hüquqi dövlətin fəaliyyətində hüququn dövlətə təsiri diqqəti cəlb edir. Hüquqi dövlətin fəaliyyəti hüquqa əsaslanır, hüquqa bağlıdır və hüquqla məhdudlaşır. Qanunun aliliyi hüquqi dövlətin əsas və başlıca əlamətlərindən biridir. Nə dövlət hüquqdan ayrı, nə də hüquq dövlətdən ayrı fəaliyyət göstərə bilməz.

## 2.2 Hüququn iqtisadi funksiyaları və onun reallaşdırılmasının təmini mexanizmi

Respublikamızda iqtisadi münasibətlərin inkişafı üçün bu münasibətləri tənzimləyən hüquq mənbələrinin formalaşdırılması və təkmilləşdirilməsi zəruridir. Hüquq mənbələri hüququn əsas anlayışlarından biridir. Dövlətin, daha doğrusu səlahiyyətli dövlət orqanlarının (Milli Məclisin, prezidentin və s.) hüquqyaratma fəaliyyəti nəticəsində hüquq normaları yaradılır. Bu normalar zahirən rəsmi dövlət

sənədlərində (məsələn, qanunlarda, prezident fərmanlarında, Nazirlər Kabinetinin qərarlarında və s.) ifadə olunur. Həmin sənədlər hüququn mənbələrini təşkil edir.

Ölkəmizdə mülkiyyət formasının dəyişdirilməsi, azad sahibkarlığa və bazar mübasibətlərinə əsaslanan sərbəst iqtisadiyyatın yaradılması və kənd təsərrüfatı istehsalının düşdüyü böhrandan çıxarılmasının əsas yolları araşdırılmalıdır. Azərbaycan Respublikasında həyata keçirilən islahatların güddüyü əsas məqsədlərdən biri vətəndaş cəmiyyəti qurmaqdan ibarətdir. Konstitusiyada bu cür cəmiyyətin bərqərar edilməsinə nail olunması əsas niyyətlərdən biri kimi bəyan edilir. Iqtisadi azadlıq, çoxnövlü mülkiyyət, bazar münasibətləri, hakimiyyətin demokratik və legitim xarakterə malik olması, şəxsiyyətin hüquqi cəhətdən etibarlı müdafiəsi, hüquqi dövlət, hamının qanun və ədalət mühakiməsi qarşısında bərabərliyi, dövlətin fiziki şəxslərin şəxsi həyatına qarışmaması, vətəndaşların maddi həyat səviyyəsini təmin edən səmərəli sosial siyasət, partnyorluq və s. istənilən hər hansı vətəndaş cəmiyyətinin əsasında duran ümumi ideya və prinsiplərdir. Xüsusi mülkiyyət isə bu cəmiyyətin özəyini təşkil edir. Vətəndaş cəmiyyətinin əsasını təşkil edən xüsusi mülkiyyət hüququn nizamasalma predmetinə daxildir. Bu cəmiyyətə mülki hüquq kimi yaxın olan ikinci bir hüquq sahəsi tapmaq çətindir.

Azərbaycan iqtisadiyyatında son illər baş verən sürətli inkişaf, iqtisadi artım templərinin yüksək göstəricilərə çatdırılması, iqtisadi münasibətlərdə irəliləyişlərin əldə edilməsi, sahibkarlığın, kiçik və orta biznesin təşəkkül tapması, regionların sosial iqtisadi inkişafında əldə edilən nailiyətlər, azad rəqabətin formalaşdırılması, ölkəmizdə həyata keçirilən iqtisadi islahatların uğurla reallaşdırılmasından xəbər verir. Ölkədə keçirilən iqtisadi inkişaf strategiyası qısa zaman ərzində iqtisadi sahədə böyük nailiyyətlərin əldə edilməsinə, Azərbaycanın regionda ən dinamik inkişaf edən bir dövlətə çevrilməsinə imkan vermişdir. Həyata keçirilən iqtisadi inkişaf strategiyası ilk növbədə, ölkədə sosial iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi və beynəlxalq standartlara çatdırılması kimi mühüm həlqələri əhatə etməklə dövlətçilik maraqlarına xidmət edən iqtisadi strategiyanın uğurla

həyata keçirilməsinə zəmin yaradıb. Həmçinin ölkədə iqtisadi münasibətlərin qanunvericilik bazası da formalaşdırılmış, “Sahibkarlıq fəaliyyəti haqqında”, “Əmtəə birjası haqqında”, “Haqsız rəqabət haqqında”, “Lizinq xidməti haqqında”, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi” proqramı , "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", “İnvestisiya fəaliyyəti haqqında“, “Antiinhisar fəaliyyəti haqqında “, “Təbii inhisarlar haqqında” və s. qanunlar qəbul edilmişdir.

Mülki hüquq iqtisadi münasibətləri nizama salır. O münasibətləri qaydaya salır ki, bunsuz insan cəmiyyətinin mövcudluğu və yaşaması mümkün deyil. Mülki hüquq iqtisadiyyata daha yaxın olan sahədir. O, ayrı – ayrı şəxslər arasında normal iqtisadi münasibətləri sanksiyalaşdırır. Mülki hüquq ictimai həyatdakı iqtisadi şəraiti hüquqi cəhətdən ifadə edir. Buna görə də, göstərə bilərik ki, mülki hüquq sosial həyatın, iqtisadi münasibətlərin əsası kimi çıxış edir. Ona iqtisadi və sosial həyat üçün vacib olan hüquq sahəsi kimi baxılır. Mülki hüquq normaları praktiki olaraq ölkənin ictimai – iqtisadi və sosial həyatının bütün sferalarına nizamlayıcı təsir göstərir.

Çox zəngin ictimai – iqtisadi və sosial – siyasi məzmuna malik olan mülkiyyət dövlətin, şəxsin, qrupun, kollektivin və bütövlükdə cəmiyyətin həyat məsələsidir. Mülkiyyət istehsal münasibətlərinin, hətta cəmiyyətin bütün ictimai – iqtisadi münasibətlərinin əsasıdır. Bu iqtisadi kateqoriya cəmiyyətin iqtisadi bazisini xarakterizə edir. O, istehsalın bütün formalarını əlaqələndirir. Mülkiyyət cəmiyyətdə faktiki olaraq mövcud olan mülkiyyət münasibətlərinin təzahürüdür. Mülkiyyət münasibətləri isə maddi, iqtisadi münasibətlərdir. Bu cür münasibətlər mülki hüquqla möhkəmləndirilir və qorunur. Mülki hüquq normaları istehsal vasitələri və məhsulları üzrə mülkiyyət münasibətlərini təsbit edir, mülkiyyətçinin əmlak üzərində sahiblik, əşyadan istifadə və onun üzərində sərəncam vermək səlahiyyətini təmin edir, mülkiyyət hüququnun əmələ gəlmə və həyata keçirilmə qaydalarını müəyyən edir.

Fiziki cəhətdən əbədi və daimi olmayan insan ömrü müəyyən müddətdə sona çatır.Belə halda onun əmlakı vərəsələrə keçir. Əmlakın vərəsələrə keçməsi vərəsəlik adlanır. Mülki hüquq vərəsəlik münasibətlərini də tənzimləyir. Ölən vətəndaşın

hüquq və vəzifələrinin digər şəxslərə (vərəsələrə) keçmə prosesinin nizama salınması bu hüquq sahəsinin tənzimləmə predmetinə aiddir.

Mülki Məcəllə məcəlləşdirilmiş qanun kimi mülki qanunvericilikdə xüsusi mövqeyə malikdir. Sahəvi məcəlləşdirilmiş normativ akt olan Mülki Məcəllə mülki qanunvericilik sistemində xüsusi yer tutur. O öz əhəmiyyətinə görə Konstitusiyadan sonra ikinci qanunvericilik aktıdır, ölkənin iqtisadi Konstitusiyasıdır, hamı üçün qanundur. Mülki hüquq sahəsində və ümumiyyətlə, xüsusi hüquq sahəsində Mülki Məcəllə hüququn vacib mənbəyi hesab edilir.

Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi 28 dekabr 1999– cu ildə təsdiq edilmiş, 2000–ci il sentyabrın 1 – dən qüvvəyə minmişdir. Ölkəmizin tarixində bu, hesabla üçüncü Mülki Məcəllədir. Ilk Mülki Məcəllə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 16 iyun 1923 – cü il tarixli qərarı ilə qəbul edilmiş, 8 sentyabr 1923 – cü ildən qüvvəyə minmişdir.

Azərbaycan Respublikasının sayca ikinci MM – i Azərbaycan SSR Ali Soveti tərəfindən 1964 – cü il sentyabrın 11 – də qəbul edilmiş, 1965 – ci ilin martın 1 – dən qüvvəyə minmişdir. Bu məcəllə sovet mülki qanunvericiliyinin ikinci məcəlləşdirilməsi zamanı qəbul olunmuşdur. O, əmrə əsaslanan sovet iqtisadiyyatı şəraitində meydana gəlmişdir. Buna görə də həmin məcəllədə o dövrkü cəmiyyətin dövlət mülkiyyəti inhisarı, planlı iqtisadiyyat, inzibati – amirlik metodları, mərkəzləşdirilmiş təsərrüfat idarəçiliyi və digər xüsusiyyətləri ifadə olunmuşdur.

90 – cı illərin əvvəllərindən başlayaraq ölkəmizdə sovet iqtisadiyyatının əvəzinə bazar iqtisadiyyatı yaranmağa başladı. Daim təkrar olunan alqı – satqı aktlarının və mübadilə prosesində sosial – iqtisadi münasibətlərin məcmusu olan bazarın əsası qoyuldu. Bazar prinsipləri əsasında təşəkkül tapan və bazar qanunlarına uyğun olaraq inkişaf edən iqtisadiyyatın yaranması prosesi başladı. Şübhəsiz ki, köhnə 1964 – cü il MM – i formalaşmaqda olan bazar iqtisadiyyatının inkişaf edən tələbatına cavab verə bilməzdi. Bazar iqtisadiyyatı özünün qanunvericilik qaydasında rəsmiləşdirilməsini tələb edirdi. Bunu nəzərə alaraq ölkənin ali qanunverici orqanı olan Milli Məclis yeni Mülki Məcəllə qəbul etdi. Yeni MM – in əsas məqsədi əmlak dövriyyəsinin sərbəstliyini təmin etməkdən ibarətdir. Özü də əmlak dövriyyəsi

iştirakçılarının hüquq bərabərliyi əsasında və üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən. Onun əsas və başlıca vəzifəsi isə bazar təsərrüfatı şəraitində ölkə ərazisində mülki hüquq subyektlərinin əmlak münasibətlərini tənzimləməkdən, onların hüquq və qanuni mənafelərini müdafiə etməkdən, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu qorumaqdan ibarətdir. O, demək olar ki, mülki hüququn predmetinə daxil olan bütün münasibətlərin tənzimlənməsinə yönələn nisbətən vacib və prinsipial əhəmiyyətli müddəaları təsbit edir.

Mülki Məcəllə elə bir sahəvi məcəlləşdirilmiş qanunvericilik aktıdır ki, özündə mülki dövriyyə üçün normativ bazanın əsası rolunu oynayan, əmlak münasibətlərini və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyən hüquq normalarının əks olunduğu maddələri birləşdirir. O, 10 bölmə, 74 fəsil, 1325 maddədən ibarətdir. Azərbaycan Respublikasının yeni Mülki Məcəlləsi ölkəmizin mülki qanunvericiliyini sivil və mütərəqqi ölkələrin qanunvericiliyinə xeyli dərəcədə yaxınlaşdırır. O, qabaqcıl xarici ölkələrin qanunvericilik ənənələrini və vərdişlərini ifadə edir. MM-ə ictimai münasibətləri sivil qaydada tənzimləyən hüquq normalarının əks olunduğu maddələr daxildir.

MM ölkənin ikinci - "iqtisadi Konstitusiyası" rolunu oynayır. O, vətəndaş cəmiyyəti ideyasını ifadə edir. Burada bu cəmiyyətin əsasını təşkil edən xüsusi mülkiyyət, bazar münasibətləri, iqtisadi azadlıq, sahibkarlıq və digər atributlar öz əksini tapmışdır. Bunlar vətəndaş cəmiyyətinin elə ayrılmaz atributlarıdır ki, onları bütün sivil dünya qəbul edir və tanıyır.

Mülki Məcəllənin əsas istiqaməti, yönümü və səmti bazar münasibətlərinə doğrudur. O, plana əsaslanan sovet iqtisadiyyatının əvəzinə formalaşan bazar iqtisadiyyatı əlaqələrini qanunvericilik qaydasında rəsmiləşdirir. Yeni MM sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmağı özünün daşıdığı əsas vəzifələrdən biri kimi bəyan edir. Burada bütün mülkiyyət formalarının bərabərliyi prinsipi əks olunmuşdur.

Mülki Məcəllədə xüsusi hüquq konsepsiyası qəti olaraq rəsmən qanunvericilik qaydasında tanınmışdır. Bunsuz nə bazarın sabit inkişafı, nə əsl mülkiyyət institutu, nə də ki, vətəndaş cəmiyyətinin formalaşması mümkündür. Həmçinin ölkə

vətəndaşlarının azad sahibkarlıq hüququnu təsbit edən Azərbaycan Respublikasının Konstitutsiyasına uyğun siyasi və iqtisadi mühit yaradıldı, sahibkarlığın formalaşması üçün ardıcıl və sistemli tədbirlər həyata keçirildi. İqtisadiyyatda ciddi dəyişikliklər aparmaq üçün hüquqi – normativ əsaslar yaradıldı. 1995 – 2007 – ci illərdə sahibkarlığın formalaşması və inkişafı üçün vacib qanunvericilik bazası yaradılmış, onların hüquq və qanuni mənafelərinin müdafiəsini, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını təmin edən bir sıra normativ  hüquqi aktlar qəbul edilmişdir. İndiyədək sahibkarlıq fəaliyyətini tənzimləyən və onun inkişafına imkan verən yüzdən çox hüquqi – normativ aktlar qəbul edilmişdir.

Sahibkarlar mövcud hüquqi – iqtisadi mexanizmlər barədə kifayət qədər bilgiləri olmadığı üçün onlara mövcud qanunlar, Respublika Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları, nazirlik, komitə və digər hakimiyyət orqanlarının sahibkarlığın inkişafına dair qəbul etdikləri normativ – hüquqi aktlar barədə informasiyalar verilməsi və informasiya materiallarının yaradılması olduqca vacibdir.

Sahibkarlıq fəaliyyətinin hüquqi anlayışı respublikamızda ilk dəfə “Sahibkarlıq fəaliyyəti haqqında ” 1992 –ci il 15 dekabr  tarixli qanunun 1 – ci maddəsində verilmişdir. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında sahibkarlığın prinsiplərini, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Qanun 4 bölmə və 17 maddədən ibarətdir.

Qanunun I bölməsində sahibkarlıq fəaliyyəti, sahibkarlıq haqqında qanunvericilik, sahibkarlığın subyektləri, sahibkarlığın formaları və sairdən bəhs olunur. II bölmədə sahibkarların hüquq və vəzifələri müəyyən edilir, III  bölmədə sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi, xüsusi razılıq (lisenziya) tələb edən sahibkarlıq fəaliyyəti, sahibkarlığın hüquq və qanuni mənafelərinin dövlət tərəfindən müdafiəsi, sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəətdən və sahibkarın şəxsi gəlirindən

vergi tutulması və başqa prinsiplərə toxunulub. IV bölmə isə özündə sahibkarlıq fəaliyyətinin dayandırılması və ona xitam verilməsi qaydalarını özündə əks etdirir.

Sahibkarlıq fəaliyyətinin əsas məqsədi mənfəət götürülməsindən ibarətdir. İqtisadi ədəbiyyatda istehsala çəkilən xərcləri çıxarmaqla məhsulun (iş və xidmətlərin) realizə olunmasından ümumi mədaxilin bir hissəsi kimi xarakterizə olunan mənfəət sahibkarlığın əsas məqsədi olmaqla yanaşı, onun keyfiyyət xüsusiyyətləri, mühüm cəhətlərindən biridir. Əgər mənfəət əldə edilməsi şəxsin əsas məqsədi deyildirsə, deməli o, sahibkar, onun məşğul olduğu fəaliyyət isə sahibkarlıq fəaliyyəti deyildir.

Sahibkarlıq fəaliyyəti qanunvericiliklə qadağan olunmayan fəaliyyət sahələrində həyata keçirilməlidir. Belə ki, buraxılması və ya satılması qadağan olunmuş malların satılması, yaxud qadağan olunmuş işlərin (xidmətlərin) yerinə yetirilməsi, (görülməsi), eləcə də, qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədilə (məsələn, məişət kimyası məmulatları istehsalı adı ilə dərman məmulatları, yaxud narkotik vasitələri emal etmək və s.) sahibkarlıq fəaliyyətilə məşğul olunması qanunla müəyyən olunmuş qaydada məsuliyyətə səbəb olur.

Sahibkarlıq fəaliyyəti dövlət tərəfindən qeydiyyata alınmalı olan fəaliyyət sahəsidir. İstər sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər, istərsə də sahibkarlıq fəaliyyətilə məşğul olan hüquqi şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatından keçməlidirlər.

“Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 11 – ci maddəsinə əsasən, sahibkarlıq fəaliyyətinin bəzi növləri yalnız xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilir. Xüsusi razılıq (lisenziya) tələb edən fəaliyyət növlərinin siyahısı Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyənləşdirilir və Respublika Nazirlər Kabineti tərəfindən xüsusi razılıq (lisenziya) verilməsi qaydaları təsdiq olunur.

Sahibkarlıq fəaliyyəti inzibati – amirlik sisteminə əsaslanan sovet təsərrüfat mexanizmi dağıldıqdan sonra formalaşdığı kimi, həmin fəaliyyəti tənzimləyən və ölkəmizin hüquq sisteminin nisbətən müstəqil hissəsini təşkil edən hüquq normalarının məcmusundan ibarət olan sahibkarlıq hüququ da, respublikamız müstəqillik əldə etdikdən sonrakı dövrdə formalaşmış və inkişaf etmişdir.

"Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun 2 – ci maddəsində göstərilir ki, sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq Azərbaycan Respublikası Konstitusiyası, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Mülkiyyət haqqında" Azərbaycan Respublikasının qanunu və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir[1].

Sahibkarlıq haqqında qanunvericilik – sahibkarlıq fəaliyyətini hüquqi tənzimləyən normativ aktların məcmusudur. Başqa sözlə, sahibkarlıq haqqında qanunvericilik sahibkarlıq hüququnun mənbəyini təşkil edir. Respublikamız 18 oktyabr 1991 – ci il tarixində qəbul olunmuş Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktının 23 – cü maddəsində Azərbaycan Respublikasında hər cür iqtisadi fəaliyyətin bazar münasibətlərinə və sahibkarlıq azadlığına əsaslandığı göstərilmişdir.

Azərbaycan Respubilkasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktında irəli sürülmüş direktiv xarakterli həmin hüquqi prinsiplər 1995 – ci il noyabrın 12 – də keçirilən ümumxalq səsverməsi – referendumda qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında inkişaf etdirilərək hərtərəfli və geniş hüquqi həllini tapmışdır. Belə ki, Konstitusiyanın preambulasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya aktında əks olunmuş prinsiplərin əsas götürüldüyü bilavasitə bəyan olunmuşdur.

Azərbaycan Respublikası bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir (Azərbaycan Respublikası Konstitusiyasının 15-ci maddə-sinin 2-ci hissəsi). Azərbaycan Respublikası Konstitusiyasının "Azad sahibkarlıq hüququ" adlanan 59-cu maddəsində hər kəsin qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və

[1] "Sahibkarlıq Fəaliyyəti Haqqında" Azərbaycan Respublikası Qanunu

başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti, yaxud qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq hüququ göstərilir.

Azərbaycan Respublikası Konstitusiyasının 13 – cü maddəsində Azərbaycan Respublikasında mülkiyyətin toxunulmaz olması və onun dövlət tərəfindən müdafiə olunması öz əksini tapmışdır.

Konstitusiyanın 29 – cu maddəsinin 2 – ci hissəsində göstərilir ki, mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Sahibkarların, eləcə də iqtisadi dövriyyənin digər subyektlərinin öz hüquqlarının müdafiəsi üçün məhkəmə təminatı Azərbaycan Respublikası Konstitusiyasının 26 – cı maddəsi, 29 – cu maddəsinin 4 – cü hissəsi və 60 – cı maddəsində öz əksini tapmışdır. Konstitusiyanın 73 – cü maddəsində göstərilir ki, qanunla müəyyən olunmuş vergiləri və digər dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunla göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz.

Beləliklə, bazar iqtisadiyyatının zəruri elementi olan sahibkarlıq fəaliyyəti Respublikamızın sosial – iqtisadi həyatının əsasına çevrildiyindən, iqtisadi sistemin əsasını təşkil edən, ictimai istehsalın fasiləsiz inkişafı və genişlənməsi əsasında məhsulun, milli gəlirin və milli sərvətin artırılması vasitəsi ilə cəmiyyətin rifahının yüksəldilməsində özünü göstərir. Bu isə iqtisadi tərəqqinin yeganə sınanmış yolu olan sahibkarlıq fəaliyyətinin və bazar münasibətlərinin Respublikamızın əsas qanunu olan Konstitusiyamızda və digər qanunvericilik aktlarında tam və hərtərəfli surətdə tənzimlənməsinin aktuallığını şərtləndirir.

Öz hüquqi qüvvəsinə görə Azərbaycan Respublikası Konstitusiyası və referendumla qəbul olunan aktlar istisna olmaqla, qanunlardan və qanunvericilik sisteminə daxil olan digər normativ aktlardan daha yüksəkdə duran beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsində, eyni zamanda bu fəaliyyətin hüquqi forması olan müqavilə münasibətlərinin təminində və daha etibarlı müdafiəsində mühüm rol oynayır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr Mülki Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə birbaşa tətbiq edilir. Əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilədə müəyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulmuş normalardan fərqlənərsə, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir. 1994 – cü il sentyabrın 20 – də “Əsrin müqaviləsi”nin bağlanması ilə Azərbaycan Respublikası faktiki olaraq, neft strategiyasının əsasını qoydu və bu tarix ölkəmiz üçün yeni neft erasının, eləcə də bütövlükdə bazar iqtisadiyyatının başlanğıcı oldu. Heç kəsə sirr deyil ki, dünyanın 15 ölkəsinin 33 iri neft şirkəti ilə Xəzərin Azərbaycan sektorunda neft çıxarılması məqsədilə imzalanan 21 neft müqaviləsi ölkəmizdə 30 il müddətində 3 milyard ton neft və 2 trilyon kub metr qaz hasil olunmasını nəzərdə tutur. 2000 – ci il mayın 26 – da Azərbaycan Milli Məclisi, həmin il mayın 31 – də Gürcüstan parlamenti və iyunun 26 – da Türkiyə Böyük Millət Məclisi bu beynəlxalq müqaviləni rotifikasiya etdi.

Neft sənayesində əldə olunmuş müvəffəqiyyətlər, eləcə də respublikamızda xarici iqtisadi, o cümlədən ticarət əlaqələrinin liberallaşdırılması və genişləndirilməsi, bu sahədə bazar iqtisadiyyatı tələblərinə cavab verən müasir hüquqi baza və hüquqi tənzimləmə qaydalarının yaradılmasını zəruri etmişdir.

Xarici iqtisadi fəaliyyətlərin genişləndiyi şəraitdə həmin münasibətlərin hüquqi tənzimlənməsində, xarici iqtisadi fəaliyyət sahəsində kifayət qədər təcrübəsi olmayan sahibkarlarımızın geniş təcrübəyə malik xarici firmalar, şirkətlərlə ticarət əlaqələrində mənafelərinin daha etibarlı surətdə qorunmasında bu sahədə sahibkarlıq fəaliyyətinin normativ hüquqi əsası olan qanunvericilik aktları, eləcə də ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr və konvensiyalar mühüm əhəmiyyət kəsb edir.

Ümumdünya təcrübəsi göstərir ki, bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətini tənzimləyən qanunvericilik aktları, adətən, vahid Mülki Məcəllənin prinsiplərinə və normalarına əsaslanır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 13-cü maddəsində sahibkarlıq fəaliyyətinə anlayış verilərək, onun şəxsin müstəqil surətdə, öz riski ilə həyata

keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlərin görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyət olduğu göstərilmişdir.

Mülki Məcəllədə sahibkarlıq fəalyyətinin dəstəklənməsi, sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaradılması və mülki dövriyyənin təmin edilməsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin başlıca vəzifələri kimi xarakterizə olunur. Həmçinin Məcəllədə sahibkarlıq fəaliyyətilə məşğul olan şəxslərin hüquqi fəaliyyət qabiliyyətinin xüsusiyyətləri, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olan yetkinlik yaşına çatmamış şəxslərin tam fəaliyyət qabiliyyətli sayılmasının əsasları və s. öz əksini tapmışdır.

İnvestisiyanın hüquqi anlayışı ölkəmizdə investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirən "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun 1-ci maddsində verilmişdir. Qanuna əsasən, investisiya gəlir və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.

Azərbaycan Respublikası "İnvestisiya fəaliyyəti haqqında" qanununun 2-ci maddəsinə əsasən, investisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərin məcmusudur. Həmçinin, ölkə ərazisində xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsipləri "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının 1992-ci il tarixli qanunu ilə müəyyənləşdirilir. Qanun iqtisadiyyata xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnikanın və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb olunmasına, bunlardan səmərəli istifadə edilməsinə yönəlmiş və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir.

"Xarici investisiyanın qorunması haqqında" qanunun 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya qoyuluşu şəraitini pisləşdirdikdə on il ərzində xarici investisiyaya investisiyanın qoyulduğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir. Bu müddəa müdafiənin, milli təhlükəsizliyin və ictimai qaydanın təmin olunması, kredit və maliyyə, ətraf mühitin,

əhalinin əxlaq və sağlamlığının mühafizəsi barəsində qanunvericiliyin dəyişdirilməsinə şamil edilmir.

Xarici investorlar dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin Azərbaycan Respublikası qanunvericiliyinə zidd olan hərəkətləri nəticəsində düşdükləri zərərin, o cümlədən itirdikləri faydanın ödənilməsi hüququna malikdirlər. Kompensasiya və zərərin ödənilməsi məbləğləri, bunun ödənilməsi müddətləri və qaydası haqqında mübahisələr məhkəmədə, habelə tərəflərin sazişi və ya Azərbaycan Respublikasının beynəlxalq müqaviləsi ilə nəzərdə tutulmuş hallarda münsiflər məhkəməsində həll olunur ("Xarici investisiyanın qorunması haqqında" qanunun 12-ci maddəsi).

İnhisarçılıq bazar iqtisadiyyatı şəraitində böyük biznesin psixologiyasında xüsusi yer tutur. Belə ki, əsas məqsədi mənfəət götürülməsindən, həm də mümkün qədər daha çox mənfəət götürülməsindən ibarət olan sahibkarlıq fəaliyyəti, şübhəsiz ki, inhisarçılığa meyllənir və bu müəyyən mənada obyektiv xarakter alır. Odur ki, dövlət müxtəlif vasitə və metodlarından istifadə etməklə inhisarçılığa qarşı daim mübarızə aparmalı, bu məqsədlə inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılmasının təşkilati və hüquqi əsaslarını müəyyənləşdirməlidir.

Ümumiyyətlə, Azərbaycanda antiinhisar siyasəti antiinhisar qanunvericiliyinə daxil olan qanun və normativ aktlar əsasında həyata keçirilir. Bu sırada 4 mart 1993-cü il tarixli "Antiinhisar fəaliyyəti haqqında", 12 mart 1999-cu il tarixli "Təbii inhisarlar haqqında", 2 iyun 1995-ci il tarixli "Haqsız rəqabət haqqında", 19 sentyabr 1995-ci il tarixli "İstehlakçı hüquqlarının müdafiəsi haqqında" qanunlar xüsusi rol oynayırlar.

Ölkədə inhisarçı fəaliyyətin məhdudlaşdırılması və aradan qaldırılmasının təşkilatı-hüquqi əsasları "Antiinhisar fəaliyyəti haqqında" qanunla müəyyən edilir. Qanun iqtisadi fəaliyyətlə məşğul olan əksər fiziki və hüquqi şəxslərə şamil olunur.

Qanunda inhisarçı fəaliyyətin aşağıdakı növləri öz əksini tapmışdır:

1. Dövlət inhisarçılığı;

2. Sahə inhisarçılığı;

3. Yerli inhisarçılıq;

4. Təsərrüfat subyektlərinin inhisarçılığı;

5. Maliyyə - kredit inhisarçılığı;

6. Bazar subyektlərinin üfüqi və şaquli birləşməsi nəticəsində meydana çıxan inhisarçılıq;

7. Təbii inhisar;

8. Patent-lisenziya inhisarçılığı.

Ümumi şəkildə götürsək antiinhisar siyasəti inhisarçı fəaliyyətə nəzarət → məhdudlaşdırma → aradan qaldırmaq xətti üzrə həyata keçirilir.

İlkin olaraq antiinhisar nəzarətinin çıxış nöqtəsi təsərrüfat subyektlərinin birləşməsi, qovuşması nəticəsində meydana çıxan hegemon mövqe hesab olunur.

Qanunvericiliyə uyğun olaraq, hegemon mövqe birləşən təsərrüfat subyektlərinin müvafiq mal bazarında payı 35%-dən yaxud onların aktivlərinin ümumi dəyəri minimum əmək haqqı məbləğinin 75 min mislindən çox olduqda formalaşmış hesab olunur. Bu baxımdan ümumi aktivlərinin dəyəri minimum əmək haqqının 50 min mislindən çox olan müəssisələrin ləğvi, eləcə də həmin müəssisələrin bölünməsi üzərində də antiinhisar nəzarətinin təşkil olunması nəzərdə tutulmuşdur.

Antiinhisar qanunvericiliyi Azərbaycan Respublikasının bütün ərazisində fəaliyyət göstərir və bütün hüquqi və fiziki şəxslərə şamil edilir, təsərrüfat subyektlərinin, icra hakimiyyəti və idarəetmə orqanlarının xarici ölkələrin fiziki və hüquqi şəxsləri ilə bağladıqları sazişlərin və müqavilələrin milli bazarda rəqabətin məhdudlaşdırılmasına gətirib çıxardığı hallarda da tətbiq edilir, lakin təsərrüfat subyektlərinin ixtira, ticarət nişanları və müəlliflik hüquqlarından irəli gələn münasibətlərinə, onların bu hüquqlardan qəsdən rəqabəti məhdudlaşdırmaq məqsədi ilə istifadə etməsi halları istisna olmaqla, şamil edilmir. İqtisadiyyatın idarə edilməsinin tədricən dəyişməkdə olduğu və inzibati-amirlik üsulunun iqtisadi fəaliyyət sahəsindəki təsirinin zəiflədiyi müasir dövrdə respublika iqtisadiyyatının inkişaf etmiş ölkələrdə olduğu kimi vergilər vasitəsilə tənzimlənmə mexanizmi mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Vergilər dövlətin iqtisadi rolu ilə üzvü

surətdə bağlı və büdcəni formalaşdırmaqda dövlətin əlində qüdrətli bir silahdır. Vergilər dövlətin əsas və başlıca gəlir mənbəyi olmaqla, hesablamalara görə dövlət büdcəsinin gəlirinin 80 faizini təşkil edir. Vergilər bir tərəfdən dövlət büdcəsini maliyyə ehtiyatları ilə təmin edirsə, digər tərəfdən istehsal xərclərinin formalaşmasını tənzimləyir.

Azərbaycan Respublikasının müasir vergi qanunvericiliyi əsaslı iqtisadi dəyişikliklər və bazar münasibətlərinə keçid dövrü olan 1991-1992-ci illərdən başlayaraq təşəkkül tapmışdır. Ölkənin vergi qanunvericiliyinin qısa müddət ərzində qurulmasını zəruri edən əsas şərtlərdən biri də 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi nəticəsində büdcənin gəlir hissəsini formalaşdırmaq zərurəti idi. 1991-ci ilin sonuna kimi əsas vergi qanunları-mənfəət vergisi, əlavə dəyər vergisi, aksizlər və s. haqqında qanunlar qəbul edildi. Bu illər ərzində bazar münasibətləri inkişaf etdikcə vergi qanunvericiliyində əsaslı dəyişikliklər aparılmış, respublikanın vergi qanunvericiliyi inkişaf etmiş ölkələrin vergi qanunvericiliyinin səviyyəsinə çatdırılması sahəsində ciddi işlər görülmüşdür. Bu işlərin ən əhəmiyyətlisi 2000-ci ildə qəbul edilmiş və 2001-ci il yanvarın 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsidir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir.

Ümumiyyətlə vergi hüququna aid mənbələr – xarakterinə, hüquqi qüvvəsinə, fəaliyyət dairəsinə görə müxtəlif normativ aktları özündə cəmləşdirən müəyyən bir sistemdir. Belə sistem adətən vergi qanunvericiliyi sistemi adlanır. Respublikada aparılan vergi siyasətinin başlıca istiqamətləri elmi cəhətdən əsaslandırılmış, vergi qanunvericiliyi sahəsində əsas sənəd olan Vergi Məcəlləsində öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi vergi ödəyicilərinin hüquqlarının maksimum qorunmasına yönəldilmişdir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 100 – dən artıq maddəsi bu və ya digər formada vergi ödəyicilərinin hüquqlarının qorunması və onların qanuni maraqlarının təmin olunmasına həsr olunmuşdur. Belə ki, Məcəllənin on beş maddəsində vergi qanunvericiliyinə əməl olunması sahəsində vergi ödəyicilərinin hüquqları müəyyən edilmiş, on iki maddədə vergilərin müəyyən edilməsinin və tutulmasının əsasları, səkkiz maddədə vergi yoxlamalarının aparılması ilə bağlı müddəalar, üç maddədə vergi yoxlaması keçirildikdə qanunsuz zərərin vurulmasının yolverilməzliyi, dörd maddədə vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallar, üç maddədə şikayət verilməsi qaydası təsbit olunmuşdur və s.

Həmçinin diqqətəlayiq haldır ki, Azərbaycan Respublikası Vergi Məcəlləsində vergi dərəcələrinin yalnız yüksək həddi göstərilmişdir və bazar infrastrukturu formalaşdıqca hər il Azərbaycan Respublikasının Dövlət büdcəsi haqqında Qanununun qəbulu zamanı həmin dərəcələrə yenidən baxılaraq onlar azaldıla bilər.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin müsbət cəhətlərindən biri də hər kəsin hansı vergiləri, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunun dəqiq göstərilməsidir.

## 2.3 Müasir iqtisadi hüquq nəzəriyyəsində Amerika və Avropa məktəbləri

Təkmil rəqabətli bazarların mövcudluğu üçün isə sağlam rəqabəti təmin etmək lazımdır. Bunun üçün də rəqabət hüququnu təkmilləşdirməyə ehtiyac var. Rəqabət hüququ iqtisadi fəaliyyətləri nizamlayır; ancaq rəqabət hüququnun fəaliyyət mexanizmi “hüquqi tənzimləmə” kimi adlandırılan tətbiqdən əhəmiyyətli dərəcədə fərqləndirilir. Tənzimləmə sənayeyə xas bir xüsusiyyət daşıyır; qiymətlərin nizamlı şəkildə təyin olunması, məhsul standartları yaxud bazara giriş – çıxış şərtləri ilə əlaqədardır. Rəqabət hüququ isə əksinə çox ümumi, iqtisadiyyatı bütövlükdə əhatə edən bir tətbiq sahəsinə malikdir. Rəqabət hüququ, firmalar arasındakı rəqabət

münasibətlərini müəyyən edir, cəmiyyət üçün “yaxşı” və “təsirli” çıxış yollarını tədqiq edir. İstintaqlara ancaq bu təməl rəqabət qaydalarına riayət edilmədiyi təqdirdə əl atılır.

Günümüzdə iqtisadiyyatın təbiət elmləri ilə və tətbiqi riyaziyyatla sıx əlaqəsi mövcuddur. Lakin buna baxmayaraq, iqtisadiyyatın hüquqla ortaq mövzuları daha çoxdur. Iqtisadi siyasət 18–ci əsrdən etibarən sərbəst bir elm sahəsi kimi formalaşmağa başladı və 20–ci əsrdə iqtisad elmi bir çox ölkədə hüquq fakultələrinin tərkib hissəsi kimi çıxış etdi.

Sonralar iqtisad elminin getdikcə daha çox analitik üsullara müraciət etməsi və riyazi vasitələrdən istifadə etməsi nəticəsində bu iki elm sahəsi bir – birindən uzaqlaşdılar. Amma iqtisadçılar hüquqi vasitələrə davamlı şəkildə müraciət edirdilər. Buna baxmayaraq hüquqşünaslar zaman – zaman iqtisadçıların istifadə etdikləri hüquq anlayışlarının boş və ya hüquq intizamından uzaq olmasından şikayət etməkdən çəkinmədilər. Iqtisadçıların cəbhəsindən baxıldıqda isə, hüquq, intizam, qayda – qanun olaraq görünür.

Son zamanlarda, əsasən də Anqlo – Sakson dünyasında getdikcə dəb halını alan Low and Economics[1], başqa sözlə desək Hüquq və İqtisadiyyat yanaşmalarında məqsəd hüquq anlayışlarını mikroiqtisadi analiz üsuluna əsaslandıraraq hüquqla iqtisadiyyat arasındakı əlaqələri qaydaya salmaqdır. Buradan isə iqtisadi baxımdan normativ, yəni optimumu təmin edən tənzimləmə vasitələrini irəli sürmək nəticəsinə gəlinir. Hüquqşünaslar üçün isə, hüquqi təhlil etmə, nəzəri fərziyyələrə deyil, real vəziyyətə əsaslanaraq nəticənin alındığı zaman həqiqidir. Bu məzmunda hüquq induksiya üsulunu seçərkən, iqtisadiyyat deduksiya üsulunu mənimsəyir.

Bütün bu üsul və yanaşma fərqliliklərinə, iqtisadçıların getdikcə daha çox riyaziyyat dilini mənimsəmələrinin yaratdığı ünsiyyətsizliyə baxmayaraq, iqtisadiyyat ilə hüquq arasında bir çox mövzuda konkret olaraq yaxın bir əlaqə olduğunu günümüzün iqtisadçıları qəbul edirlər. Hər şeydən əvvəl müasir iqtisadi həyatın bəzi təməl qaydalarını təyin etmək üçün hüquqa müraciət etmənin qaçınılmaz olduğunu

[1] Ege Cansen: İktisadi hukuk veya hukuki iktisat// Hürriyet, 2006, 2

artıq iqtisadçılar bilir. Bunların içində ən ön sırada müqavilə və mülkiyyət anlayışları gəlir. Müqavilə və mülkiyyət münasibətləri, yalnız iqtisadiyyat çərçivəsində təyin olunması mümkün olmayan anlayışlardır. Müqavilədəki mövcud sanksiyaların tətbiq oluna bilməsi yalnız iqtisadiyyatdan başqa bir gücün mövcudluğu ilə ola bilər. Elə bu səbəbdəndir ki, sağlamlıq, təhsil, hətta təhlükəsizlik xidmətlərinin bazara çıxarılıb, alınıb satılmasını müdafiə edən liberal iqtisadçılar belə, hüququn tamamilə bazar şərtlərində fəaliyyət göstərməsinin sadəcə hüququ aradan qaldırmayacağını, həmçinin bazarı da işləməz hala gətirəcəyini qəbul edirlər.Həbsxanaların və polisin özəlləşdirilməsini müdafiə edən ultra – liberal iqtisadçılara rast gəlinsə də, məhkəmənin özəlləşdirilməsini müdafiə edən iqtisadçılara hələlik rast gəlinməyib.

Əsasən, bazardan xaricdə qalan hüquq nizamı, bazarın varlıq şərtlərindən birini meydana gətirir. Beləliklə də, bazar sisteminin yalnız şəkildə mövcud ola bilməyəcəyinin ən güclü dəlillərindən birini təqdim edir. Müqavilə üçün etibarlı olan,mülkiyyət üçün də etibarlıdır.

Son zamanlar Avropa Ədalət Məhkəməsi, daha da inkişaf etmiş iqtisadi analiz ehtiyacını davamlı şəkildə ön plana çıxarmaqda, Avropa Komissiyası da bunun qarşılığında rəqabət hüququ və siyasətinə bağlı iqtisadi analizlərdən istifadə imkanlarını inkişaf etdirib, iqtisadi analizlər mövzusuna getdikcə daha çox diqqət ayırmaqdadır. Məsələn, Avropa Komissiyasının inhisarçılığın qarşısının alınmasına istiqamətlənmiş birləşmənin idarəsi haqqındakı yeni siyasət sənədləri, Avropa Ədalət Məhkəməsinin iqtisadi nəzəriyyə standartlarının daha yetərli bir şəkildə tətbiqi mövzusundakı tənqidlərini əks etdirməkdədir. Bu istiqamətdə Avropa Komissiyası tərəfindən:

a) Gizli sözləşmə (collusion);
b) Tək tərəfli təsirlər;
c) Eyni məhsul istehsal edən müəssisələrin birləşdirilməsi;
d) Şaquli və konqlomerat birləşmələrin təsirləri mövzularında iqtisadi nəzəriyyə imkanlarına bağlı bir silsilə mütəxəssis hesabatı sifariş verilmişdir.

Iqtisadi fikirlərin Avropa rəqabət hüququ ilə müqayisədə ABŞ antitrest hüququ üzərində uzun müddət daha təsirli olduğu görülməkdədir. Avropalı rəqabət hüquqşünaslarının iqtisadi qanunlarla, tezislərlə sıx əlaqəsi, Amerikalı həmkarları ilə müqayisədə daha məhdud qalmışdır. Avropada xüsusilə  rəqabətin məhdudlaşdırılmasına qarşı açılan iddialarda iqtisadi qiymətləndirmələrin qanuni müdafiəsi olaraq qəbul edilməsinə qarşı bir müqavimət mövcuddur. Halbuki, Avropa Ədalət Məhkəməsi, yetərli iqtisadi analizin olmaması vəziyyətinin rəqabət hüququ tezislərini təməldən sarsıdacağını  hələ 1969 – cu il kimi erkən tarixdə istifadə etmişdir. Ədalət Məhkəməsi ayrıca, rəqabət hüququ çərçivəsindəki bütün razılaşmaların hüquqi və iqtisadi məzmunları ilə qiymətləndirilmələrini zəruri tutaraq iqtisadi analizin önünü açmışdır.

# III FƏSİL. DÖVLƏTİN İQTİSADİYYATA MÜDAXİLƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1 İqtisadiyyatın hüquqi tənzimlənməsi mənbələrinin formalaşdırılması və reallaşdırılması prosedurlarının təkmilləşdirilməsi istiqamətləri

Ölkədə sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynayan amillərdən biri bəzi sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılmasıdır. Son illər bu sahədə bir sıra işlərin görülməsinə baxmayaraq, hələ də sahibkarlığın inkişafına mane olan hallar tam aradan qaldırmamışdır. Belə ki, mövcud lisenziyalaşdırma sistemi xüsusi icazə verən dövlət orqanları tərəfindən sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara təzyiq vasitəsinə çevrilmiş, bəzi hallarda isə rüşvətxorluğun yayılmasına şərait yaratmışdır.

Dövlət həmçinin investisya fəaliyyətinə mənfi təsir göstərə biləcək bir çox təsərrüfat fəaliyyəti ilə əlaqədar olan, vergi yoxlaması və s. müxtəlif nəzarət tədbirləri çərçivəsində keçirilən yoxlamaların sayının azaldılması istiqamətində də mühüm addımlar atmışdır. Məsələn, AR Vergi Məcəlləsinə uyğun olaraq vergi yoxlaması həmin yoxlamanın keçirildiyi il də daxil olmaqla vergi ödəyicisinin 3 təqvim ilindən çox olmayan fəaliyyətini əhatə edə bilər. Vergi yoxlaması keçirildikdə, vergi ödəyicisinə və ya onun sahibliyində, istifadəsində və sərəncamında olan əmlaka qanunsuz olaraq zərər vurulmasına yol verilmir.Vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə vergi yoxlaması keçirildikdə, vurulan ziyan tam həcmdə, buraxılmış fayda da daxil olmaqla vergi ödəyicisinə ödənilməlidir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra iqtisadiyyatın sürətli inkişafı qarşıya məqsəd qoyulmuşdur. Bunun üçün ölkəmiz bir çox tədbirlərə əl atmalıdır. Ən önəmli tədbirlərdən biri isə iqtisadiyyatın ayrı – ayrı sahələrinin inkişafını nəzərdə tutan qanunvericilik bazalarının formalaşdırılması, təkmilləşdirilməsidir. Ölkəmiz müstəqillik qazandıqdan bəri investisiya muhitinin əlverişli olmadığından mövcud qanunlar daima təkmilləşdirilməyə məruz qalmışdır. Bu zaman əsas diqqət investorları daha çox narahat edən gəlirliliyin təmin olunması və risklərin

minimuma endirilməsinə yonəldilmişdir. “İnvestisiya fəaliyyəti haqqında” AR Qanunu 1995-ci ildə qəbul olunduqdan sonra qanuna 23 mart 2001-ci ildən 9 mart 2004-cu ilə qədər 7 dəfə olmaqla 14 əlavə və dəyişiklik edilmişdir. “Xarici investisiyanın qorunması haqqında” AR Qanununa isə qəbul olunduğu 15 yanvar 1992-ci ildən bu yana 5 noyabr 1996-cı ildən başlayaraq 10 iyun 2005-ci ilə qədər 7 dəfə olmaqla 21 əlava və dəyişikliklər edilmişdir. “İnvestisiya fondları haqqında” AR Qanununa (1999) 2001-2005-ci illər arasında 3 dəfə əlavə və dəyişikliklər edilmişdir.

Ölkədə 240-dan çox fəaliyyət növünün  xüsusi icazə əsasında fəaliyyəti və lisenziyanın qısa müddətə verilməsi, faktiki olaraq, sahibkarlığın inkişafına, iqtisadiyyata investisiya qoyuluşu prosesinə mənfi təsir etmiş, sağlam rəqabət mühitinin formalaşması və istehlakçıların hüquqlarının qorunması sahəsində dövlət siyasətinin gerçəkləşdirilməsi yolunda inzibati-bürokratik əngələ çevrilmişdir. Bu problemlərin aradan qaldırılması üçün AR Prezidenti 2 sentyabr 2002-ci ildə “Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında” fərman vermişdir.

Sahibkarlıq sahəsində dövlət investorlar üçün müəyyən şərtlərin təminatçısı rolunda çıxış edir. İnvestor Azərbaycan Respublikasında AR Mülki Məcəlləsinin 4-cü fəsilində göstərilən istənilən hüquqi şəxsin yaradılmasında iştirak edə bilər. “Sahibkarlıq fəaliyyəti haqqında” AR Qanununa əsasən Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin xarici dövlətlərin ərazisindəki sahibkarlıq fəaliyyəti sahəsində hüquq və mənafelərinin müdafiəsinə Azərbaycan dövləti təminat verir. Sahibkarın hüquqlarını pozan dövlət orqanlarının və ya digər orqanların, yaxud onların vəzifəli şəxslərinin fəaliyyəti nəticəsində, habelə sahibkar barəsində qanunvericilikdə nəzərdə tutulmuş vəzifələrin həmin orqanlar və ya vəzifəli şəxslər tərəfindən yarıtmaz yerinə yetirilməsi nəticəsində sahibkara dəyən zərərin, o cümlədən əldən çıxan gəlirlərin əvəzini mülki qanunvericilikdə nəzərdə tutulmuş qaydada həmin orqanlar və vəzifəli şəxslər ödəməlidirlər. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallar istisna edilməklə sahibkarın əmlakı toxunulmazdır.

Ölkədə kiçik sahibkarlığın zəif inkişaf etdiyinə görə bu problemin həll olunması böyük önəm daşıyır. Kiçik sahibkarlığa kömək tədbirləri sahibkarlığın, dövlət regional və sahə kömək proqramları çərçivəsində həyata keçirilir. Buna misal olaraq 2002 – 2005-ci illər üçün qəbul olunmuş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı" qəbul olunmuşdur. Programın məqsədi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, kiçik və orta sahibkarlığın insan resursunun inkişafı, texniki, maliyyə köməyi mexanizmlərinin dərinləşdirilməsi, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması əsasında kiçik və orta sahibkarlığın inkişafını təmin etməkdir. Kiçik sahibkarlığa dövlət tərəfindən maliyyə yardımları da oluna bilər. Kiçik sahibkarlığa dövlət maliyyə yardımı məqsədli proqramlar çərçivəsində güzəştli kreditlər, subsidiyalar, kompensasiyalar, qrantlar, kreditlərə təminatlar verilməsi, lizinqin təşkili, sahibkarlara xidmət göstərən maliyyə-kredit qurumlarına stimullaşdırıcı tədbirlərin tətbiqi formasında həyata keçirilir.

Ölkədə investisiyanın inkişafı proqramlarının hazırlanması və reallaşdırılmasına cavabdeh olan dövlət orqanları İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət investisiya kompaniyaları və investisiya fondlarıdır. 2007 – 2010-cu illər üçün İqtisadi İnkişaf Nazirliyi tərəfindən Dövlət İnvestisiya Proqramının Layihəsi işlənib hazırlanmışdır. Bu il İqtisadi İnkişaf Nazirliyi Dövlət İnvestisiya Proqramını daha da təkmilləşdirmək və onu 2007 – 2010-cu illər üzrə Dövlətin milli və sektor inkişafı məqsədləri və prioritetlərinin formalaşdırılması və icrası üçün effektiv siyasət aləti kimi istifadə etmək istəyir. Qüvvədə olan və hazırlanan Milli proqramlara uyğun olaraq 2007 – 2010-cu illərdə Azərbaycan Hökuməti milli prioritetlər kimi dövlət investisiyalarını aşağıdakı istiqamətlərə yönəltməyi məqsədəuyğun hesab edir:

- Sosial sahələrin inkişafını təmin edən sahələr;
- Qeyri neft sektorunu dəstəkləyən və özəl sektorda investisiya qoyuluşları üçün şərait yaradan infrastruktur layihələr;
- Regionlar arasında sosial – iqtisadi bərabərsizliyin aradan qaldırılmasına yönəldilən regional və ya regionlararası layihələr;

- Işçi qüvvəsinin intensiv iştirakını (daha çox iş yerlərini yaradan)tələb edən layihələr.

Eyni zamanda, Hökumət kommersiya sahələrinə investisiya qoyuluşundan çəkinərək belə layihələrə özəl investorların cəlb olunmasını dəstəkləyəcək 2007 – 2010-cu illər üzrə Dövlət İnvestisiya Proqramında aşağıdakı sahələrdəki layihələrə üstünlük veriləcəkdir:

- Təhsil;
- Səhiyyə;
- İnfrastruktur;
- İrriqasiya.

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlardan biri də vergi sisteminin, həmçinin onun qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində olmuşdur.

Vergi qanuvericiliyinin təkmilləşdirilməsi zərurəti onunla əlaqədar idi ki, əsası hələ keçmiş sovet dövründə qoyulmuş mövcud vergi sistemi yeni iqtisadi şəraitə tam uyğun gəlmirdi. Qanunvericilikdə mövcud olan sistemsizlik, habelə bu qanunvericiliyə edilmiş çoxsaylı əlavə və dəyişikliklər, qanunlar, təlimatlar və digər normativ – hüquqi sənədlər arasında olan ziddiyətlər vergi qanunvericiliyini mürəkkəbləşdirmiş və onda müəyyən boşluqların yaranmasına gətirib çıxartmışdı. Bu da öz növbəsində vergidən yayınma hallarının artması, vergilərin vaxtlı vaxtında ödənilməməsi və s. kimi neqativ hallarla nəticələnirdi.

Elə məhz bu səbəblərdən də, həyata keçirilən məqsədyönlü fəaliyyət nəticəsində qısa müddətdə beynəlxalq standartlara və həmçinin, ölkənin iqtisadi şəraitinə uyğun sənəd – Azərbaycan Respublikası Vergi Məcəlləsi qəbul olunmuşdur. Lakin bildiyimiz kimi, tam ədalətli vergi məsələlərinin bütün incəliklərini özündə birləşdirən vergi sisteminin, vergi qanunvericliyinin yaradılması demək olar ki, hələ dünyanın heç bir ölkəsinə müəssər olmamışdır.Bu baxımdan ölkəmiz də istisna olmadı. Belə ki, Vergi Məcəlləsinin tətbiqi prosesi göstərdi ki, bizim vergi qanuvericiliyimizdə də bəzi boşluq və ziddiyyətlər var və Məcəlləyə müəyyən dəyişikliklər və əlavələr olunmasına ehtiyac duyulur. Ona görə də 16 noyabr 2001 –

ci il tarixdə ölkə prezidenti tərəfindən "Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmış və bu qanun 2002 – ci ilin yanvarın 1 – dən qüvvəyə minmişdir. Həmin dövrdən başlayaraq, indiyə kimi mütəmadi olaraq Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə fərmanlar verilmiş və bu fərmanlara uyğun olaraq qanunvericilikdə müvafiq düzəlişlər edilmişdir.

Bütün bunlardan əlavə vergi qanunvericiliyinə aşağıdakı istiqamətlərdə dəyişikliklərin edilməsi də məqsədəuyğun hesab edilir:

a) Vergi və gömrük qanunvericiliyinin təkmilləşdirilməsi həyata keçirilməlidir. Vergi inzibatçılığını tənzimləyən mühüm qanun müddəaları Vergi Məcəlləsinə salınmalı, qanunvericiliyi təkmilləşdirilməli və Gömrük Məcəlləsində gömrük prosedurları sadələşdirilməlidir.

b) Qeydiyyatdan yayınan sahibkarlar, qeydiyyata alınmalı və vergilərin, sosial sığorta haqlarının yığım səviyyəsi yüksəldilməlidir.

c) Sahibkarlar üçün ən vacib məsələlərdən biri olan gəlir vergisinin aşağı salınması imkanları araşdırılmalı və tətbiq edilməlidir. Bundan başqa mənfəət vergisinin azaldılması, gömrük rüsumlarının səviyyəsi təhlil edilməlidir.

d) Vergi və gömrük sistemində idarəetmə potensialının və şəffaflığın artırılması həyata keçirilməlidir. Bu orqanlarda çalışan işçilərin peşəkarlığı artırılmalı, beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilməli, beynəlxalq təcrübə öyrənilməli və uyğun formada tətbiq edilməlidir. Vergi ödənişi intizamını gücləndirmək, vergilərin yığım səviyyəsini yüksəltmək və vergilərin yığılması üzrə xərcləri minimuma endirmək üçün Vergilər Nazirliyi öz təşkilatı strukturunda və fəaliyyətində islahatların artırılmasını davam etdirməli və vergi mütəxəssislərinin potensialı kurslar vasitəsilə artırılmalıdır. Gecikmiş daxilolmaların və borcların yığılması üzrə müasir və sistemləşdirilmiş iş üsulları tətbiq olunmalıdır.

e) Sosial sığorta ayırmaları dərəcəsinin aşağı salınması:

Müşahidələr göstərir ki, bir çox müəssisələr sosial sığorta ayırmalarından yayınmaq üçün işçilərin sayını az göstərirlər və ya bir qism işçinin əmək haqqlarını olduğundan xeyli dərəcə aşağı göstərirlər ki, az sosial sığorta versinlər.

f) Dövlət büdcəsi xərclərinin sağlamlaşdırılmasına dair proqramın hazırlanması:

Büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin sayını müəyyənləşdirməli, əməyin səmərəli təşkilini təmin etməli, büdcədən maliyyələşən təşkilatların fəaliyyətlərini təmin edən zəruri xərclərin təhlili aparılmalı və büdcə vəsaitlərinin bölgüsünün təkmilləşdirilməsinə dair proqram hazırlamalıdır. Həmçinin, iqtisadi inkişafın intensivliyini artırmaq üçün büdcə prosesinin təkmilləşdirilməsinə də ehtiyac var. Büdcə prosesinin həyata keçirilməsi üçün fiskal siyasətdən istifadə olunur. Fiskal siyasətin istiqamətləri aşağıdakılardır:

a) Fiskal siyasətin əsas istiqamətlərindən biri və ən vacibi büdcə prosesinin təkmilləşdirilməsi vasitəsilə büdcə proqnozlaşdırılmasının və büdcə xərclərinin səmərəliliyinin artırılmasıdır. Bunun üçün dövlət beynəlxalq standartlara cavab verən büdcə qanunvericiliyinin təkmilləşdirilməsi axıra çatdırılmalıdır. Bundan başqa büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin dövlət büdcəsinə daxil edilməsi təkmilləşdirilməlidir.

b) Yoxsulluğun azaldılmasına yönəldilən xərclərin səmərəliliyini təmin edən uzunmüddətli planlaşdırma perspektivinə müvafiq olaraq orta müddətli icmal büdcə proqnozlarının hazırlanması fiskal siyasətin tərkib hissələrindəndir. Burada müvafiq təşkilatlar tərəfindən yoxsulluğun azaldılması üzrə tədbirlərə dair hesablamalar aparılmalı və müvafiq orqanlara təqdim olunmalıdır. Dövlət hesabında olan resursların ümumi hesabatı aparılmalıdır.

c) Yerli özünü – idarəetmə orqanlarının dövlət büdcəsindən asılılığını azaltmaq üçün yerli büdcə gəlirlərinin artırılmasına dair fəaliyyət planı hazırlanmalıdır.

Beləliklə, yuxarıda qeyd olunanlar ona əsas verir ki, hər bir dövlətin hüquq sisteminə uyğun olaraq hüquqyaratma proseduru vardır. Bununla yanaşı, maraq doğuran məsələlərdən biri də iqtisadi münasibətləri tənzimləyən dövlət qurumlarının qarşılıqlı fəaliyyətidir. Odur ki, dissertasiya işinin növbəti paraqrafında müvafiq məsələlər araşdırılacaq.

## 3.2 İqtisadiyyatın tənzimlənməsini reallaşdıran dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin effektiv əlaqələndirilməsi

Bazar iqtisadiyyatına xas olan özəlliklərdən biri də iqtisadiyyata dövlətin müdaxiləsidir. Hər bir iqtisadi fəaliyyət sahəsinin özünəməxsus xüsusiyyətləri mövcuddur ki, bu da hər bir fəaliyyət sahəsinin müəyyən dövlət qurumları tərəfindən nəzarətini zəruri edir. Iqtisadi münasibətlər müxtəlif iqtisadi fəaliyyət sahələrində meydana gəlir. Azərbaycan Respublikasının dövlət büdcəsinin tərtibi, reallaşdırılması zamanı yaranan iqtisadi münasibətləri aidiyyatı dövlət qurumları tərəfindən tənzimlənir. Həmçinin Azərbaycan Respublikasında iqtisadi fəaliyyəti tənzimləyən zaman dövlət qurumları arasında da qarşılıqlı fəaliyyət meydana gəlir. Büdcə layihəsinin tərtib edilməsi ilin 6 ayından çox bir müddəti əhatə edir. Bu dövr büdcə qanunvericiliyinə görə fevral ayının 1-dən sentyabrın 25-nə qədər olan müddəti nəzərdə tutur. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 2 iyul 2002-ci il tarixli Qanununun 11 – 15- ci maddələri dövlət büdcəsinin tərtibi, baxılması və təsdiqi mərhələsi zamanı müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətləri və vəzifələrini qanunvericiliklə müəyyən edir. Bu dövrdə, növbəti büdcə ili üzrə dövlət büdcəsi layihəsinin tərtibi üçün lazım olan iqtisadi və sosial proqramların və proqnozların hazırlanması barədə əsaslandırılmış sənədlər Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən müəyyən edilən müddətdə və qaydada hazırlanaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilməlidir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının maliyyə siyasətini işləyib hazırlayan və həyata keçirən, dövlət maliyyəsinin idarə olunmasını təşkil edən, dövlət və yerli büdcələrin layihələrini hazırlayan, dövlət borcunun idarə edilməsi, mühasibat uçotunun təşkili və aparılması sahələrində dövlət tənzimlənməsinin, dövlət büdcəsi vəsaitindən istifadə üzərində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır. Maliyyə Nazirliyi sisteminə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi, rayon (şəhər) üzrə maliyyə idarələri (şöbələri), Mərkəzi Orqanlar üzrə Xəzinə İdarəsi, Dövlət Əyar Palatası, Məlumat–Hesablama Mərkəzi, Maliyyə Elm–Tədris Mərkəzi daxildir.

Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tutur.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyət sahəsi müxtəlifdir. Belə ki, Maliyyə Nazirliyi Azərbaycan Respublikasının maliyyə, büdcə, vergi sahəsində dövlət siyasətini işləyib hazırlayır, dövlət və yerli büdcələrin layihələrinin mövcud qanunvericiliyə uyğun olaraq hazırlanmasını təmin edir, qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət büdcəsinin icrasını təmin edir, dövlət büdcəsindən ayrılan vəsaitlərin və dövlət zəmanəti ilə alınan kreditlərin təyinatı üzrə xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təşkil edir, dövlət borcunun idarə edilməsini və dövlət zəmanətinin verilməsini təşkil edir, dövlət borclanma siyasətini işləyib hazırlayır və həyata keçirilməsini təmin edir. Bundan başqa, Maliyyə Nazirliyi Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi sahəsində dövlət siyasətini işləyib hazırlayır və həyata keçirilməsi üzrə öz səlahiyyətləri daxilində tədbirlər görür, Azərbaycan Respublikasında audit fəaliyyəti sahəsində dövlət siyasətini işləyib hazırlayır, dövlət investisiya proqramlarının tərtib olunmasında, dövlət investisiya siyasətinin, dövlət proqramlarının hazırlanmasında və həyata keçirilməsində qanunvericiliklə müəyyən edilmiş qaydada iştirak edir, ölkədə maliyyə bazarının inkişafı, iqtisadiyyata xarici və daxili kreditlərin cəlb edilməsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsini və s. təmin edir.

Dövlət büdcəsinin layihəsinin tərtib olunması işinə Azərbaycan Respublikası Nazirlər Kabineti müəyyən idarə və təşkilatları da cəlb edə bilər.

Dövlət büdcəsi layihəsi ilə birlikdə bir sıra mühüm sənədlər də hazırlanır. Onlar bir qayda olaraq, dövlət büdcəsinin icra edilməsi ilə bağlı olduğu üçün hazırlanır. Həmin sənədlərin siyahısı 2 iyul 2002-ci il tarixli "Büdcə sistemi

haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində öz əksini tapmışdır. Bunlar:

- cari ilin dövlət büdcəsinin icrasının vəziyyəti barədə hesabat;
- növbəti büdcə ili üzrə Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanun layihəsi;
- Azərbaycan Respublikasının növbəti büdcə ili üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri;
- dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli proqramlar;
- büdcə və vergi siyasətinin əsas istiqamətləri;
- Azərbaycan Respublikasının ərazi üzrə Vahid (Toplu) Maliyyə Balansı;
- dövlət büdcəsinə daxil olmayan məqsədli dövlət fondlarının büdcələri haqqında qanun layihələri;
- büdcə təsnifatına uyğun olaraq növbəti büdcə ili üzrə dövlət büdcəsinin gəlirlərinin və xərclərinin məbləğləri;
- dövlət borcları və dövlət zəmanəti ilə digər öhdəliklərə dair məlumat;
- növbəti il üzrə icmal büdcənin layihəsi;
- Azərbaycan Respublikası prezidenti tərəfindən müəyyən edilən digər sənədlər.

Ümumiyyətlə, Respublika Nazirlər Kabineti və Maliyyə Nazirliyi tərəfindən hazırlanmış sənədlər sentyabrın 25-nə qədər Azərbaycan Respublikasının prezidentinə baxılmaq üçün təqdim olunur. Qeyd etmək lazımdır ki, Respublika prezidenti tərəfindən müvafiq sənədlərə baxılarkən, əlavə sənədlər tələb oluna bilər, yaxud da büdcə layihəsi üzərində yenidən işlənilməsi vacib sayıldıqda, geri qaytarıla bilər.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi digər sənədlərlə birlikdə oktyabrın 15-dən gec olmayaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndinə müvafiq olaraq, Azərbaycan Respublikası prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə və təsdiqinə təqdim olunur.

7 dekarb 2001-ci il tarixli “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə uyğun olaraq, Hesablama Palatası da öz növbəsində dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələrinə rəy verir.

Hesablama Palatası Milli Məclisin xüsusi orqanı olaraq, Azərbaycan Respublikasının 2 iyul 1999-cu il tarixli Qanunu ilə yaradılmışdır. Azərbaycan Respublikasının 2 iyul 1999-cu il tarixli “Hesablama Palatası haqqında” Qanununun 1-ci maddəsinə əsasən, Hesablama Palatası Milli Məclisdə daimi fəaliyyət göstərən, ona hesabat verən, ən başlıcası isə dövlət büdcəsinin icrası üzərində dövlət nəzarətini həyata keçirən bir orqandır.

Hesablama Palatası sədrdən, sədr müavinindən və 7 auditordan ibarətdir.

Hesablama Palatası sədrinin, sədr müavininin və auditorlarının səlahiyyət müddəti 7 ildir.

Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət üzrə Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinin həyata keçirilməsinə kömək etmək Hesablama Palatasının fəaliyyətinin əsasını təşkil edir.

Bu məqsədlə Hesablama Palatası aşağıdakı funksiyaları həyata keçirir:

- dövlət büdcəsinin layihəsinə rəy verir;

- dövlət büdcəsinin icrası barədə illik hesabata və müvafiq qanun layihəsinə rəy verir;

- büdcədən maliyyələşdirmələrin təsdiq olunmuş dövlət büdcəsində müəyyən edildiyi kimi aparılmasını təhlil edir və Milli Məclisə məlumat verir.

- rübdə bir dəfə dövlət büdcəsinin gəlirlərinin və xərclərinin icrası haqqında Milli Məclisə məlumat verir;

- Azərbaycan Respublikası Milli Məclisinin və onun daimi komissiyalarının tapşırığı ilə dövlət büdcəsi ilə bağlı qanun layihələrinin, Azərbaycan Respublikası Milli Məclisində təsdiq edilən Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin maliyyə ekspertizasını keçirir;

- dövlət büdcəsi vasitələrinin xəzinə hesabına daxil olmasının və istifadəsinin təsdiq olunmuş dövlət büdcəsində müəyyən edilmiş göstəricilərə uyğunluğunu təhlil edir və Milli Məclisə məlumat verir;

- Azərbaycan Respublikasının Mərkəzi Bankından və müvəkkil kredit təşkilatlarından dövlət büdcəsinin gəlir və xərclərinin bank hesablarında hərəkəti barədə məlumat alır, təhlil edir və təkliflər verir;

- Hesablama Palatası digər dövlət nəzarəti orqanları ilə qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir.

Hesablama Palatası fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasında Konstitusiyası, "Hesablama Palatası" haqqında Azərbaycan Respublikasının qanunu, Azərbaycan Respublikasının digər qanunları və Hesablama Palatasının Daxili Nizamnaməsi təºkil edir.

Hesablama Palatası dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələrinə rəy verdikdən sonra, qanun layihəsi Milli Məclisin iclaslarına müzakirə olunmaq üçün təqdim edilir. Müzakirələr büdcənin hər bir maddəsi üzrə aparılır. Müzakirələrdə Azərbaycan Respulikası prezidentinin müəyyən etdiyi qaydada Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bank, Gömrük Komitəsi və digər dövlət orqanlarının səlahiyyətli nümayəndələri də iştirak edə bilər.

Azərbaycan Respublikasının Milli Məclisində büdcə layihəsi və digər sənədlər müzakirə edildikdən sonra, Azərbaycan Respublikasının növbəti büdcə ili üzrə "Dövlət Büdcəsi haqqında" Qanun cari ilin dekabr ayının 20-dən gec olmayaraq Milli Məclis tərəfindən təsdiq olunur.

"Dövlət Büdcəsi haqqında" Qanunla aşağıdakı əsas göstəricilər təsdiq olunur:

- büdcə gəlirlərinin ümumi məbləği;

- mədaxil mənbələri üzrə gəlirlərin məbləği;

- ayrı-ayrı vergilərdən dövlət büdcəsinə ayırmaların normativləri;

- xərclərin ümumi məbləği;

- Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən dotasiyaların, subsidiyaların, subvensiyaların məbləği;

- beynəlxalq öhdəliklər, daxili və xarici borclar üzrə ödənişlər;

- ehtiyat fondunun məbləği;
- büdcə kəsirinin yuxarı həddinin məbləği və s. göstəricilər.

Bazar iqtisadiyyatına keçid şəraitində məqsədyönlü və ardıcıl iqtisadi siyasətin həyata keçirilməsində, ölkənin iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında Vergi xidməti orqanlarının rolu durmadan artır. Bu xidmət ölkə iqtisadiyyatında bazar münasibətlərinə keçidlə əlaqədar, bu münasibətlərin tənzimlənməsində və dövlət büdcəsinin mədaxil hissəsinin formalaşmasında vergilərin rolunun artması ilə bağlı olaraq, yeni iqtisadi münasibətlər şəraitində prinsipial cəhətcə yeni vergi siyasətinin həyata keçirilməsi, dövlət büdcəsinə çatası Vergilərin və digər icbari ödənişlərin tam və vaxtında səfərbər olunması, hüquqi və fiziki şəxslər tərəfindən Vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına dövlət nəzarətinin təmin edilməsi məqsədilə 1990-cı ilin iyul ayında Respublika Maliyyə Nazirliyinin tərkibində yaradılmışdır. Sonradan, 1991-ci ilin oktyabrında Vergi qanunvericiliyinə və dövlət qiymət intizamına riayət olunmasına nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə dövlət vergi xidmətinin rolunun gücləndirilməsi, onun müstəqil fəaliyyətinin və nəzarət işlərinin obyektivliyinin təmin edilməsi məqsədi ilə bu xidmət Maliyyə Nazirliyinin tərkibindən çıxarılmış və müstəqil orqan, Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyi kimi fəaliyyət göstərməyə başlamışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2000-ci il tarixli Fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilmiş, onun bazasında ölkədə dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı Vergilər Nazirliyi yaradılmışdır.

Vergilər Nazirliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Vergi Məcəlləsini və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnaməni rəhbər tutur.

Vergilər Nazirliyi Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Vergilər Nazirliyi dövlət büdcəsinin vəsaiti hesabına və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

Vergilər Nazirliyi müəyyən vəzifə və funksiyaları yerinə yetirir. Bunlar aşağıdakılardır:

- öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsinə, vergi qanunvericiliyinə riayət olunmasına nəzarət etmək;

- vergi qanunvericiliyi ilə bağlı vergi ödəyicilərinə məlumatların verilməsini, vergilərin hesablanması və ödənilməsi barədə onlara əvəzsiz olaraq izahatların verilməsini təmin etmək;

- vergi sahəsində hüquq pozuntularını doğuran səbəbləri araşdırmaq və belə halların aradan qaldırılması üçün öz səlahiyyətləri daxilində müvafiq tədbirlər həyata keçirmək;

- vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin qorunmasını təmin etmək;

- öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək;

- Azərbaycan Respublikasının vergi siyasətinin təkmilləşdirilməsi haqqında təkliflər hazırlamaq;

- vergi münasibətlərini tənzimləyən qanunvericilik aktlarının layihələrinin hazırlanmasında iştirak etmək;

- Azərbaycan Respublikasının vergi qanunvericiliyinə riayət olunmasını, dövlət vergilərinin və ona həvalə edilmiş digər daxilolmaların düzgün hesablanmasını, vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsi ilə bağlı dövlət vergi orqanlarının işini təşkil etmək;

- hesablanmış və təyinatı üzrə daxil olmuş vergilərin uçotunu aparır və bu barədə Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat vermək;

- vergi qanunvericiliyinin pozulması hallarına dair məlumatları toplayır, təhlil edir, onu qiymətləndirir və belə halların baş verməsinə gətirib çıxaran səbəblərin və şəraitin aradan qaldırılması üçün müvafiq dövlət orqanlarına təkliflər vermək;

- qanunvericiliklə nəzərdə tutulmuş qaydada vergi ödəyiciləri haqqında, o cümlədən vergi və kommersiya sirrinin qorunması qaydalarına riayət etmək və onu təmin etmək;

- vergi ödəyiciləri tərəfindən artıq ödənilmiş vergi məbləğlərinin əvəzləşdirilməsi və ya geri qaytarılması, habelə vergi ödəyicilərindən düzgün tutulmayan vergi məbləğlərinin, maliyyə sanksiyalarının, faizlərin və inzibati cərimələrin geri qaytarılması üçün qanunvericiliklə müəyyən edilmiş tədbirləri görmək;

- tabeliyində olan vergi orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirmək;

- xarici dövlətlərin vergi və digər səlahiyyətli orqanları ilə əməkdaşlıq etmək;

- iqtisadiyyat, o cümlədən maliyyə, vergitutma və investisiyaların cəlb edilməsi ilə bağlı digər ölkələrlə Azərbaycan Respublikası arasında münasibətlərin tənzimlənməsinə dair təkliflərin hazırlanmasında iştirak etmək;

- Azərbaycan Respublikası dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığı və ixtisasının artırılması ilə bağlı tədbirlər həyata keçirmək;

- nazirliyin öz vəzifələrini və funksiyalarını mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquq-mühafizə, maliyyə və digər dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirməsi və s.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi də vergi və yığımlar haqqında qanunvericilik ilə tənzimlənən münasibətlərin iştirakçısıdır. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 10-cu maddəsinə əsasən Maliyyə Nazirliyi başda olmaqla Respublikanın maliyyə orqanları vergi münasibətlərində iştirak edir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 4 fevral tarixli 271 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

Azərbaycanda, eləcə də əksər sabiq müttəfiq respublikalarda inhisarçılığın tamamilə fərqli, özünəməxsus xüsusiyyətləri mövcuddur. Bu xüsusiyyətlər isə əsasən sabiq SSRİ iqtisadiyyatının idarəedilməsi prinsiplərindən irəli gəlir. İnzibati–amirlik sistemi iqtisadiyyatın bütün sahələrində hər hansı bir formada olursa – olsun, azad rəqabəti aradan qaldırmağa çalışırdı. İnzibati–amirlik sistemi iqtisadiyyatın bütün sferalarını əhatə edən mərkəzi planlaşmaya, qiymətqoymanın dövlət tənzimlənməsinə, maddi – material resurslarının mərkəzləşdirilmiş bölgüsünə əsaslanırdı və demək olar ki, özü – özlüyündə inhisarçı mahiyyət daşıyırdı.

Bu sistemin daxilində ayrı – ayrı mərkəzi dövlət orqanlarının, nazirliklərin, təşkilat və müəssisələrin inhisarçılığı mövcud idi. Aydındır ki, belə bir şəraitdə iqtisadi subyektlərin müstəqilliyindən, iqtisadi fəaliyyət azadlığından, iqtisadi demokratiyadan danışmaq mənasızdır.

Sənaye inqilabı dövrünün başa çatması idarəetmə qaydalarının köklü surətdə dəyişməsinə səbəb oldu. Bununla yanaşı, 1930 - cu ildə baş verən böyük depressiya, o dövrə qədər hegemon mövqedə olan ictimailəşmə tipinin dəyişilməsi zəruriliyini ortaya çıxardı.

Bu proses XX əsrin 50-60 – cı illərindən başlayaraq artan sürətlə genişlənməyə, iqtisadi subyektlərin struktur bölmələrinin hüquq və vəzifələrinin artırılması, təsərrüfat fəaliyyətinin müxtəlif növləri üzrə nisbi azadlığının təminatı yönümündən güclənməyə başladı. Bütün bunlar heç də, o demək deyildir ki,

ictimailəşmənin tarixi tipi istehsal və kapitalın təmərküzləşməsinə söykəndiyi üçün ictimai praktika tərəfindən rədd edilirdi. Əksinə, elə müasir iqtisadi proseslərin sistemli tədqiqi də göstərir ki, təmərküzləşmə iqtisadi proseslərin təbii halıdır və onun süni vasitə və üsullarla dayandırılması yol verilməzdir. Göstərilən istiqamətdə yeniləşmənin əsas səbəbi də elə ondan ibarətdir ki, istehsal və kapitalın təmərküzləşməsinin iqtisadi məqsədəuyğunluq baxımından maksimal sərhəddi vardır və bu sərhəddi hər hansı bir formada keçən subyektin idarə edilməsi prosesində problemlərin meydana çıxması qaçınılmazdır. Bu da məcmu məsrəflərin artımını və iqtisadi effektivliyin aşağı düşməsinə səbəb olur.

Ümumiyyətlə, iri istehsalı yaxud istehsal və kapitalın təmərküzləşməsinin rədd edilməsi iqtisadi cəhətdən səhv addımdır. Belə ki, idarəetmə və təşkilati xüsusiyyətlərindən asılı olmayaraq, hər cür iqtisadi sistemin inkişafı baxımından əsas hərəkətverici qüvvəsi iri istehsal subyektləridir.

Ölkəmizdə dünyanın qabaqcıl ölkələrinin antiinhisar qanunvericiliyi öyrənilməklə Azərbaycan iqtisadi gerçəkliyini əks etdirən antiinhisar tənzimlənməsini həyata keçirən hüquqi baza yaradılmışdı.

Antiinhisar siyasəti və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2009-cu il tarixli fərmanı ilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Dövlət Xidməti və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi yanında İstehlak Bazarına Nəzarət üzrə Dövlət Xidmətinin bazasında Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti yaradılmışdır.

Dövlət Xidməti inhisarçılıq fəaliyyətinin, haqsız rəqabətin qarşısının alınmasını, məhdudlaşdırılmasını və aradan qaldırılmasını, əmtəə və xidmət (o cümlədən maliyyə xidmətləri) bazarlarında rəqabətin, istehlakçıların hüquqlarının və qanuni maraqlarının dövlət tərəfindən qorunmasını, bu sahədə dövlət siyasətinin həyata keçirilməsini təmin edən, antiinhisar (rəqabət), reklam, istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə, istehlak bazarında ticarət, ictimai

iaşə, məişət və digər növ xidmət normalarına və qaydalarına riayət edilməsi üzərində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi haqqında Əsasnaməni, Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin əmr və sərəncamlarını və Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2009-cu il tarixli fərmanı ilə təsdiq olunmuş Əsasnaməsini rəhbər tutur.

Əsasnaməyə əsasən Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

-inhisarçılıq fəaliyyətinin, haqsız rəqabətin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması, rəqabətin inkişafı və təşviqi, istehlakçıların hüquqlarının və qanuni maraqlarının müdafiəsi sahələrində dövlət siyasətinin hazırlanması ilə bağlı İqtisadi İnkişaf Nazirliyinə təkliflər verir və bu sahədə müəyyən olunmuş siyasətin səlahiyyətləri daxilində həyata keçirilməsini təmin edir;

- antiinhisar (rəqabət), reklam və istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə, ticarət, ictimai iaşə, məişət və digər növ xidmət sahələrində mövcud norma və qaydalara riayət edilməsinə dövlət nəzarətini həyata keçirir;

- inhisarçılıq fəaliyyətinin, haqsız rəqabətin və istehlakçıların hüquqlarının və qanuni maraqlarının pozulması hallarının qarşısının alınması və aradan qaldırılması sahələrində qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görür;

- yeyinti məhsullarının Avropa İttifaqı ölkələrinə ixracının tənzimlənməsi sahəsində zəruri tədbirlərin görülməsini təmin edir.

Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyəti barədə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə mütəmadi olaraq hesabat verilir.

Son zamanda Respublikamızda investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm tədbirlər görülmüşdür.

Ölkənin iqtisadi inkişafındakı bu uğurlarda neft strategiyasının həyata keçirilməsinin böyük əhəmiyyəti olmuşdur. 1994-cü ildə nüfuzlu xarici neft şirkətləri ilə «Əsrin müqaviləsi» imzalandıqdan sonra həmin müqavilə çərçivəsində aparılan işlər nəticəsində 1997-ci ildə ilk neft hasil olunmuş və 1999-cu ildən etibarən mənfəət nefti ixrac olunmağa başlanmışdır.

Azərbaycan Respublikasının neft sərvətlərinin istismarının genişlənməsi ölkənin neft gəlirlərinin toplanması üçün Dövlət Neft Fondunun təsis olunmasına səbəb olmuşdur. Dövlət Neft Fondu Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli Fərmanı ilə yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixli 434 saylı Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu haqqında Əsasnamə təsdiq olunmuşdur. Dövlət Neft Fondu mahiyyət etibarilə büdcədənkənar fonddur, onun vəsaitləri respublikanın ümummilli problemlərinin həlli üçün istifadə olunur.

Neft Fondunun fəaliyyəti neft və qazın kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlərin həyata keçirilməsindən və Fondun öz fəaliyyətindən əldə olunan vəsaitin toplanması və səmərəli idarə edilməsi vasitəsi ilə ölkə qarşısındakı aşağıdakı mühüm vəzifələrin həllinə yönəlmişdir:

- birincisi, böyük həcmdə daxil olan xarici valyuta gəlirləri şəraitində ölkədə makroiqtisadi sabitliyin qorunması və maliyyə-vergi intizamının təmin edilməsi, eyni zamanda, neft gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafının təmin edilməsi;

- ikincisi, neft və qazın bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq, onlardan əldə edilən gəlirin nəsillər arasında bərabər bölüşdürülməsi və gələcək nəsillər üçün ehtiyat vəsaitinin toplanması;

- və nəhayət, üçüncüsü, ölkəmizin sosial-iqtisadi tərəqqisi ilə əlaqədar mühüm ümummilli layihələrin maliyyələşdirilməsi.

Dövlət Neft Fondunun beynəlxalq əlaqələr sahəsində fəaliyyət istiqaməti ildən ilə genişlənir. Fond dünyanın bir çox maliyyə qurumları, bankları və beynəlxalq təşkilatları ilə sıx əməkdaşlıq edir. Dövlət Neft Fondunun vəsaitinin istifadəsi dövlət investisiya siyasətinə uyğun olaraq həyata keçirilir. Orta müddətli perspektivdə Neft Fondunun xərclərinin əsasən ölkədə yoxsulluğun səviyyəsinin azaldılması ilə bağlı layihələrin, habelə strateji əhəmiyyətli infrastruktur obyektlərinin inşası və rekonstruksiyasının maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulur. Neft Fondunun xərcləri əsasən Fondun vəsaitinin idarə olunmasından əldə olunan faiz gəlirləri həcmində nəzərdə tutulur. Bununla bərabər, Böyük İpək Yolunun bərpası, TRASEKA layihələri həyata keçirilməkdədir. Bu layihələr nəinki Azərbaycanın iqtisadi inkişafına, eləcə də bütün region ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə, bu ölkələrin iqtisadi qüdrətinin artmasına, burada yaşayan xalqların daha firavan yaşamasına xidmət edir.

Hazırda Azərbaycan Hökumətinin qarşısında duran ən əsas vəzifələrdən biri iqtisadiyyatın tarazlı inkişafına nail olmaqdan, «Holland sindromu»nun yaranmasına imkan verməməkdən ibarətdir. Bu məqsədlə Azərbaycan Hökuməti ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlərin ardıcıl şəkildə həyata keçirməyi planlaşdırır.

Azərbaycanın qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinin ən mühüm vasitələrindən biri özəlləşdirmə prosesidir. Bu günədək Türkiyə, Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya, Çin, İran, İsveçrə, Hollandiya və bəzi digər ölkələrin investorları Azərbaycanda həyata keçirilən özəlləşdirmə prosesində iştirak etmiş və müəssisələrin səhmlərinin ən azı 51 %-ni əldə edərək onlara böyük məbləğdə investisiyalar qoymuşlar.

Qeyri-neft sektorunun inkişafı prioritet istiqamətlərdən biri kimi, dövlət proqramlarında, o cümlədən “Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı”nda, “Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə Dövlət Proqramı”nda, habelə “2003-2005-ci illər üçün Dövlət İnvestisiya Proqramı”nın layihəsində öz əksini tapmışdır.

Qeyri–neft sektoruna investisiyaların cəlb edilməsi sahəsində atılan mühüm addımlardan biri də "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti İnvestisiya Fəaliyyətinin Təşviqi üzrə Əlavə Tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1395 nömrəli Sərəncamı ilə yaradılmasıdır. Şirkətin investisiya fəaliyyəti əsasən ölkə iqtisadiyyatının qeyri-neft sahələrində fəaliyyət göstərən kommersiya təşkilatlarının nizamnamə kapitallarında iştirak paylarının əldə olunması yolu ilə müddətli investisiya qoyuluşlarının həyata keçirilməsindən ibarətdir.

Şirkətin fəaliyyətinin prioritet istiqamətlərindən biri, Azərbaycan müəssisələrinin ixrac yönümlü və idxalın əvəzləşdirilməsinə yönəlmiş layihələrində iştirak və həmin layihələrə yerli və ya xarici investorların cəlb edilməsidir.

"Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Fəaliyyətin əsas məqsədləri aşağıdakılardır:

- Ölkədaxili kapital bazarının inkişafı;
- İnvestisiya mühitinin təkmilləşdirilməsi;
- Yerli və xarici investisiyaların ölkə iqtisadiyyatının qeyri-neft sahələrinə cəlb edilməsi;
- İnvestisiya qoyuluşu edilən kommersiya təşkilatlarının bazar dəyərinin artırılmasıdır.

Bununla yanaşı lisenziyalaşdırma sisteminin sadələşdirilməsi barədə qərar qəbul edilmişdir. Belə ki, ölkədə mövcud olan lisenziyalaşdırma sistemi köklü surətdə dəyişmiş, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 240-dan 30 - a endirilmiş, lisenziyanın müddəti 2 ildən 5 ilə qədər uzadılmışdır. Yeni lisenziyalaşdırma sisteminin tətbiqi azad rəqabətin inkişafına, istehsal olunan məhsulun, göstərilən xidmətin keyfiyyətinin yüksəlməsinə gətirib çıxaracaqdır.

Müasir Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifə ölkənin gələcək iqtisadi və sosial inkişafını təmin etməkdir.Bunun üçün isə ölkədə iqtisadi münasibətlər düzgün istiqamətdə formalaşdırılmalı, dövlət tənzimləyici funksiyalarını həyata keçirməli, iqtisadi münasibətlərin qanunvericiliklə tənzimlənməsi və s. təmin edilməlidir.

## 3.3 İqtisadi münasibətlərin hüquqi tənzimlənməsi sahəsində xarici ölkələrin təcrübəsi və ondan istifadə istiqamətləri

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonrakı dövrdə xarici dövlətlərin mülki və ticarət hüquqlarının ümumiyyətlə iqtisadi münasibətlərinə hüququn tətbiqinin öyrənilməsi zərurəti tam ciddiliyi ilə qarşıda duran başlıca vəzifələrdən birinə çevrildi. Keçmiş sovet dövründən fərqli olaraq, müstəqillik dövründə bu vəzifələr daha da aktual xarakter aldı. Xarici ölkələrin mülki və sahibkarlıq hüququnun öyrənilməsi təkcə nəzəri məsələ olmayıb, eyni zamanda böyük praktiki əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında bazar iqtisadiyyatına keçid və sahibkarlığın yüksək sürətlə inkişafı, xarici vətəndaşların və hüquqi şəxslərin iştirakı ilə birgə müəssisələrin yaradılması, xarici ticarətin xüsusi çəkisinin artması, bu zaman milli sahibkarlarımızın hüquqlarının və mənafeyinin daha etibarlı müdafiəsi, müvafiq xarici dövlətlərin mülki və sahibkarlıq qanunvericiliyini öyrənməyi zəruri edir.

Amerika Birləşmiş Ştatları

ABŞ – ın hüquq sisteminin əsasını ölkə Konstitusiyası təşkil edir. 1787 – ci ildə qəbul olnmuş həmin konstitusiya ABŞ ərazisində ali hüquqi qüvvəyə malik sənəddir. ABŞ Konstitusiyasının qüvvədə olduğu iki əsrdən artıq müddətdə onun ayrı – ayrı maddələrinə yalnız 26 dəyişiklik edilmişdir. Göründüyü kimi ABŞ qanunvericiliyinin sabitliyi onun səciyyəvi xüsusiyyətlərindəndir. ABŞ – da sahibkarlıq hüququnun və onun mühüm institutlarından biri olan müqavilə hüququnun bir sıra mühüm elementləri Konstitusiyada özünün hüquqi həllini tapmışdır. ABŞ Konstitusiyasında mərkəzi yerlərdən birini müqavilə hüququnun əsasını təşkil edən mülkiyyət münasibətləri tutur. Mülkiyyət hüququ toxunulmaz və müqəddəs hüquq elan olunur. ABŞ  Konstitusiyasında 5 – ci dəyişiklikdə göstərilir ki, heç kəs qanuni proseduraya riayət edilmədən əmlakından məhrum edilə bilməz. Xüsusi mülkiyyətdə olan heç bir əmlak tam qarşılığı ödənmədən ictimai mənafe üçün alına bilməz. Bununla da, ABŞ dövləti mülkiyyətin bütün formalarının inkişafı üçün bərabər şərait yaradır və bərabər şəkildə müdafiə olunmasına təminat verir.

Bütün iqtisadi münasibətlərin həyata keçirilməsinin əsasını təşkil edən, əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüququnu özündə birləşdirən mülkiyyət münasibətləri ABŞ Konstitusiyasında ümumbəşəri dəyərlər əsas götürülərək tənzimlənmiş, iqtisadiyyatın inkişafının əsas istiqamətləri və prinsipləri müəyyən edilmişdir. ABŞ Konstitusiaysında vətəndaşların mülki dövriyyədə bərabərliyi prinsipi öz əksini tapmışdır ki, bu da müqavilə münasibətlərinin tənzimlənməsində mühüm vasitədir.

ABŞ müqavilə hüququnun xarakterik cəhətlərindən biri də iqtisadiyyatın və iqtisadi dövriyyənin idarə olunmasında dövlətin rolunun artmasından ibarətdir.

Fransa

Frasna dualist hüquq sistemi xarakterik olan dövlətlərdəndir. Belə ki, burada xüsusi hüquq münasibətləri mülki məcəllə ilə yanaşı, ticarət məcəlləsi ilə də tənzimlənir.

Hazırda qüvvədə olan Fransa Mülki Məcəlləsi 1804 – cü il martın 1 – də qəbul olunmuş və həmin il martın 21 – də qüvvəyə minmişdir. Fransa Mülki Məcəlləsi Napoleonun bilavasitə iştirakı ilə işlənib hazırlanmışdır. Bu Məcəllə bütün dünyada mülki hüququn inkişafına əsaslı töfhə oldu.

Fransa Mülki Məcəlləsi xüsusi mülkiyyəti toxunulmaz və müqəddəs elan etdi, xüsusi mülkiyyətin mühafizəsi məcəllənin ən mühüm vəzifəsi oldu. Demək olar ki, Məcəllənin normalarının böyük əksəriyyəti bu və ya digər formada xüsusi mülkiyyət münasibətlərinin mühafizəsinə və tənzimlənməsinə yönəldilmişdir.

Qəbul edildikdən sonrakı dövrdə Fransa Mülki Məcəlləsinə, heç şübhəsiz ki, dəfələrlə əlavələr və dəyişikliklər edilmiş, bu gün də bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi işi davam edir.

Mülki Məcəllə ilə yanaşı Fransada 1807 – ci ildə qəbul olunmuş Ticarət Məcəlləsi də hazırda qüvvədədir. Qəbul edildiyi ilk dövrdə Fransa Ticarət Məcəlləsi dörd kitabdan ibarət olmuşdur.həmin vaxtdan keçən dövr ərzində edilmiş əlavə və dəyişikliklər Ticarət Məcəlləsinin nəinki formasını, həm də onun məzmununu, fəaliyyət dairəsini və istiqamətlərini əsaslı surətdə yeniləşdirmişdir.

Fransa Ticarət Məcəlləsi qəbul olunduğu ilk dövrdən başlayırıq uzun müddət ərzində ticarət sahəsində hüquq münasibətlərinin tənzimlənməsində böyük rol oynamışdır. Lakin Fransa Mülki Məcəlləsindən fərqli olaraq, Fransa tTicarət Məcəlləsi hazırki dövrdə demək olar ki, öz əvvəlki əhəmiyyətini itirmiş, "ömrünü yaşamış", hüquq tarixinin predmetinə çevrilməkdədir.

Fransa Ticarət Məcəlləsinin qəbul edildiyi dövrdəki 648 maddəsindən hazırda yalnız 146 – sı hüquqi qüvvəsini saxlamışdır ki, onlardan da, yalnız 19 – u ilkin redaksiyadadır.

Vaxtilə Fransa Ticarət Məcəlləsi ilə tənzimlənən hüquq münasibətlərinin böyük əksəriyyəti hazırda bu dövlətin ayrı – ayrı qanunları və digər qanun qüvvəli normativ hüquqi aktları ilə tənzimlənir.

Almaniya

AFR dualist hüquq sisteminə malik ölkələrdəndir. Bu özünü AFR hüquq sisteminin ümuni və xüsusi hüquqa bölünməsi, eləcə də, mülki hüquqla yanaşı və ona paralel olaraq ticarət hüququnun mövcudluğu və fəaliyyət formasında özünü göstərir. Həmin xüsusiyyətinə görə də, AFR xüsusi hüququnun öyrənilməsi respublikamızda bazar iqtisadiyyatına keçid şəraitində sahibkarlıq fəaliyyətinin hüquqi əsaslarının yaradılmasında və möhkəmləndirilməsində, sahibkarlıq hüquq münasibətlərinin tənzimlənməsində, sahibkarlığın sağlam əsaslarla inkişafına şərait yaradılmasında müəyyən əhəmiyyət kəsb edir.

Almaniya dövlətinin hazırda qüvvədə olan Mülki Məcəlləsi 1900 – cu ildə qəbul olunmuş, onunla eyni ildə Almaniya Ticarət Məcəlləsi də qüvvəyə minmi°dir və bununla da, AFR – də mülki münasibətlərin, o cümlədən sahibkarlıq hüququ münasibətlərinin vahid qaydada tənzimlənməsinin əsası qoyuldu.

AFR Mülki və Ticarət Məcəllələri əsasən eyni bir ictimai hüquq münasibətlərini, yəni mülki hüquq münasibətlərini tənzim edir. Onların fərqi yalnız ondan ibarətdir ki, Mülki Məcəlləni əsasən mülki qanunvericiliyin ümumi normaları təşkil edir. Həmin hüquq normaları bütün hüquq münasibətləri üçün məcburi xarakter daşıyır. Almaniya Ticarət Məcəlləsi isə xüsusi, sahəvi hüquq normalarıdır ki, mülki dövriyyənin ayrıca bir hissəsini tənzimləyir. Başqa sözlə, Almaniya Ticarət Məcəlləsi

Almaniya Mülki Məcəlləsinin tərkib hissəsidir, onun xüsusi, müstəqil bir sahəsi, bir institutudur. Belə ki, əgər Ticarət Məcəlləsi hər hansı bir ticarət hüquq münasibətlərini nizama sala bilmirsə, həmin xüsusat üzrə Ticarət Məcəlləsində boşluq vardırsa, onda subsidiar formada, həmin hüquq münasibətlərini tənzim etmək üçün Mülki Məcəllənin normaları tətbiq edilir.

Müasir dünya təcrübəsində antiinhisar qanunvericiliyinin xüsusiyyətləri də diqqət çəkməkdədir. Belə ki, müasir şəraitdə əksər İEÖ ticarət hüququ çərçivəsində inhisarçı fəaliyyətin gətirdiyi iqtisadi və sosial nəticələrin təsir gücünü azaltmaq məqsədi ilə kapitalın təmərküzləşməsi və rəqabət prosesinin dövlət tənzimlənməsini həyata keçirirlər. Və, bu istiqamətdə əsas aparıcı sahə antiinhisar qanunvericiliyinin işlənib hazırlanmasıdır.

Bir sıra tədqiqatçılar antiinhisar qanunlarının iki tipini fərqləndirirlər.

1. İnhisarın qadağan edilməsi prinsipi əsasında qəbul edilən qanunlar;
2. İnhisarçı biliklərə nəzarət sui–istifadə hallarının məhdudlaşdırılması prinsipi əsasında qəbul edilən qanunlar.

Bu istiqamətdə bölgü ABŞ və Avropanın antiinhisar qanunvericiliklərdindəki fərqli elementlərə əsaslanır. Belə ki, ABŞ da antitrest qanunvericiliyi, Avropa sistemində isə bazarda hegemon mövqe tutan inhisarçı bilriklərin sui istifadə hallarının məhdudlaşdırılmasına yönəldilən və onların məcmu fəaliyyəti üzərində nəzarət prinsipinə əsaslanan antiinhisar qanunvericiliyi qüvvədədir.

Antiinhisar qanunvericiliyinin Avropa sistemi Qərbi Avropa ölkələri ilə yanaşı, Avstraliyada, Yeni Zelandiyada, Cənubi Afrika Respublikalarında, Amerika sistemi isə Argentinada və bir sıra digər ölkələrdə tətbiq olunur.

Araşdırmalar göstərir ki, ABŞ-ın antitrest qanunvericiliyinin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu qanunvericilik elə başlanğıc andan inhisarı qeyri-qanuni hesab etməklə qadağan edir. Amma, Qərbi Avropa qanunvericiliyi inhisarçı fəaliyyətin neqativ nəticələrini aradan qaldırmaq məqsədi ilə tənzimləmə prinsipi üzərində qurulmuşdur. Lakin, sonrakı inkişaf prosesləri ABŞ qanunvericiliyinin ifrat sərt formada tətbiqini qeyri-səmərəli olduğunu üzə çıxardı və bu istiqamətdə bir sıra “yumşaldıcı” vasitələrin tətbiqinə başlanıldı.

Ingiltərədə müasir antiinhisar qanunvericiliyi XX əsrin 70ci illərindən sonra formalaşmağa başlamışdır. Bu proses ilkin olaraq ticarət praktikasının məhdudlaşdırılması və qanuni ticarət haqqında normativ aktların qəbulundan başlanır: Ticarət haqqında qanun (1973-cü il), Məhdudlaşdırıcı Ticarət Praktikası haqqında qanun (1975), Məhdudlaşdırıcı Praktika üzrə Məhkəmə haqqında qanun (1976-77); Yenidən satış qiymətləri haqqında qanun (1976) və s. bu qəbildən olanlar sırasındadır.

Fransanın antiinhisar qanunvericiliyində əsaslı dönüşün başlanğıcı 19 iyul 1977-ci il Qanunu ilə reallığa çevrildi. Bu qanunla bazardakı hegemon mövqedən sui-istifadə hallarına və qadağan edilmiş kartellərə qarşı cəza tədbirləri daha da sərtləşdirildi. Fransada ilk dəfə olaraq məhz həmin dövrdə istehsalın təmərküzləşməsi üzərində nəzarət təşkil edildi.

Bundan başqa Fransada inhisarçı fəaliyyət üzərində şəraitin mühüm hissəsi bazarda iqtisadi təmərküzləşməsinin yoxlanılması üzərinə düşür.

Iqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə rəqabət məsələləri üzrə Şura tərəfindən istənilən təmərküzləşmə haqqında layihə yaxud müəssisələrin təmərküzləşməsi yoxlanıla bilər. Aydındır ki, bu halda təmərküzləşmənin rəqabətə mənfi təsiri, əsas də bazarda hegemon mövqenin yaradılması yaxud gücləndirilməsi əsas kriteriya kimi götürülür. AFR-nın antiinhisar qanunvericiliyi isə qeyd etdiyimiz kimi Amerika və Avropa sistemləri arasında orta mövqe tutur. Bu ölkədə antiinhisar qanunvericiliyinə stimullaşdırıcı təsiri II Dünya müharibəsindən sonra qərarlaşmış azad bazar iqtisadiyyatı həyata keçirmişdir. 1949-cu ildə iki qanun layihəsi işlənib hazırlanmışdır: Effektivliyin yüksəldilməsi yolu ilə rəqabətin təminatı haqqında və Inhisarlar üzrə idarələr haqqında. Bu istiqamətdə aparılan fəaliyyətin nəticəsində Kartel qanunu kimi tanınan "rəqabətin məhdudlaşdırılmasına qarşı" Qanun (1957) olunmuşdur. Son illərdə antiinhisar qanunvericiliyini daha da təkmilləşdirmək məqsədi ilə Kartel Qanununa çoxlu sayda düzəlişlər edilmişdir. Hal-hazırda həmin qanun 1989-cu il redaktəsi ilə qüvvədədir.

Israildə isə öz xüsusi cəhətləri ilə digərlərindən seçilən antiinhisar qanunvericiliyi tətbiq edilir. Digər ölkələrdən fərqli olaraq, "Sahibkarlıq azadlığı

haqqında" qanun İsraildə əsas qanun kimi tanınır. Bu baxımdan İsraildə biznes sferasında fəaliyyətin məhdudlaşdırılmasına yönəldilən, başqa sözlə sırf antiinhisar mahiyyəti daşıyan qanun 1988-ci ildə qəbul edilmişdir. Bu qanun "Sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılması" haqqında qanundur. Qanun üç istiqaməti özündə əks etdirir:

Kartel sazişləri, inhisar və şirkətlərin birləşməsi.

Rusiya Federasiyasında antiinhisar qanunvericiliyi çoxlu sayda qanun, sərəncam və normativ aktlara əsaslanır. Bunların içərisində 9 qanun və normativ akt, o cümlədən 22 mart 1991-ci il tarixli "Əmtəə bazarlarında inhisarçı fəaliyyətin məhdudlaşdırılması və rəqabət haqqında", 30 noyabr 1995-ci il tarixli "Maliyyə-sənaye qrupları haqqında", 17 avqust 1995-ci il tarixli "Təbii inhisarlar haqqında", 14 aprel 1998-ci il tarixli "Xarici ticarətdə Rusiya Federasiyasının iqtisadi maraqlarının mühafizəsi üzrə tədbirlər haqqında" və s. – xüsusi əhəmiyyət kəsb edir. Rusiyada antiinhisar siyasətini həyata keçirmək, bazar strukturlarını dəstəkləmək, əmtəə bazarlarında inhisarçı təmayülləri aradan qaldırmaq məqsədi ilə ilkin olaraq Antiinhisar siyasəti üzrə Dövlət Komitəsi və ərazi orqanları yaradılmışdır. Lakin, bu struktur öz fəaliyyətində gözlənilən effekti vermədi və 1999-cu ildə həmin orqanın bazasında Sahibkarlığa kömək və antiinhisar siyasəti üzrə Nazirliyi təsis edildi. Eyni zamanda, bu vaxta qədər müstəqil fəaliyyət göstərən bir sıra profil strukturları – nəqliyyatda təbii inhisarları tənzimləmək üzrə Rusiya Federal xidməti; Rabitə sferasında təbii inhisarları tənzimləmək üzrə Rusiya Federal xidməti; Kiçik sahibkarlığın dəstəklənməsi və inkişafı üzrə Dövlət Komitəsi yeni yaradılan Nazirliyin tərkibinə daxil edildilər.

Antiinhisar siyasətinin dünya təcrübəsi göstərir ki, bu problemə yanaşmada nəinki nəzəri-metodoloji prinsiplər, eləcə də ayrı-ayrı ölkə regional iqtisadi qruplaşmaların səciyyəvi xüsusiyyətləri baxımından vahid platforma yoxdur. Fərqli mövqelərin mövcudluğuna baxmayaraq, ümumi nəzəri, yanaşma çərçivəsində antiinhisar siyasətinin predmeti kimi firmanın bazar davranışı və bazar strukturu götürülür. Dünya iqtisadiyyatının keyfiyyətcə yeni bir mərhələyə - qloballaşma erasına daxil olduğu bir dövrdə baş verən beynəlxalq vergi münasibətləri olduqca

mürəkkəbdir. Bu onunla əlaqədardır ki, beynəlxalq miqyasda olduqca müxtəlif subyektlər – müstəqil dövlətlər, beynəlxalq təşkilatlar, müxtəlif dövlətlərin fiziki və hüquqi şəxsləri fəaliyyət göstərirlər.

Beynəlxalq vergi hüquq münasibətlərindən danışarkən bəzi inkişaf etmiş ölkələrin vergi hüquq münasibətlərinə, vergi sisteminə diqqət yetirək:

Almaniya

Almaniyanın vergi qanunvericiliyi, ümumiyyətlə vergi sistemi İkinci Dünya Müharibəsindən sonra Erxardın dövründə təkmilləşməyə başlamışdır. Vergilər ölkənin dövlət büdcəsinin gəlirlərinin təqribən 80%-ni təşkil edir. Vergi qanunvericiliyində 40-a yaxın vergi növü nəzərdə tutulmuşdur ki, bunların da təqribən 54%-i dolayı, 46%-i isə birbaşa vergilərin payına düşür. Qeyd edək ki, 2007-ci il üçün Almaniya Avropa Birliyinə daxil olan ölkələr içində ən çox gəlir vergisi faizi olan ölkədir-38,36%.

Almaniyada vergi sistemi təqribən 118 qanunvericiliklə tənzimlənir. Vergi yoxlamalarına gəldikdə isə qeyd etmək lazımdır ki, burada vergi yoxlamalrı üçün xüsusi orqanlar fəaliyyət göstərir. Qeyd edək ki, Almaniyada vergi yoxlamaları baxımından firmalar 4 kateqoriyaya bölünür: böyük, orta, kiçik və çox kiçik. Son 3 sıradakı firmalarda vergi yoxlamaları yerli orqanlar tərəfindən həyata keçirilir. İri firmalar isə xüsusi yoxlama orqanları yoxlanılır. Yoxlama normal şəkildə 3 illik bir dövrü əhatə edir.

Rusiya

Rusiyanın vergi qanunvericiliyini, demək olar ki, 27 dekabr 1991-ci ildə qəbul olunmuş "Rusiya Federasiyasının vergi sisteminin əsasları" haqqında qanun təşkil edir. Rusiyanın vergi sistemi mülkiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün sahibkarlar və firmalar üçün vahid prinsiplər əsasında formalaşmışdır:

- Vergi toplanmasında bərabərlik prinsipi;
- Vergilərin bir dəfə toplanması prinsipi;
- Stabillik, sadəlik, müəyyənlik prinsipi və s.

Rusiyada vergi sisteminə rəhbərliyi Prezindetə və Rusiya Federasiyası Hökumətinə tabe olan Dövlət Vergi İdarəsi həyata keçirir. Rusiyada 1992-ci ildən etibarən yeni vergi sistemi fəaliyyət göstərir. Belə ki, yuxarıda adı çəkilən qanun yalnız 1992-ci ildən etibarən qüvvəyə minmişdir. Rusiyanın vergi sistemində 3 növ vergilər tətbiq olunur:

- Federal;
- Respublika vergiləri;
- Yerli vergilər.

Bazar iqtisadiyyatına keçid şəraitində olan Respublikamız üçün iqtisadiyyatın sürətli inkişafını təmin etmək üçün effektiv qanunvericilik bazasının formalaşdırılması zəruri addımlardan hesab olunur. Artıq bazar iqtisadiyyatına qədəm qoymuş, dünyanın inkişaf etmiş ölkələrinin qanunvericilik bazasının tədqiqi və ölkə qanunvericiliyinə tətbiqi bazar iqtisadiyyatına keçidi daha da surətləndirə bilər. Məhz bu səbəbdən də dünya təcrübəsinin öyrənilməsi böyük əhəmiyyətə malikdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işində araşdırılan məsələlərdən aydın olur ki, iqtisadiyyatın tənzimlənməsinin zəruriliyi problemi artıq iqtisad elmində hamı tərəfindən qəbul edilən bir məsələyə çevrilmişdir. İndi mübahisələr tənzimlənmənin zəruriliyi problemi ətrafında deyil, onun hansı həddə aparılması ətrafındadır. Çünki, müəyyən həddən yuxarı və ya aşağı səviyyədə dövlətin iqtisadiyyata müdaxiləsi hər iki halda ziyanlıdır. Ona görə də, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudunun gözlənilməsi iqtisadiyyatın tənzimlənməsilə bağlı başlıca məsələdir.

Hər bir ölkə, onun hüquq sistemi, iqtisadi modeli yalnız öz tarixinin məhsulu deyil, həm də cəmiyyətin mentaliteti, onun milli və mədəni xüsusiyyətlərinin təsiri altında formalaşır. Azərbaycan bu baxımdan tamamilə unikal bir dövlətdir. Əlverişli coğrafi mövqeyi və iqlimi, ölkədə müxtəlif xalqların birgə yaşaya bilməsi imkanı ölkənin regional inkişafı üçün əlverişli şərait yaradır. Əgər bura bir də 70 il ərzində hökm sürmüş inzibati idarəçilik sistemini, qeyri-bazar münasibətlərini də əlavə etsək görərik ki, ölkənin bazar iqtisadiyyatına keçidi alman, isveç yaxud yapon, çin modellərindən olduqca fərqlidir. Təbii ki, bu heç də o demək deyildir ki, biz müxtəlif ölkələrin siyasi, hüquqi və iqtisadi təcrübələrindən istifadə etməməliyik. Əksinə bu təcrübələrdən Azərbaycan xüsusiyyətlərini nəzərə alaraq istifadə etməliyik. Bununla əlaqədar olaraq bazar və dövlətin bir-birinə qarşı qoyulması stereotiplərindən uzaqlaşmaq lazımdır.

Uzun müddətdir ki, hüquq elmində hüquqi tənzimlənmənin metodlarının araşdırılmasına baxmayaraq, yeknəsəklik bu günə qədər yoxdur. Başqa sözlə, metodlarla bağlı müxtəlif fikirlər mövcuddur. Bu fikirlərin bəzilərini müəyyən qruplarda (oxşar fikirləri) birləşdirilməsinə baxmayaraq, bu qrupların öz aralarında yeknəsəklik yoxdur.

Bazar iqtisadiyyatına keçid dövründə bazar iqtisadiyyatının prinsipial əsasının yaradılması müvafiq hüquqi əsasın yaradılması ilə mümkündür. Məhz bu amil hüquqi tənzimlənmənin zəruriliyini şərtləndirir ki, bu da iqtisadi prinsip və institutların qanunda möhkəmlənməsinin əsasını təşkil edir. Bazar mexanizmi haqqında biz yalnız

o zaman danışa bilərik ki, dövlətdə bu mexanizmin adekvat hüquqi təminat konsepsiyasının əsası qoyulmuş və real olaraq təcəssüm etmiş olsun. Buna görə də, bazar iqtisadiyyatına keçid dövründə iqtisadiyyatın hüquqi tənzimlənməsi sahəsində qarşıya qoyulmuş əsas məqsəd hüquqi tənzimlənmənin səmərəli mexanizminin nəzəri və praktiki əsaslarının işlənib hazırlanmasıdır. Bütün bu qeyd olunanlar onu göstərir ki, bazar iqtisadiyyatına keçid dövründə iqtisadiyyatın hüquqi tənzimlənməsi mexanizmi mövcud şəraitin reallıqlarına, iqtisadi sistemə müvafiq olmalı və bazar iqtisadiyyatının müvafiq hüquqi bazasının yaradılmasına, qanunvericilik sisteminin möhkəmləndirilməsinə yönəldilməlidir.

Göründüyü kimi müasir şəraitdə iqtisadiyyatın tənzimlənməsi dövlətin mühüm funksiyalarından biri olmaqla bazar mexanizminin neqativ nəticələrini aradan qaldırmaq və iqtisadiyyatın inkişafı üçün əlverişli şərait yaratmaq məqsədini güdür. Dövlətin bu sahədə fəaliyyətinin əsas istiqamətlərindən biri uyğun qanunvericiliyin işlənib hazırlanması, qəbulu və yerinə yetirilməsinin təşkilindən ibarətdir.

Hüquqi tənzimlənmənin metodları ümumi və spesifik (xüsusi) metodlara bölünür: Ümumi və ya hüquqtətbiqetmə metodu – hüququ vasitə kimi istifadə etməklə (tətbiq etməklə) iqtisadi münasibətləri tənzimləyən metoddur. Xüsusi (spesifik) metodlar dedikdə, imperativ və dispozitiv metodlar nəzərdə tutulur.

İlk növbədə qeyd etmək lazımdır ki, iqtisadiyyatın hüquqi tənzimlənməsinin metodlarının tətbiqi məqsədi sadəcə olaraq münasibətləri tənzimlənməsi deyil, dövlətin qarşıya qoyduğu məqsədlərə uyğun maksimum səmərəli tənzimləməni həyata keçirməkdir. Bu bilavasitə dövlətin hüquqyaratma fəaliyyətilə bağlıdır. Buna görə də, dövlətin hüquqyaratma fəaliyyəti mükəmməl olmalıdır. Yəni, aktlar elə yaradılmalıdır ki, münasibətləri tənzimləyərkən mövcud prinsiplərə (qanunçuluq, ədalət, hüquq bərabərliyi və s.) riayət edilsin, hüquqda və ya qanunda boşluqlar olmasın, yaradılmış aktlar ziddiyyət təşkil etməsin. Başqa sözlə, dövlətin hüquqyaratma fəaliyyəti daha təkmil olması məqsədəuyğun olardı.

Müxtəlif dünya ölkələrinin təcrübəsinə nəzər salsaq, bu ölkələrin inkişaf səviyyəsindən asılı olaraq imperativ və dispozitiv metodların metodlar sistemində payının müxtəlif olduğunu şahidə etmək olar. Belə ki, inkişaf etmiş ölkələrdə metodların stru-

rukturunda dispozitiv metodun üstünlük təşkil etdiyini aydın şəkildə müşahidə etmək olar. Ölkəmizdə bazar sisteminə yenicə keçidlə əlaqədar olaraq hələ də imperativ metodlar üstünlük təşkil edir. Bu metodları dispozitiv metodlarla əvəz etməklə iqtisadiyyatı inkişaf etdirilməsinin obyektiv zərurət kimi qiymətləndirilməsi məqsədəuyğun olardı.

Dövlət və bazar tənzimləyiciləri isə hüquq mexanizmi vasitəsi ilə qarşılıqlı əlaqədə olaraq vəhdət təşkil edirlər. Azad sahibkarlıq, məhsul və xidmətlərin istehsalı və mübadiləsi, xüsusi intellektin və iş qüvvəsinin azad satışı və s. çox dəqiq və ehtiyatlı tənzimləməni tələb edir. Burada inzibati sistemin diktator metodları ilə tənzimləmə səmərə vermir. Beləliklə, bazar lakin tənzimlənən; tənzimlənən lakin inzibati-komanda üsulları ilə yox; tənzimlənən, lakin müəyyən həddə qədər və müəyyən çərçivədə. Hüquqi tənzimləmənin həddi və üsulları- bazar münasibətləri kursunu seçən qanunverici üçün əsas problem məhz budur. Bazar tənzimlənməsinin dövlət tənzimlənməsinə onun da hüquqi tənzimləyə transformasiyası aşağıdakı şəkildə baş verir: bazar qanunlarının fəaliyyət mexanizmlərinin dərk edilməsi - hüquqi norma və qaydaların yaradılması. Bu norma və qaydalar bazar münasibətləri subyektlərinin fəaliyyətini reqlamentləşdirir, bu qaydalar pozulduqda isə onlara sanksiyaların tətbiqini təyin edir.

Hüquq və iqtisadiyyat, məhdud ehtiyyatlardan istifadə ilə əlaqədar olaraq insan davranışının necə təşkil ediləcəyi məsələsini həll etməyə çalışır. Iqtisadiyyat və hüquq sahələri istehsal vasitələrindən ədalətli istifadə olunmasına əsaslanan alternativ mexanizmlər kimi də düşünülür. Onlar yalnız bir birinin alternativi deyil, eyni zamanda bir biri ilə çox yaxın əlaqəsi olan mexanizmlərdir. Hüquq qaydaları çox vaxt ( amma hər zaman deyil) ticarəti (istehsal - mübadilə - istehlak) asanlaşdırmaq üçün hazırlanır. Hüquq münasibətləri yalnız fiziki və hüquqi şəxslər arasındakı davranışları araşdıracaq qədər sadə deyil. Fiziki və hüquqi şəxslərlə dövlət arasında da bir sıra münasibətlər mövcuddur ki, hüquq bu münasibətləri tənzimləyir. Vətəndaş – dövlət münasibətlərinə hüquq sistemində baxılır.

Hüquq və iqtisad elmləri arasında nəzəri cəhətdən bu qədər sıx əlaqələrin olmasına baxmayaraq, real həyatda bu iki elm sahəsi bir – birindən ayrı şəkildə

tədqiq edilir. “Hüquq və iqtisadiyyat” indiki zamanda üzərində ən çox işlənilməsi vacib olan sahədir.Iqtisadi sistemin quruluşu hüquq qaydalarından asılıdır. Hüququn yaxşı fəaliyyət göstərmədiyi yerdə iqtisadi münasibətlər də xaosa uğrayar. Hüquq sistemi xüsusi mülkiyyətin həm yaradıcısı, həm də qoruyucusudur və bunu əsasən bağlanılan əqdlər vasitəsi ilə gerçəkləşdirir. Hüquq olmadan iqtisadiyyat da olmaz. Məsələn, iqtisadi münasibətlərin təməli olan rəqabət də, hüquq sistemi tərəfindən qorunur. Daha doğrusu, rəqabət hüququ bu sahədə azad rəqabət mühitinin yaradılması, inhisarçılığın qarşısının alınmasına xidmət edir.

Iqtisadi sistem dəyişən zaman mülkiyyət münasibətlərində baş verən dəyişikliklər iqtisadi münasibətlərə təsir göstərir. Buna uyğun olaraq müvafiq münasibətlərin tənzimlənməsinin normativ hüquqi bazasının formalaşması obyektiv zərurətə çevrilir. Qəbul olunmuş qanunlar, fərman və proqramların ölkə iqtisadiyyatına təsiri çox böyükdür. Qəbul edilmiş normativ hüquqi aktlar vasitəsi ilə ölkə iqtisadiyyatını inkişaf etdirmək mümkündür. Bu normativ hüquqi aktlar çox şaxəlidir və iqtisadiyyatın inkişafına birbaşa təsir göstərir. Elə bu baxımdan ds onların ölkə iqtisadiyyatının inkişafına stimul yaradıcı təsirə malik olması üçün mütəmaddi olaraq təkmilləşdirilməlidir.

Hazırda Azərbaycan Hökuməti ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər, qeyri – neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Məlum olduğu kimi, ölkə iqtisadiyyatının ən mühüm şərtlərindən biri vergi rejimi ilə bağlıdır. Ötən müddət ərzində vergi münasibətlərini tənzimləyən qanunlara bir sıra əlavə və dəyişikliklər edilmiş, “Vergi Məcəlləsi” qüvvəyə minmişdir. Son illər vergilərin sayı, sosial sığorta ödənişləri xeyli azaldılmışdır.

Əldə edilmiş bütün məlumatlardan belə bir nəticəyə gəlmək olar ki, həyata keçirilən kompleks islahatlar vergilərin toplanmasında son illərdə yaranmış geriliyin aradn qaldırılmasına imkan vermiş, dövlət büdcəsinə daxilolmaların artmasına müsbət təsir göstərmişdir. Bütün bunların nəticəsində, Azərbaycanda sabit vergi sistemi yaradılmışdır və strateji planların həyata keçirilməsi üçün əlverişli şərait mövcuddur. Bununla belə, qarşıda həll olunmamış bir sıra məsələlər də vardır. Ona

görə də, vergi islahatlarının bundan sonra da davam etdirilmsinə və daha çevik vergi sisteminin yaradılması məqsədəuyğun sayılır. Burada başlıca vəzifə vergi orqanlarında şəffaflığın təmin olunması, vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi, vergi hüquqpozmaları və eyni zamanda, korrupsiya ilə mübarizənin gücləndirilməsinə nail olmaqdır.

Gömrük orqanlarının da fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Lisenziyalaşdırma işinin sadələşdirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Hazırda hüquqi şəxslərin dövlət qeydiyyatına alınması prosedurları da xeyli sadələşdirilmiş, bu sahədə əvvəllər mövcud olmuş problemlər aradan qaldırılmışdır.

Ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etmək məqsədi ilə atılan addımlardan biri isə antiinhisar qanunvericiliyinin formalaşdırılması idi. Belə ki, bazar iqtisadiyyatının əsas elementlərindən biri azad rəqabətdir. Bunun təmin olunması üçün ölkədə inhisarçılığın qarşısı alınmalı, sağlam rəqabət mühiti yaradılmalıdır.

Respublikamızda rəqabət mexanizminin və onun dövlət müdafiəsi sisteminin yaradılması yolunda xeyli işlər görülmüş və müsbət nəticələr qazanılmışdır. Bu özünün ifadəsini ilk növbədə qanunvericilik mexanizmində tapır. Sahibkarlıq fəaliyyəti, müəssisələr, antiinhisar fəaliyyəti, haqsız rəqabət və təbii inhisarlar haqqında qanunlar qəbul olunmuşdur. Bu qnunlar və onların əsasında təsdiq olunmuş normativ sənədlər Azərbaycan Respublikasının Konistutisiyasının rəqabətin dövlət müdafiəsi sahəsində tələblərinin reallaşması üçün zəruri hüquqi baza yaradır.

Özəlləşdirmənin gedişində iqtisadiyyatın bir sıra vacib sahələrinin inhisarlaşdırılmasına baxmayaraq antiinhisar qnunvericiliyinin pozulması hələ də geniş yayılmışdır. İri müəssislərin məhsullarına daxili bazarda tələbatın məhdudluğu üzündən onların rəqabət mühitinin formalaşmasında iştirakı zəifdir. Belə hallar antiinhisar qanunvericiliyinin pozulması nəticəsində baş verir. Buna görə də geniş ölçüdə yumşaq antinhisar siyasəti həyata keçirilməklə yanaşı bu sahədə sərt tədbirlərin də tətbiqi zəruridir.

Yalnız sadalanan sahələrdə deyil, iqtisadiyyatın bütün sahələrində iqtisadi münasibətləri tənzimləyən qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdiril-

məsi ölkə qarşısında duran, həlledilməsi vacib məsələlərdəndir. Xarici təcrübə də göstərir ki, iqtisadi münasibətləri tənzimləyən qanunvericilik bazası daim təkmilləşdirilməlidir, iqtisadi münasibətlər dəyişdikcə adekvat olaraq normativ hüquqi baza da təkmilləşdirilməlidir. Bunun üçün ölkədə iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi istiqamətində aşağıdakıların nəzərə alınması məqsədəuyğun olardı:

- iqtisadi inkişafın məqsədlərini müəyyən etmək. Bunu müxtəlif yollarla həyata keçirmək mümkündür. Burada ən məqsədəuyğun yol qanunvericilik qaydalarında bütün məqsədləri qeyd etməmək, bunun əvəzində vətəndaşlar və onların birliklərinə "nə qadağa deyilsə ona icazə verilir" prinsipinə müvafiq olaraq imkanlar vermək ola bilər;

- bazar iqtisadiyyatının normal inkişafı üçün hüquqi vasitələrlə əlverişli şəraitin yaradılması;

- mübahisələrin həll olunması qaydalarının reqlamentləşdirilməsi;

- vergi qanunvericiliyində boşluqların aradan qaldırılması istiqamətində tədbirlərin görülməsi;

- antiinhisar qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər sistematikliyinin təmini və s.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. H.B. Allahverdiyev İqtisadiyyatın hüquqi tənzimlənməsi, Bakı, 2009
2. Əsgərov Z. Konstitusiya hüququ. Bakı. Bakı Universiteti. 2002
3. Sadıqov K. F. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsasları. Bakı: 1999
4. İ.Məmmədov. Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 2005
5. Əhmədov İ. A. "Keçid dövründə iqtisadiyyatın dövlət tənzimlənməsi" Bakı, "Nasir" 1999
6. Ege Cansen: İktisadi hukuk veya hukuki iktisat// Hürriyet. 2006
7. V.N. Xropanyuk. Dövlət və hüquq nəzəriyyəsi. Bakı. 1995
8. V.V. Lazarev "Ümumi hüquq və dövlət nəzəriyyəsi" Bakı, "Nurlan" 2004
9. Кушлина И.В., Волчина Н.А. Государственное регулирование рыночной економики, Економика 2001, стр. 234-235
10. В. М. Ведяхин, С. Н. Ревина. "Типы и методы правового регулирования рыночных отношений" Правоведение. 2002. №2(241). С. 232-244
11. С. С. Алексеев, М. И. Архипов, В. М. Корельский и др.; Под ред. В. М. Корельского, В. Д. Перевалова. " Теория государства и права" М., 1997. С. 264.
12. Спиридонов Л. И. "Теория государства и права" Учебник. М., 1999. С. 212.
13. Соколинский В. М. "Государство -экономика" М., 1996. С. 41.
14. Флейшиц Е. А. "Об административных и экономических методах руководства народным хозяйством" Отв. ред. А. Е. Лунев. М., 1966. С. 126.
15. Корсаков Е. А. "Государственно-правовое регулирование экономических отношений: проблемы, методы" Автореф. канд. дисс. Саратов, 2000. С. 24.
16. Павлушина А. А. "Правовое регулирование рыночных отношений (общетеоретический аспект)" Самара, 1994. С. 139.
17. Витченко А.М."Метод правового регулирования общественных отношений" Саратов, 1974. С. 52-60.

18. Савостин А. А. “Основные аспекты государственного регулирования экономических отношений” Юрист. 2000. № 10. С. 58.
19. В.А. Савельев А.С.Алексеев. История государства и права зарубежных стран М.: ИМПЭ, 2000
20. Э.В. Талапина. О публичном экономическом праве //Журнал российского права, 2004
21. М. Уайт. Юридическая практика и экономическая адаптация: сравнение практики общего права и римского // Экономическая теория преступлений и наказаний, 2002
22. Диаконов В.В. Теория государства и права. Москва ,2004
23. Титова Н.Е. История экономических учений. М.: ВЛАДОС, 1997
24. Р. Бэрроуз, Ц. Вельяновский. Экономический подход к праву // Экономическая теория преступлений и наказаний, 2002
25. Д. Фридман. Право и экономическая теория // Экономическая теория преступлений и наказаний, 2002
26. Р. Познер. Экономическая теория примитивного права: система ответственности // Экономическая теория преступлений и наказаний, 2002
27. Лазарев В.В. Общая теория права и государства. М: Юристъ, 2001
28. Хайман Д.Н. Современная микроэкономика: анализ и применение. М.:1992
29. Н.С. Лярская. Правовые системы и экономика: сравнение англосаксонского и романо-германского права // Экономическая теория преступлений и наказаний, 2002
30. Норт Дуглас. Институты, институциональные измененения и функционирование экономики. Москва. Пер. с англ. 1997
31. Петров А.В. Экономика и право (к проблеме соотношения) ВЕСТНИК Нижегородского государственного университета им. Н. И. Лобачевского. 2000
32. Право и экономика: традиционный взгляд и перспективы развития. М.: ГУ – ВШЭ. 1999

33.Шаститко А. Е. Неоинституциональная экономическая теория. М:. 1999
34.Коваленко А.И. Правовое государство:концепции и реальность. М:1993
35.Олейник А.Н. Институциональная экономика. М.: ИНФРА – М, 2000.
36. Жидков О. А., Крашенинникова Н. А. История государства и права зарубежных стран. 1999.
37.Дж. Ю. Стиглиц. Экономика государственного сектора.

Normativ-hüquqi aktlar

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. "Normativ – hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının qanunu.
3. "Haqsız Rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunu
4. "Sahibkarlıq Fəaliyyəti Haqqında" Azərbaycan Respublikası Qanunu
5. "Hüquq ədəbiyyatı nəşriyyatı" ,"Azərbaycan Respublikasının Vergi Məcəlləsi" Bakı, 2013
6. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu
7. " Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanunu

İnternet resursları:

1. http://www.scs.gov.az/ - Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin rəsmi saytı;
2. http://www.economy.gov.az – AR İqtisadiyyat Nazirliyinin rəsmi saytı
3. 3. http://www.meclis.gov.az – AR Milli Məclisin rısmi rəsmi ünvanı;
4. http://www.president.gov.az – AR Prezident Aparatının rəsmi rəsmi ünvanı;
5. http://www.azstat.org – Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi ünvanı;
6. http://www.maliyye.gov.az – AR Maliyyə Naziyliyinin rəsmi ünvanı;
7. http://www.cbar.az – AR Mərkəzi Bankının rəsmi rəsmi ünvanı;
8. http://www.mincom.gov.az – Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rəsmi saytı.

# АННОТАЦИЯ

Правовое определение общих правил государственного регулирования экономических процессов отражают прежде всего цель, задачи и способы определения госдарственного регулирования экономики. В это врмя цель государственного регулирование экономики исходит из целей социально-экономического развития траны и законадательно определяет её для сохранения в будующем функций государственных правщих органов. В условиях рынка к основным целям социално-экономического разития страны входят повышение уровня жизни страны, стимулирование экономического развития, достижения рационального уровня занятности, создание и защита конкурентного механизма, развития рыночной среды для роста предпринимательства и для обеспечения конкурентоспособности нацианолной экономики на мировом рынке и.т.д.

Правовое регулирование является сложным процессом и оно осуществляется с помошью определённых средств правового воздействия на общественные отношения. Различаются понятия правового воздействие и правовое регулирование. Так как, право уже своим присутствием существенно влияет на поведение людей. Определяет право направление человеческой деятельности, как культурную и информационную ценность. Именно этом понимании правовое воздейтвие шире понятия правовое регулирования общественных отношений. Особенно следует различать определённые средства праового воздействия направленные на непосредственное регулирование общественных процессов. Эти средства составляют цельный системный правовой механизм, обеспечивающий регулирование общественных отнощений, являющееся предметом правовое регулирования.

Политическая система общества осуществляет свой фнкции на основе правовых норм. Все организационные структуры – государственные организации, общественные организации, трудовые коллективы действуют в рамках и на основе закона и, определяющих правовую основу государственной и общественной жизни. Государство организирует общественнуюжизни на павовых основах. Правовые формы организации жизни общества, именно принадлежат государству.

# ANNOTATION

The state regulation general legal defining first of all purpose, post and definite contrary in yourself. Purpose of state regulation comes of the country forward from purposes and state is defined of the country for in future. It have been included.

Legal regulation is complex process and it is implemented with help of the definite means of the legal influence to public relations. They distinguish from the conceptions of legal influence and legal regulation. So, it already influences the important by right existence to the behavior of the people. Cultural and right defines the direction of the man activities as like information cost. Public relations of legal influence are wider than namely in this meaning from the conception of legal regulation. Specially, it is necessary to distinguish from the means of definite legal influence where have been directed to the direct regulation of the public relations. Unbroken system legal mechanism secure provide the regulation of the public relations subject of the legal regulation of these means organizes.

Legal norms happen implement the functions of the political system of the society on the basis of. All organizational organizations of the political system, social public organizations, labour collective carry out activity in the frame of laws organize amount the legal base of the state life and social public life and on the basis of their. State organizes amounts the social life by legal bases. Legal forms of the forming of the society life belong namely to the state.

# REFERAT

Mövzunun aktuallığı. Dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə respublikamızın siyasi, ictimai, iqtisadi və sosial həyatındakı mövcud vəziyyət totalitar sovet rejimindən miras qalmış və inzibati – amirlik sisteminə əsaslanan təsərrüfat mexanizmindən imtina edilməsini və bazar iqtisadiyyatına keçidi qəti şəkildə, tam kəskinliyi ilə qarşıya qoymuşdur. Çünki istehsal vasitələri və nəticələrinin əldə edilməsi və idarə olunması üzərində dövlət inhisarından təsərrüfat müəssisələrinin müstəqilliyinə əsaslanan mülkiyyətin müxtəlif formalarına keçilmədən, təsərrüfatın avtoritar – bürokratik sistemi ləğv edilərək tərəflərin bərabərliyinə, qarşılıqlı mənafe və maraqlarına uyğun mülki hüquqi əlaqə formaları yaradılmadan, bölgüdəki bərabərlikdən asılı olaraq sosial ədalət mexanizmləri vasitəsilə bölgüsünə keçilməsini təmin etmədən iqtisadiyyatın potensial imkanlarını reallaşdırmaq, işgüzarlıq və sahibkarlıq fəaliyyətini, təsərrüfatçılıq fəallığını artırmaq, milli sərvətlərdən və təbii ehtiyyatlardan daha səmərəli istifadə etmək mümkün deyildir. Göründüyü kimi, tədqiqat işinin aktuallığını mövcud iqtisadi münasibətlərin yeni sistemə uyğunlaşdırılması, həmin sahələri əhatə edən və tənzimləyən qanunvericilik bazasının yaradılması, artıq bazar iqtisadiyyatına qədəm qoymuş ölkələrin təcrübəsindən istifadə edərək iqtisadiyyatın səmərəli idarə edilməsinə nail olmaq təşkil edir.

Müasir dördə respublikamizda iqtisadi suverenliyin, siyasi müstəqilliyin, cəmiyyətdə sosial sabitliyin, xalqın rifah halının və mənəvi səviyyəsinin yüksəldilməsi, iqtisadi siyasətin məqsədi olan iqtisadi artıma nail olunması, iqtisadi münasibətlərə dövlətin səmərəli müdaxiləsi, dövlətin hüquqi vasitələrdən istifadə edərək iqtisadi münasibətləri tənzim etməsi, respublikamızın zəngin və keyfiyyətli təbii xammal ehtiyyatlarından və intellektual potensialından daha səmərəli surətdə istifadə edilməsi, gələcək nəslin mənafeyinin gözlənilməsi, insanların psixologiyasında ciddi dəyişikliklərin aparılmasını təmin etmək ölkə qarşısında duran əsas məqsədlərdəndir. Bazar iqtisadiyyatına keçid dövrü ilə əlaqədar tamamilə yeni strukturlar yaranmış və yaranmaqda davam edir. Mülkiyyət, özəlləşdirmə, maliyyə, vergi, gömrük və s. sahələrlə bağlı əvvəllər bizim cəmiyyətə məlum olmayan iqtisadi – hüquqi münasibətlər yaranır, iqtisadiyyatın bütün sahələrində çoxsaylı təşkilati hüquqi formalar təşəkkül tapır.

Dissertasiya işinin predmetini iqtisadi sistemin transformasiyası şəraitində dövlətin iqtisadi münasibətlərə müdaxiləsi, hüquqi vasitələrlə iqtisadiyyatı tənzimləməsi, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən qanunvericilik bazasının formalaşdırılması, mövcud qanunların, normativ hüquqi aktların təkmilləşdirilməsi yollarının öyrənilməsi təşkil edir. İşin obyektini isə Azərbaycan Respublikasının milli iqtisadiyyatı təşkil edir.

İqtisadi fəaliyyəti, müxtəlif sahələrdəki iqtisadi münasibətləri tənzimləyən və müxtəlif hüquqi qüvvəyə malik olan normativ aktlar dissertasiya işinin nəzəri – meto-

doloji əsasını təşkil edir. Həmin normativ hüquqi aktlara iqtisadiyyatın ayrı – ayrı sahələrini tənzimləyən qanunları, Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını aid etmək olar. Həmçinin dissertasiya işində internet resurslarından da istifadə olunub.

Dissertasiya işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- dövlət, iqtisadiyyat və hüququn qarşılıqlı əlaqəsi və təsirin iqtisadi təhlili mexanizmi öyrənilmişdir;

- iqtisadiyyatın hüquqi tənzimlənməsinə yanaşmada müasir konseptual meyllər araşdırılmış və respublikamız üçün onun məqsədəuyğun variantı müəyyən olunmuşdur;

- hüququn iqtisadi funksiyalarının təşəkkülü və onun reallaşdırılmasının təmini müxanizmi müəyyənləşdirilmişdir.

Dissertasiya işinin məqsədi ölkəmizdə bazar iqtisadiyyatına keçid şəraitində iqtisadi münasibətlərin inkişaf etmiş bazar prinsipləri əsasında formalaşdırılması və bu formalaşan münasibətlərin daim inkişaf etdirilərək dövrün tələblərinə uyğunlaşdırılmasına imkan verən səmərəli dövlət tənzimlənməsi sisteminin yaradılması potensialını üzə çıxarmağa çalışmaqdır.

Dissertasiya işinin vəzifələrinə aşağıdakıları aid etmək olar:

- iqtisadi münasibətlərin tənzimlənməsində hüququn təsir mexanizminin xarakteristikasının müəyyənləşdirilməsi;

- iqtisadi münasibətlərin hüquqi tənzimlənməsinə institutsionalist yanaşmanın özünəməxsus xüsusiyyətlərinin ortaya çıxarılması;

- dövlət, iqtisadiyyat və hüququn qarşılıqlı əlaqəsi və təsirin iqtisadi təhlilinin aparılması;

- müasir iqtisadi hüquq nəzəriyyələrini müqayisəli təhlili;

- Azərbaycan Respublikasında iqtisadi hüquq mənbələrinin formalaşdırılması və reallaşdırılması prosedurlarını tədqiqi;

- iqtisadiyyatın hüquqi tənzimlənməsi sahəsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi və həmin təcrübədən istifadə istiqamətlərinin araşdırılması təşkil edir.

Dissertasiya işinin informasiya bazasını müxtəlif ədəbiyyatlarla yanaşı qanunlar, məcəllələr, normativ hüquqi aktlar və həmçinin internet reursları da təşkil edir. Dissertasiya işində müxtəlif tədqiqat üsullarından istifadə olunmuşdur. Bunlara analiz, sintez, qruplaşdırma, statistik, sistemli təhlil, müqayisəli təhlil və s. göstərmək olar.

Dissertasiya işinin strukturu  girişdən, üç fəsil, nəticə və təkliflərdən ibarətdir. Sonda istifadə olunmuş ədəbiyyatların siyahısı verilmişdir.